RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 213 (9668) 29 sentyabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# İnkişaf büdcəsi

## 2025-ci ilin dövlət büdcəsi qarşıya qoyulan bütün prioritet vəzifələrin tam yerinə yetirilməsinə imkan verəcək

Azərbaycan Respublikasının 2025-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlama bir neçə gün əvvəl ictimaiyyətə təqdim olunub. Sentyabrın 24-də isə Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun sədrliyi ilə keçirilmiş hökumətin iclasında 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, 2025-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə olunub.

İclasda qeyd olunub ki, qlobal miqyasda artan geosiyasi gərginliklərə, beynəlxalq əmtəə bazarlarında volatil qiymətlərə və dünya ölkələrində borc və büdcə kəsirinin artmasına baxmayaraq, ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin olunmuşdur.

Sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədə də Prezident İlham Əliyev 2024-cü ildə iqtisadi sferada əldə olunan nəticələri yüksək qiymətləndirmişdir. Dövlət başçısının qeyd etdiyi kimi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılmış addımlar müsbət nəticələrini verməkdədir: "İqtisadi artım 4,3 faiz təşkil edib. Bugünkü dünyada gedən prosesləri təhlil edərkən və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda deyə bilərəm ki, bu, çox müsbət göstəricidir. İqtisadi inkişaf templəri inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələyir. Xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir".

8 ayda qeyri-neft sektorunda 7 faiz, qeyri-neft sənayesində isə 7,8 faiz artım qeydə alınmışdır. Bütövlükdə, müsbət makroiqtisadi şərait növbəti ilin dövlət büdcəsini də pozitiv məzmunda tərtib etməyə imkan vermişdir.

Növbəti il və ortamüddətli dövr üçün budcə siyasəti prioritet çağırışlar nəzərə alınmaqla müəyyən edilmişdir. Bu çağırışlar "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya"sında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidənqurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük qayıdışın təmin edilməsi, ölkənin hərbi-müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması, dayanıqlı iqtisadi artımın dəstəklənməsi, makroiqtisadi sabitliyin və büdcə dayanıqlılığının təmin olunması, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasının diqqət mərkəzində saxlanılmasıdır.

→ 4

# Azərbaycan-Çin əlaqələri gündən-günə yeni məzmunla zənginləşir

## Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə



Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının yaranmasının 75-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı yetirməkdən böyük məmnunluq duyuram.

Ötən dövr ərzində Çin Xalq Respublikası bütün sahələrdə - iqtisadiyyat, sənaye, elm, kosmik tədqiqat, müasir texnologiyalar, müdafiə, əhalinin sosial-iqtisadi rifahı və digər sahələrdə mühüm nailiyyətlər əldə edərək beynəlxalq aləmdə yüksək nüfuz qazanmış, dünyanın ən güclü və qüdrətli dövlətləri sırasında yer almışdır. Bütün bu nailiyyətlərdə şəxsən Sizin də misilsiz rolunuz və xidmətləriniz vardır.

Dostluq və qarşılıqlı hörmət üzərində qurulmuş, gündən-günə yeni məzmunla zənginləşən Azərbaycan-Çin dövlətlərarası əlaqələrinin bugünkü səviyyəsi bizi sevindirir.

İyulda Astanada Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü, ikitərəfli münasibətlərin geniş spektri və əməkdaşlığımızın perspektivləri ətrafında apardığımız fikir mübadiləsini yüksək qiymətləndirirəm. Hesab edirəm ki, görüş əsnasında qəbul olunmuş "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" mühüm tarixi addım, əməkdaşlığımızı daha da genişləndirmək və möhkəmləndirmək istiqamətində qarşılıqlı əzmimizin bariz təzahürüdür.

Bu gün siyasi əlaqələrimizin yüksək səviyyəsi və fəal dialoq, iqtisadiyyat, ticarət nəqliyyat-logistika, telekommunikasiya, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi üçün əlverişli şərait yaradır. "Kəmər və yol" və "Orta dəhliz" layihələri çərçivəsində səmərəli işbirliyimizi xüsusi qeyd etmək istərdim.

Eyni zamanda biz Çinlə iqlim dəyişmələri ilə mübarizədə, o cümlədən "yaşıl enerji", "yaşıl" və aşağı karbonlu texnologiyalar sahələrində birgə fəaliyyətimizi daha da dərinləşdirmək, ölkənizin qabaqcıl təcrübəyə malik şirkətləri ilə daha sıx əməkdaşlıq etmək əzmindəyik. İnanıram ki, noyabr ayında Azərbaycanın evsahibliyi edəcəyi COP29-da Çinin fəal iştirakı qlobal iqlim fəaliyyəti gündəliyinin irəli aparılmasına və gələcək nəsillərə daha təmiz və dayanıqlı dünyanı miras qoymaq məqsədinə çatmağımıza töhfə verəcəkdir.

Hörmətli cənab Sədr!

Əminəm ki, Azərbaycan ilə Çin arasında ənənəvi dostluq münasibətləri, həm ikitərəfli qaydada, həm də çoxtərəfli əsasda qarşılıqlı faydalı əməkdaşlığımız dost xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da inkişaf edəcək, strateji tərəfdaşlığımız daha da dərinləşəcəkdir.

Belə bir əlamətdar gündə bir daha Sizə ən səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq, rifah və firavanlıq diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2024-cü il*

# Gələn il əməkhaqqı və sosial ödənişlərdə gözlənilən artımlardan 2 milyondan artıq vətəndaş bəhrələnəcək

2025-ci ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaq. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında qalmağa davam edəcək. Bütövlükdə bütün istiqamətlər üzrə sosialyönlü xərclər dövlət büdcəsi xərclərinin 43 faizini təşkil edəcək. Gələn il əməkhaqqı və sosial ödənişlərdə gözlənilən artımlardan 2 milyondan artıq vətəndaş bəhrələnəcək. Müasir innovativ təhsilin inkişafı və əhalinin keyfiyyətli tibbi xidmətlərə çıxışının yaxşılaşdırılması üçün növbəti ilin dövlət büdcəsindən daha böyük vəsait ayrılacaq.

→ 13

# İqtisadi inkişaf uğurlarımızın əsasıdır

## Azərbaycan dünyaya yüksəliş modelini təqdim edib



Prezident İlham Əliyevin iqtisadi məsələlərə həsr olunmuş müşavirədə söylədiyi fikirlər, qarşıya qoyduğu vəzifələr ilk növbədə xalqımızın milli maraqlarına xidmət edir, inkişafımızı əsaslandırır. Bu, xoşbəxt həyatımızın təmin olunmasına istiqamətlənməklə, əmin-amanlığa, əməkdaşlığa, birliyə yollar açır. Bu yollar dövlət rəhbərinin düşünülmüş siyasətindən, insanlığa qayğısından, müstəqilliyimizin və suverenliyimizin qorunması sahəsində apardığı mübarizədən, sülhə, demokratiyaya, insan haqlarına, haqq-ədalətə, hörmət və ehtiramdan keçir.

Bu yol qürurvericidir, uğurludur və onu davam etdirmək gələcəyimizə yeni töhfələr verəcək, uğurlar qazandıracaq.

→ 4

# Haiti Fransadan təzminat tələb edir

## 200 il əvvəl Port-o-Prens müstəqillik üçün Parisə 560 milyon dollar verib

Haiti liderinin sözlərinə görə, onun ölkəsi ədalət axtarır: "Biz Parisi mənəvi və tarixi borcun tanınmasına və xalqımıza bu ədalətsiz keçmişin görünməz buxovlarından qurtulmasına imkan verəcək lazımi təzminatın həyata keçirilməsinə çağırırıq. Ödədiyimiz vəsaiti qaytarmağın vaxtı çatmayıbmı? Ölkəmiz bir sıra hökumətlər, eləcə də BMT-nin bəzi qurumları tərəfindən tanınma və keçmişdə dəymiş ziyanla bağlı reparasiyaların ödənilməsinə yönəlmiş konkret tədbirlər çərçivəsində irəli sürülən təklifləri alqışlayır".

Şura sədri əlavə edib ki, Haiti müstəmləkəçilik siyasətinin qurbanı olan ölkələrlə keçmiş müstəmləkəçi dövlətlər arasında dialoq mexanizminin yaradılması prosesində BMT-yə güvənir.

Haitidə təzminat məsələsi ilk dəfə deyil ki, qaldırılır. Bu ilin aprelində vətəndaş cəmiyyəti qruplarının yerli koalisiyası haitililərin əvvəlki borcunu qaytarmaq üçün Parisin Port-o-Prensə milyardlarla dollar təzminat ödəməli olduğunu bildirmişdi. 2022-ci ildə "The New York Times" qəzeti hesablayıb ki, haitililər azad yaşamaq üçün Fransaya bugünkü pulla təxminən 560 milyon dollar ödəyiblər.

→ 16

# Neftçilər parkının gözəlliyi göz oxşayır



Prezident İlham Əliyev tərəfindən Bakıya, onun abadlığına, infrastrukturuna, mədəni həyatına diqqət o qədər böyükdür ki, bunu təkcə ölkə vətəndaşları deyil, xarici ölkələrdən Bakıya gələn insanlar da etiraf edirlər. Əvvəl Bakıda olmuş əcnəbi turist növbəti dəfə paytaxtımıza gələndə onu tanıya bilmədiyini, şəhərin çox sürətlə inkişaf etdiyini, gözəlləşdiyini deyir.

Bu gözəlliyə əlavə gözəllik qatan istirahət parklarıdır. Bakıda onlarla istirahət parkı, gəzinti zonası, xiyaban var. Çəkinmədən deyə bilərik ki, bu istiqamətdə görülən işlərdən dolayı Bakı keçmiş ittifaq respublikalarının paytaxtlarından xeyli öndədir. Buna baxmayaraq, şəhərimizdə yeni meqaparkların salınması, bəzilərinin ərazisinin genişləndirilməsi, köhnə, baxımsız parkların bərpa olunması davam edir. Belə parklardan biri də Suraxanı rayonunun Qaraçuxur qəsəbəsindəki Neftçilər parkıdır. Parkda demək olar ki, 89 min əhalisi olan qəsəbə sakinlərinin istirahəti üçün hər cür şərait yaradılıb. Buranın havası təmiz, ərazisi geniş və abaddır.

→ 11

# "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və digər büdcə təşkilatları:

2.1. dövlət idarəetməsinin təkmilləşdirilməsi, səmərəliliyinin və şəffaflığının yüksəldilməsi məqsədilə göstərdikləri xidmətlərin və daxili idarəetmə proseslərinin (kadrların idarə olunması, maliyyə-uçot və mühasibat, təchizat və təminat) rəqəmsallaşdırılmasını təmin etsinlər;

2.2. sahibi və (və ya) operatoru olduqları dövlət informasiya ehtiyatlarının və sistemlərinin qiymətləndirilməsinə, eləcə də monitorinqlərin (auditlərin) aparılmasına şərait yaratsınlar və onların nəticələri əsasında aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görsünlər;

2.3. sahibi və (və ya) operatoru olduqları dövlət informasiya ehtiyatlarının və sistemlərinin dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrində, fərdi məlumatların dövlət informasiya sistemlərinin isə həmçinin fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrində qeydiyyata alınmasını altı ay müddətində təmin etsinlər.

3. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə uyğun olaraq, inzibati orqanlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olan, qanunla ərizəyə əlavə edilməli sənədlərin və ya məlumatların siyahısının xidmət göstərdikləri binalarda müvafiq məlumat lövhələrində və rəsmi internet səhifələrində yerləşdirilməsini və mütəmadi yenilənməsini təmin etsinlər.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1826 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) aşağıdakı dəyişikliklər edilsin:

5.1. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

3-1.1. dövlət informasiya ehtiyatlarını və sistemlərini mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin;

3-1.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin təhlükəsizlik meyarları üzrə monitorinqini və ildə bir dəfədən az olmayaraq təhlükəsizlik üzrə auditini həyata keçirsin;

3-1.3. dövlət informasiya ehtiyatları və sistemləri istismara verilməzdən əvvəl onların informasiya təhlükəsizliyi tələblərinə cavab verməsi ilə bağlı rəy versin;

3-1.4. sahibi və operatoru ilə birlikdə dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

3-1.5. Elektron Hökumət İnformasiya Sisteminin (EHİS) və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə onlara inteqrasiya edilən və miqrasiya olunan dövlət informasiya ehtiyatlarının və sistemlərinin sahibləri, operatorları, habelə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə zəruri tədbirlər görsün.";

5.2. həmin Fərmanla təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" üzrə:

5.2.1. 1-ci hissə üzrə:

5.2.1.1. 1.2.1-ci yarımbəndə "publik hüquqi şəxslər" sözlərindən sonra "və digər büdcə təşkilatları" sözləri əlavə edilsin;

5.2.1.2. aşağıdakı məzmunda 1.2.2-1-ci və 1.2.14-1-ci yarımbəndlər əlavə edilsin:

"1.2.2-1. dövlət informasiya sisteminin altsistemi - vahid interfeys əsasında dövlət informasiya sisteminin bir-biri ilə əlaqəli olan bir sıra funksionallıqlarının həyata keçirilməsini təmin edən, proqram təminatı və texnoloji avadanlıqların məcmusu olan struktur hissə;";

"1.2.14-1. elektron kabinet - dövlət informasiya ehtiyatının və sistemininin istifadəçisini Vahid Giriş Sistemi vasitəsilə identikləşdirməklə, qanunla müəyyən edilmiş hallar istisna olmaqla, onun özü barəsində məlumatlarla tanış olmasını, onları əldə etməsini və dəyişdirilməsi üçün müraciət etməsini, habelə digər müraciətlərini elektron formada göndərməsini, elektron xidmətlərdən istifadə etməsini, ödənişlər həyata keçirməsini (ödəniş xidməti təchizatçıları vasitəsilə), həmçinin dövlət informasiya ehtiyatının və sisteminin sahibi, operatoru, iştirakçıları və digər istifadəçiləri ilə qarşılıqlı əlaqəsini, eləcə də dövlət informasiya ehtiyatı və sistemi iştirakçısının Vahid Giriş Sistemi vasitəsilə identikləşdirilməklə dövlət informasiya ehtiyatının və sisteminin sahibi və operatoru ilə qarşılıqlı sənəd (məlumat) mübadiləsini təmin edən fərdi elektron səhifə;";

5.2.1.3. 1.5-ci bənddə "həmin sahəni" sözləri ", habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri" sözləri ilə əvəz edilsin;

5.2.2. 2-ci hissə üzrə:

5.2.2.1. 2.1.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.9-2.1.12-ci yarımbəndlər əlavə edilsin:

"2.1.9. istifadə rahatlığı - istifadənin və informasiya mübadiləsinin rahat, əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

2.1.10. funksionallıq və davamlı inkişaf - dövlət informasiya ehtiyatının və sisteminin inkişaf etdirilməsi imkanını təmin edən proqram-texniki komponentlərin olması, ən son texnologiyalardan istifadə etməklə həmin informasiya ehtiyatının və sisteminin daim təkmilləşdirilməsi;

2.1.11. operativlik - xidmət göstərilməsinin, informasiyanın əldə olunması və mübadiləsinin avtomatlaşdırılmış qaydada və sürətli şəkildə həyata keçirilməsi;

2.1.12. şəffaflıq - dövlət informasiya ehtiyatının və sisteminin fəaliyyətində və xidmət göstərilməsində aşkarlığın və hesabatlılığın təmin edilməsi.";

5.2.2.2. 2.5.1-ci yarımbəndə "adı" sözündən sonra "(müvafiq olaraq informasiya ehtiyatı və ya informasiya sistemi olması göstərilməklə)" sözləri əlavə edilsin;

5.2.3. 3.3-cü bəndə və 3.5.2-ci (hər iki halda) yarımbəndə "gücləndirilmiş" sözündən əvvəl "təkmil sertifikatlı" sözləri əlavə edilsin;

5.2.4. 5.10-cu bəndin ikinci cümləsinə "Reyestrə" sözündən sonra ", fərdi məlumatların işlənildiyi və mühafizə edildiyi dövlət informasiya ehtiyatına münasibətdə isə həmçinin fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə" sözləri əlavə edilsin;

5.2.5. 6-cı hissə üzrə:

5.2.5.1. 6.0.4-cü yarımbəndə "əməkdaşlarını" sözündən sonra "təkmil sertifikatlı" sözləri əlavə edilsin;

5.2.5.2. 6.0.5-ci yarımbəndə "məlumatları" sözündən sonra "(sənədləri)" sözü əlavə edilsin;

5.2.5.3. 6.0.6-cı və 6.0.12-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"6.0.6. dövlət informasiya ehtiyatına və sisteminə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsini, habelə daxil edilmiş məlumatların aktuallığını, etibarlılığını, təhrifolunmazlığını, əlçatanlığını, tamlığını və konfidensiallığını təmin etmək üçün tədbirlər görmək;";

"6.0.12. dövlət informasiya ehtiyatının və sisteminin təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Əlaqələndirici quruma zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə dövlət informasiya ehtiyatına və sisteminə çıxış, habelə onların texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və test etmə imkanlarını təmin etmək;";

5.2.5.4. aşağıdakı məzmunda 6.0.6-1-ci yarımbənd əlavə edilsin:

"6.0.6-1. dövlət informasiya ehtiyatı və sistemi vasitəsilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyini, o cümlədən kibertəhlükəsizliyini aidiyyəti dövlət qurumları ilə birgə təmin etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2024-cü il*

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Dövlət informasiya ehtiyatlarının və sistemlərinin NÜMUNƏVİ ƏSASNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Bu Nümunəvi Əsasnamə əsas və yardımçı dövlət informasiya ehtiyatlarının və sistemlərinin (bundan sonra - dövlət informasiya ehtiyatları və sistemləri) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Dövlət informasiya ehtiyatları və sistemləri rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər büdcə təşkilatlarının, həmçinin yerli özünüidarəetmə orqanlarının (bundan sonra - qurumlar) fəaliyyətinin, habelə digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin, həmin informasiya ehtiyatlarında və sistemlərində saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılmasının məqsədi dövlət idarəetməsinin optimallaşdırılmasından, eləcə də müvafiq sahə üzrə təhlil aparılmasından, proqnoz və hesabatların hazırlanmasından və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

1.4. Dövlət informasiya ehtiyatlarında və sistemlərində yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Fərdi məlumatların dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanılmasının və işlənilməsinin məqsədi bu Nümunəvi Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.6. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Dövlət informasiya ehtiyatları və sistemləri Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın (bundan sonra - Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.8. Bu Nümunəvi Əsasnamə əldə edilməsi məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.9. Bu Nümunəvi Əsasnamədə istifadə olunan anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

**2. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin texniki-texnoloji infrastrukturu**

2.1. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznes yönümlü həllər əsasında "Mobil Prioritetli Tərtibat" prinsipi ilə qurularaq, dövlət informasiya ehtiyatlarının və sistemlərinin funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə həmin informasiya ehtiyatlarından və sistemlərindən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. Dövlət informasiya ehtiyatları və sistemləri fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq dövlət informasiya ehtiyatlarının və sistemlərinin telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları həmin dövlət qurumunun struktur bölmələri tərəfindən;

2.4.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra - XRİTDX) tərəfindən.

2.5. Dövlət informasiya ehtiyatlarında və sistemlərində formalaşdırılan, həmin informasiya ehtiyatlarına və sistemlərinə daxil edilən və ötürülən məlumatlar dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət informasiya ehtiyatları və sistemləri, o cümlədən həmin informasiya ehtiyatlarında və sistemlərində toplanılan məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. Dövlət informasiya ehtiyatlarında və sistemlərində aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

**3. Dövlət informasiya sisteminin altsistemləri**

3.1. Dövlət informasiya sisteminin strukturunda altsistemlər olduğu təqdirdə həmin informasiya sisteminin hansı altsistemlərdən ibarət olması göstərilir.

3.2. Dövlət informasiya sisteminin altsistemləri təyinatı üzrə müvafiq sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanılmasını və emalını, dövlət informasiya ehtiyatlarının və sistemlərinin inteqrasiyasını, monitorinq və təhlil aparılmasını, proqnozlar hazırlanmasını və müvafiq sahədə mərkəzləşdirilmiş elektron xidmətlər göstərilməsini təmin edir.

**4. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil edilən və ötürülən məlumatlar**

4.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil edilən və ötürülən (sahib və ya operatorun normativ hüquqi aktlarla müəyyən edilən hüquqlarının həyata keçirilməsi, vəzifələrinin icrası, habelə dövlət xidmətlərini göstərməsi zamanı tələb olunan) məlumatların tərkibi Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunur. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil edilən və ötürülən məlumatlar həmin informasiya ehtiyatlarının və sistemlərinin əsasnaməsində ayrılıqda qeyd edilir.

4.2. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.3. Dövlət informasiya ehtiyatları və sistemləri ilə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) həmin informasiya ehtiyatlarına və sistemlərinə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.4. Dövlət informasiya ehtiyatlarında və sistemlərində formalaşdırılan sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib olunur və rəsmiləşdirilir.

**5. Dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə qaydası**

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan qurumların digər dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra - EHİS) inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan qurumların və digər hüquqi şəxslərin dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda qurumların və digər hüquqi şəxslərin rəhbər şəxsi tərəfindən dövlət informasiya ehtiyatlarında və sistemlərində qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər Vahid Giriş Sistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq həmin informasiya ehtiyatlarından və sistemlərindən istifadə edirlər.

5.3. Fiziki şəxslər Vahid Giriş Sistemi vasitəsilə dövlət informasiya ehtiyatlarında və sistemlərində identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq həmin informasiya ehtiyatlarından və sistemlərindən istifadə edirlər.

5.4. Dövlət informasiya sistemləri vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə həmin informasiya sistemlərinin rəsmi internet informasiya ehtiyatı (EHİS-ə keçid verilməklə) və EHİS vasitəsilə, ödəniş edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir.

5.5. Dövlət informasiya sistemləri vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və digər) istifadəçilərin dövlət informasiya sistemlərinin fəaliyyətində iştirakını və onlardan istifadəsini, habelə elektron xidmətlərdən yararlanmasını təmin edir. Elektron xidmətlər istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

**6. Sahibin vəzifələri və hüquqları**

6.1. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. dövlət informasiya ehtiyatlarının və sistemlərinin idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən fərdi məlumatların toplanıldığı, işlənildiyi və mühafizə edildiyi ("Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) hallarda isə fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin, həmçinin fərdi məlumatların dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. dövlət informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra - Nazirlik) zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə dövlət informasiya ehtiyatlarına və sistemlərinə çıxış, habelə onların texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və testetmə imkanlarını təmin etmək;

6.1.5. dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyini XRİTDX və operator ilə, kritik informasiya infrastrukturunun obyekti hesab edilən dövlət informasiya ehtiyatlarına və sistemlərinə münasibətdə həmçinin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra - DTX) ilə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

6.1.6. dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə (kritik informasiya infrastrukturu obyektlərinə münasibətdə), XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.7. dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsiilə bağlı tədbirlər görmək;

6.1.8. dövlət informasiya ehtiyatlarına və sistemlərinə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bubarədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.9. dövlət informasiya ehtiyatlarının və sistemlərinin, o cümlədən onların ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və operatorla birlikdə tədbirlər görmək;

6.1.10. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.11. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsində məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.12. dövlət informasiya ehtiyatlarına və sistemlərinə çıxışı olan, habelə onların aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlıgücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.13. aidiyyəti qurumların dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.14. dövlət xidmətləri göstərilməsi üçün tələb edilən sənədlər barədə informasiya digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin informasiyanın ilkin mənbədən əldə edilməsi üçün operator və Nazirliklə birlikdə tədbirlər görmək;

6.1.15. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil etmək;

6.1.16. dövlət informasiya ehtiyatlarından və sistemlərindən sərbəst və maneəsiz istifadənin, habelə onların dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.17. dövlət informasiya ehtiyatlarında və sistemlərində dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.18. dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.19. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə və onların funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.Operatorun vəzifələri və hüquqları**

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. dövlət informasiya ehtiyatlarının və sistemlərininin formasiya təhlükəsizliyini XRİTDX və sahiblə, kritik informasiya infrastrukturunun obyekti hesab edilən dövlət informasiya ehtiyatlarına və sistemlərinə münasibətdə həmçinin DTX ilə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

7.1.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə (kritik informasiya infrastrukturu obyektlərinə münasibətdə), XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. dövlət informasiya ehtiyatlarına və sistemlərinə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. dövlət informasiya ehtiyatlarının və sistemlərinin, o cümlədən onların ehtiyat nüsxələrinin "Hökumət buludu"ndasaxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. dövlət informasiya ehtiyatlarının və sistemlərinin təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə həmin informasiya ehtiyatlarının və sistemlərinin "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahiblə razılaşdırmaqla, texniki tədbirlər görmək və bu barədə həmin informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

7.1.7. dövlət informasiya ehtiyatlarından və sistemlərindən sərbəst və maneəsiz istifadəni, onların dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə dövlət informasiya ehtiyatlarının və sistemlərinin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil etmək;

7.1.9. dövlət informasiya ehtiyatlarını və sistemlərini EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.10. dövlət informasiya ehtiyatlarına və sistemlərinə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlıgücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.11. dövlət informasiya ehtiyatlarının və sistemlərinin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üzrə profilaktik iş aparmaq;

7.1.12. Nazirliyinvə sahibin bu Nümunəvi Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında dövlət informasiya ehtiyatlarında və sistemlərində dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.13. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.14. dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

7.1.15. dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

7.1.16. dövlət informasiya sistemlərindən istifadəni, habelə onlar üzərindən göstərilən elektron xidmətlərin əlçatanlığını təmin etmək üçün formalaşdırılan mobil tətbiqi elektron marketlərdə yerləşdirmək (mobil tətbiq olduğu halda);

7.1.17. aidiyyəti qurumların dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.18. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

*Ardı 3-cü səh.*

# Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naftalan neftinin çıxarılması, emalı, təchizatı proseslərinin təkmilləşdirilməsi, Naftalan neftindən və ondan hazırlanan preparatlardan istifadənin genişləndirilməsi, eləcə də Naftalan şəhərinin sağlamlıq turizmi şəhəri kimi dünyada tanıdılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. altı ay müddətində:

1.1.1. Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə yeni tibbi araşdırmalar aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Naftalan neftinin çıxarılması, emalı, saxlanılması və sanatoriya-kurort müəssisələrinə paylanılması qaydalarını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" Azərbaycan Respublikası Qanununun 3.4-cü maddəsinə uyğun olaraq, "Naftalan" Kurortu haqqında əsasnaməni iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2024-cü il*

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Dövlət informasiya ehtiyatlarının və sistemlərinin NÜMUNƏVİ ƏSASNAMƏSİ

*Əvvəli 2-ci səh.*

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. dövlət informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

7.2.4. dövlət informasiya ehtiyatlarının və sistemlərinin parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər dövlət informasiya ehtiyatlarının və sistemlərinin təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə,informasiya ehtiyatlarına və sistemlərinə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**8. İştirakçıların vəzifələri və hüquqları**

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. dövlət informasiya ehtiyatlarına və sistemlərinə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. dövlət informasiya ehtiyatlarından və sistemlərindən, habelə həmin informasiya ehtiyatlarında və sistemlərində olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. dövlət informasiya ehtiyatlarında və sistemlərində saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinə zərər gətirəcək, habelə onların fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və Nazirliyə məlumat vermək;

8.1.10. öz təşəbbüsləri, habelə Nazirliyin və sahibinbu Nümunəvi Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

**9. İstifadəçilərin hüquqları**

9.1. İstifadəçilərin dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. dövlət informasiya ehtiyatlarındakı və sistemlərindəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahib və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

# "Xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Xüsusi, hərbi və diplomatik rütbələrin ixtisas dərəcələri ilə qarşılıqlı uyğunlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 iyun tarixli 1371 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 586 (Cild I) ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2024-cü il*

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması qaydası

**1. Ümumi müddəa**

Bu Qayda "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 17.4-3-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və xüsusi, hərbi, diplomatik rütbələrin (bundan sonra - rütbə) və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması ilə bağlı hüquqi və təşkilati məsələləri tənzimləyir.

**2. Rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması**

2.1. Rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması bu Qaydanın Əlavəsinə uyğun olaraq aparılır.

2.2. Rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması aşağıdakı tələblər nəzərə alınmaqla həyata keçirilir:

2.2.1. dövlət qulluqçusu dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edildikdə ona rütbə verilərkən malik olduğu ixtisas dərəcəsi, habelə həmin ixtisas dərəcəsində qulluq müddəti nəzərə alınır;

2.2.2. dövlət orqanında işləmiş və ixtisas dərəcəsinə malik olan şəxs sonradan dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edildikdə ona rütbə verilərkən malik olduğu ixtisas dərəcəsi, habelə həmin ixtisas dərəcəsində qulluq müddəti nəzərə alınır;

2.2.3. dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrdə qulluq (xidmət) keçən və dövlət qulluğu vəzifəsinə qəbul edilən şəxsə ixtisas dərəcəsi verilərkən malik olduğu rütbə, habelə həmin rütbədə qulluq (xidmət) müddəti nəzərə alınır;

2.2.4. dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında qulluq (xidmət) keçmiş və rütbəyə malik olan şəxs sonradan dövlət qulluğu vəzifəsinə qəbul edildikdə ona ixtisas dərəcəsi verilərkən malik olduğu rütbə, habelə həmin rütbədə qulluq (xidmət) müddəti nəzərə alınır;

2.2.5. dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrdə qulluq (xidmət) keçən şəxs dövlət qulluğunun xüsusi növünə aid digər dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edildikdə ona rütbə verilərkən malik olduğu rütbə, habelə həmin rütbədə qulluq (xidmət) müddəti nəzərə alınır;

2.2.6. dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrdə qulluq (xidmət) keçmiş şəxs sonradan dövlət qulluğunun xüsusi növünə aid digər dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edildikdə ona rütbə verilərkən malik olduğu rütbə, habelə həmin rütbədə qulluq (xidmət) müddəti nəzərə alınır.

2.3. Dövlət qulluqçusu və ya əvvəllər dövlət orqanında işləmiş və ixtisas dərəcəsinə malik olan şəxs dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edilərkən, habelə dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanında qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxs dövlət qulluğunun xüsusi növünə aid digər dövlət orqanında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edilərkən ona təyin olunduğu vəzifə üzrə müəyyən edilmiş rütbə həddi nəzərə alınmaqla rütbə verilir.

2.4. Dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxs dövlət qulluğuna qəbul edilərkən həmin şəxsə təyin olunduğu vəzifənin təsnifatı üzrə müəyyən edilmiş ixtisas dərəcəsi nəzərə alınmaqla ixtisas dərəcəsi verilir.

2.5. Dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxsin malik olduğu rütbə onun dövlət qulluğunda təyin olunduğu vəzifənin təsnifatı üzrə nəzərdə tutulmuş ixtisas dərəcələrindən yuxarıdırsa, ona həmin təsnifat üzrə müəyyən edilmiş ən yüksək ixtisas dərəcəsi verilir.

2.6. Dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxsin malik olduğu rütbə onun dövlət qulluğunda təyin olunduğu vəzifənin təsnifatı üzrə nəzərdə tutulmuş ixtisas dərəcələrindən aşağıdırsa, ona həmin təsnifat üzrə müəyyən edilmiş ən kiçik ixtisas dərəcəsi verilir.

2.7. Dövlət qulluqçusu və ya əvvəllər dövlət orqanında işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsi onun dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında xidmətə (qulluğa) qəbul olunduğu vəzifə üzrə müəyyən edilmiş rütbə həddindən yuxarıdırsa, ona həmin vəzifə üzrə müəyyən edilmiş ən yüksək rütbə verilir.

2.8. Dövlət qulluqçusu və ya əvvəllər dövlət orqanında işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsi onun dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında xidmətə (qulluğa) qəbul olunduğu vəzifə üzrə müəyyən edilmiş rütbə həddindən aşağıdırsa, ona həmin vəzifə üzrə müəyyən edilmiş ən kiçik rütbə verilir.

2.9. Dövlət qulluğunun xüsusi növünə aid bir dövlət orqanından digərinə qulluğa (xidmətə) qəbul edilərkən şəxsin malik olduğu rütbə onun təyin olunduğu vəzifə üzrə müəyyən edilmiş rütbə həddindən yuxarıdırsa, ona həmin vəzifə üzrə müəyyən edilmiş ən yüksək rütbə verilir.

2.10. Dövlət qulluğunun xüsusi növünə aid bir dövlət orqanından digərinə qulluğa (xidmətə) qəbul edilərkən şəxsin malik olduğu rütbə onun təyin olunduğu vəzifə üzrə müəyyən edilmiş rütbə həddindən aşağıdırsa, ona həmin vəzifə üzrə müəyyən edilmiş ən kiçik rütbə verilir.

**3. Yekun müddəalar**

3.1. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü və 32-ci bəndlərinə uyğun olaraq verilmiş və bu Qaydanın Əlavəsinin 1.1-1.4-cü bəndlərində nəzərdə tutulmuş rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması məsələsinə müvafiq dövlət orqanı rəhbərinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən baxılır.

3.2. Bu Qaydanın Əlavəsinin 2.1-2.7-ci bəndlərində nəzərdə tutulmuş rütbə və ixtisas dərəcələrinin hərbi rütbələrə uyğunlaşdırılması Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 46-cı maddəsinə əsasən keçirilən attestasiyanın nəticəsinə uyğun olaraq aparılır.

3.3. Səfərbərlik zamanı hərbi xidmətə çağırılan xüsusi, diplomatik rütbəyə və ixtisas dərəcəsinə malik olan şəxsə münasibətdə xüsusi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin hərbi rütbələrə uyğunlaşdırılması aparılmır.

3.4. Həqiqi hərbi xidmətdə saxlanılmaqla dövlət orqanına ezam olunaraq dövlət qulluğu vəzifəsinə təyin edilən hərbi qulluqçulara münasibətdə hərbi rütbələrin ixtisas dərəcələrinə uyğunlaşdırılması aparılmır.

3.5. Bu Qaydanın Əlavəsinin 2.1-2.13-cü bəndlərində nəzərdə tutulan rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması müvafiq dövlət orqanının rəhbəri tərəfindən həyata keçirilir.

3.6. İxtisas dərəcələrinin və rütbələrin verilməsini təsdiq edən sənədlərə rütbənin və ixtisas dərəcəsinin verilməsi barədə əmrlərdən (sərəncamlardan və s.) çıxarışlar, əmək kitabçası, hərbi bilet və ya digər sənədlər aiddir.

3.7. Bu Qaydanın 3.5-ci bəndində nəzərdə tutulan halda rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması ilə əlaqədar mübahisə yarandıqda, müvafiq dövlət orqanı və ya şəxs bu barədə Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasına və məhkəməyə müraciət edə bilər.

3.8. Bu Qaydaya uyğun olaraq barəsində rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması aparılmış şəxs sonradan daha yüksək vəzifəyə (yuxarı təsnifat dövlət qulluğu vəzifəsinə və ya rütbə həddi yuxarı olan vəzifəyə) təyin olunduqda, həmin yüksək vəzifəyə əsasən yenidən uyğunlaşdırma aparılmasına yol verilir.

3.9. Bu Qayda qüvvəyə minənədək dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifədə qulluq (xidmət) keçmiş şəxs dövlət qulluğu vəzifəsinə və ya dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifəyə qəbul edilmişdirsə və ya dövlət qulluğunda işləmiş şəxs dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifəyə qəbul edilmişdirsə, həmin şəxslərin təyin olunduqları vəzifə üzrə rütbə həddi (vəzifə təsnifatı üzrə nəzərdə tutulmuş ixtisas dərəcələri) nəzərə alınmaqla, onların malik olduğu rütbə və ixtisas dərəcəsinin qarşılıqlı uyğunlaşdırılmasının aparılmasına yol verilir.

"Xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması Qaydası"na Əlavə

# Xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması Cədvəli

| Sıra №-si | Dövlət qulluğunda ixtisas dərəcələri | Hərbi rütbələr | Prokurorluq orqanlarında rütbələr | Ədliyyə orqanlarında xüsusi rütbələr | Fövqəladə hallar orqanlarında xüsusi rütbələr | Miqrasiya orqanlarında xüsusi rütbələr | Daxili işlər orqanlarında xüsusi rütbələr | Gömrük orqanlarında xüsusi rütbələr | Vergi orqanlarında xüsusi rütbələr | Diplomatik rütbələr |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| **1. Ali rütbələr və ixtisas dərəcələri** | | | | | | | | | | |
| 1.1. | həqiqi dövlət müşaviri | ordu generalı | həqiqi dövlət ədliyyə müşaviri | həqiqi dövlət ədliyyə müşaviri | - | - | - | həqiqi dövlət gömrük xidməti müşaviri | həqiqi dövlət vergi xidməti müşaviri | - |
| 1.2. | 1-ci dərəcə dövlət müşaviri | general-polkovnik, admiral | I dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-polkovniki | I dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-polkovniki | - | I dərəcəli dövlət miqrasiya xidməti müşaviri | polis general-polkovniki | gömrük xidməti general-polkovniki | 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri | fövqəladə və səlahiyyətli səfir |
| 1.3. | 2-ci dərəcə dövlət müşaviri | general-leytenant, vitse-admiral, tibb xidməti general-leytenantı, ədliyyə general-leytenantı | II dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-leytenantı | II dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-leytenantı | daxili xidmət general-leytenantı, tibb xidməti general-leytenantı | II dərəcəli dövlət miqrasiya xidməti müşaviri | polis general-leytenantı | gömrük xidməti general-leytenantı | 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri | birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi |
| 1.4. | 3-cü dərəcə dövlət müşaviri | general-mayor, kontr-admiral, tibb xidməti general-mayoru, ədliyyə general-mayoru | III dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-mayoru | III dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-mayoru, tibb xidməti general-mayoru | daxili xidmət general-mayoru, tibb xidməti general-mayoru | III dərəcəli dövlət miqrasiya xidməti müşaviri | polis general-mayoru, tibb xidməti general-mayoru | gömrük xidməti general-mayoru, tibb xidməti general-mayoru | 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri | ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi |
| **2. Digər rütbələr və ixtisas dərəcələri** | | | | | | | | | | |
| 2.1. | dövlət qulluğunun baş müşaviri | polkovnik, 1-ci dərəcəli kapitan, tibb xidməti polkovniki, ədliyyə polkovniki | baş ədliyyə müşaviri, ədliyyə polkovniki | baş ədliyyə müşaviri, ədliyyə polkovniki, tibb xidməti polkovniki | daxili xidmət polkovniki, tibb xidməti polkovniki | baş miqrasiya xidməti müşaviri | polis polkovniki, tibb xidməti polkovniki | gömrük xidməti polkovniki, tibb xidməti polkovniki | baş vergi xidməti müşaviri, baş ədliyyə müşaviri | birinci dərəcəli müşavir |
| 2.2. | dövlət qulluğunun müşaviri | polkovnik-leytenant, 2-ci dərəcəli kapitan, tibb xidməti polkovnik-leytenantı, ədliyyə polkovnik-leytenantı | ədliyyə müşaviri, ədliyyə polkovnik-leytenantı | ədliyyə müşaviri, ədliyyə polkovnik-leytenantı, tibb xidməti polkovnik-leytenantı | daxili xidmət polkovnik-leytenantı, tibb xidməti polkovnik-leytenantı | miqrasiya xidməti müşaviri | polis polkovnik-leytenantı, tibb xidməti polkovnik-leytenantı | gömrük xidməti polkovnik-leytenantı, tibb xidməti polkovnik-leytenantı | vergi xidməti müşaviri, ədliyyə müşaviri | ikinci dərəcəli müşavir |
| 2.3. | dövlət qulluğunun kiçik müşaviri | mayor, 3-cü dərəcəli kapitan, tibb xidməti mayoru, ədliyyə mayoru | kiçik ədliyyə müşaviri, ədliyyə mayoru | kiçik ədliyyə müşaviri, ədliyyə mayoru, tibb xidməti mayoru | daxili xidmət mayoru, tibb xidməti mayoru | kiçik miqrasiya xidməti müşaviri | polis mayoru, tibb xidməti mayoru | gömrük xidməti mayoru, tibb xidməti mayoru | kiçik vergi xidməti müşaviri, kiçik ədliyyə müşaviri | birinci dərəcəli birinci katib |
| 2.4. | 1-ci dərəcə dövlət qulluqçusu | kapitan, kapitan leytenant, tibb xidməti kapitanı, ədliyyə kapitanı | I dərəcəli hüquqşünas, ədliyyə kapitanı | I dərəcəli ədliyyə qulluqçusu, ədliyyə kapitanı, tibb xidməti kapitanı | daxili xidmət kapitanı, tibb xidməti kapitanı | I dərəcəli miqrasiya xidməti qulluqçusu | polis kapitanı, tibb xidməti kapitanı | gömrük xidməti kapitanı, tibb xidməti kapitanı | 1-ci dərəcəli müfəttiş, 1-ci dərəcəli hüquqşünas | ikinci dərəcəli birinci katib |
| 2.5. | 2-ci dərəcə dövlət qulluqçusu | baş leytenant, tibb xidməti baş leytenantı, ədliyyə baş leytenantı | II dərəcəli hüquqşünas, ədliyyə baş leytenantı | II dərəcəli ədliyyə qulluqçusu, ədliyyə baş leytenantı, tibb xidməti baş leytenantı | daxili xidmət baş leytenantı, tibb xidməti baş leytenantı | II dərəcəli miqrasiya xidməti qulluqçusu | polis baş leytenantı, tibb xidməti baş leytenantı | gömrük xidməti baş leytenantı, tibb xidməti baş leytenantı | 2-ci dərəcəli müfəttiş, 2-ci dərəcəli hüquqşünas | birinci dərəcəli ikinci katib, ikinci dərəcəli ikinci katib |
| 2.6. | 3-cü dərəcə dövlət qulluqçusu | leytenant, tibb xidməti leytenantı, ədliyyə leytenantı | III dərəcəli hüquqşünas, ədliyyə leytenantı | III dərəcəli ədliyyə qulluqçusu, ədliyyə leytenantı, tibb xidməti leytenantı | daxili xidmət leytenantı, tibb xidməti leytenantı | III dərəcəli miqrasiya xidməti qulluqçusu | polis leytenantı, tibb xidməti leytenantı | gömrük xidməti leytenantı, tibb xidməti leytenantı | 3-cü dərəcəli müfəttiş, 3-cü dərəcəli hüquqşünas | üçüncü katib |
| 2.7. | kiçik dövlət qulluqçusu | kiçik leytenant, tibb xidməti kiçik leytenantı, ədliyyə kiçik leytenantı | - | ədliyyə kiçik leytenantı, tibb xidməti kiçik leytenantı | daxili xidmət kiçik leytenantı, tibb xidməti kiçik leytenantı | kiçik miqrasiya xidməti qulluqçusu | polis kiçik leytenantı, tibb xidməti kiçik leytenantı | gömrük xidməti kiçik leytenantı, tibb xidməti kiçik leytenantı | - | attaşe |
| 2.8. | dövlət qulluğunun baş referenti | baş gizir, baş miçman | - | ədliyyə baş giziri, tibb xidməti baş giziri | daxili xidmət baş giziri, tibb xidməti baş giziri | - | - | gömrük xidməti baş giziri, tibb xidməti baş giziri | - | - |
| 2.9. | dövlət qulluğunun böyük referenti | gizir, miçman | - | ədliyyə giziri, tibb xidməti giziri | daxili xidmət giziri, tibb xidməti giziri | - | - | gömrük xidməti giziri, tibb xidməti giziri | - | - |
| 2.10. | dövlət qulluğunun 1-ci dərəcə referenti | kiçik gizir, kiçik miçman | - | ədliyyə kiçik giziri, tibb xidməti kiçik giziri | daxili xidmət kiçik giziri, tibb xidməti kiçik giziri | - | - | - | - | - |
| 2.11. | dövlət qulluğunun 2-ci dərəcə referenti | baş çavuş | - | ədliyyə baş çavuşu, tibb xidməti baş çavuşu | daxili xidmət baş çavuşu, tibb xidməti baş çavuşu | baş miqrasiya xidməti çavuşu | polis baş serjantı, tibb xidməti baş serjantı | - | - | - |
| 2.12. | dövlət qulluğunun 3-cü dərəcə referenti | çavuş | - | ədliyyə çavuşu, tibb xidməti çavuşu | daxili xidmət çavuşu, tibb xidməti çavuşu | miqrasiya xidməti çavuşu | polis serjantı, tibb xidməti serjantı | - | - | - |
| 2.13. | dövlət qulluğunun kiçik referenti | kiçik çavuş | - | ədliyyə kiçik çavuşu, tibb xidməti kiçik çavuşu | daxili xidmət kiçik çavuşu, tibb xidməti kiçik çavuşu | kiçik miqrasiya xidməti çavuşu | polis kiçik serjantı, tibb xidməti kiçik serjantı | - | - | - |



# İnkişaf büdcəsi

## 2025-ci ilin dövlət büdcəsi qarşıya qoyulan bütün prioritet vəzifələrin tam yerinə yetirilməsinə imkan verəcək

**2025-ci ildə icmal büdcənin gəlirləri 44 milyard 371,4 milyon manat səviyyəsində proqnozlaşdırılır. Bu, 2024-cü ilin göstəricisinə nisbətən 856,4 milyon manat və ya 2 faiz artım deməkdir. İcmal büdcə xərcləri isə növbəti ildə 45 milyard 867 milyon manat proqnozlaşdırılır ki, bu da cari illə müqayisədə 240,2 milyon manat çoxdur.**

**İlham ƏLİYEV: "Düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir"**

Azərbaycan Respublikasının 2025-ci ildə dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlama bir neçə gün əvvəl ictimaiyyətə təqdim olunub. Sentyabrın 24-də isə Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun sədrliyi ilə keçirilmiş hökumətin iclasında 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, 2025-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə olunub.

İclasda qeyd olunub ki, qlobal miqyasda artan geosiyasi gərginliklərə, beynəlxalq əmtəə bazarlarında volatil qiymətlərə və dünya ölkələrində borc və büdcə kəsirinin artmasına baxmayaraq, ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin olunmuşdur.

Sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədə də Prezident İlham Əliyev 2024-cü ildə iqtisadi sferada əldə olunan nəticələri yüksək qiymətləndirmişdir. Dövlət başçısının qeyd etdiyi kimi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılmış addımlar müsbət nəticələrini verməkdədir: "İqtisadi artım 4,3 faiz təşkil edib. Bugünkü dünyada gedən prosesləri təhlil edərkən və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda deyə bilərəm ki, bu, çox müsbət göstəricidir. İqtisadi inkişaf templəri inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələyir. Xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir".

8 ayda qeyri-neft sektorunda 7 faiz, qeyri-neft sənayesində isə 7,8 artım qeydə alınmışdır. Bütövlükdə, müsbət makroiqtisadi şərait növbəti ilin dövlət büdcəsində də pozitiv məzmunda tərtib etməyə imkan vermişdir.

**Xərclərin 17 faizi müdafiə və təhlükəsizlik məqsədlərinə yönəldiləcək**

Növbəti il və ortamüddətli dövr üçün büdcə siyasəti prioritet çağırışlar nəzərə alınmaqla müəyyən edilmişdir. Bu çağırışlar "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya"sında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidənqurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük qayıdışın təmin edilməsi, ölkənin hərbi-müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması, dayanıqlı iqtisadi artımın dəstəklənməsi, makroiqtisadi sabitliyin və büdcə dayanıqlılığının təmin olunması, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasının diqqət mərkəzində saxlanılmasıdır.

Gələn il dövlət büdcəsinin gəlirləri 36 milyard 616 milyon manat proqnozlaşdırılır. Bu da 2024-cü ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 228 milyon manat, 2023-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 1 milyard 379,6 milyon manat çoxdur. Növbəti ilin dövlət büdcəsinin xərcləri 39 milyard 667,6 milyon manat nəzərdə tutulur.

Prezident İlham Əliyev bir neçə gün əvvəl yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında çıxışında bildirdi ki, dövlətimizin qarşısında dayanan başlıca vəzifə hərbi gücümüzün artırılmasıdır. "Birinci nömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən prosesləri, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, eyni zamanda Ermənistanda revanşizm meylləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə - nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik", - deyə dövlətimizin başçısı bildirdi.

Buna görə ordumuzun döyüş imkanlarının daha da gücləndirilməsi, milli təhlükəsizlik potensialının artırılması, müdafiə sənayesi kompleksinin müasir çağırışlara uyğun olaraq inkişaf etdirilməsi hər zaman olduğu kimi, gələn il də diqqət mərkəzində olacaq. Gələn ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin 17 faizini təşkil edəcək.

**Azad edilmiş ərazilərin bərpası üçün 4 milyard manat ayrılması nəzərdə tutulur**

Vətən müharibəsindən sonra Azərbaycanın prioritet hədəflərindən biri də işğaldan azad edilmiş torpaqların bərpasıdır. Prezident İlham Əliyev yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında çıxışında bildirdi ki, müharibədən sonra bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manatdır. Ötən 4 ilə yaxın müddətdə Qarabağ və Şərqi Zəngəzurda saysız-hesabsız infrastruktur layihələri həyata keçirilib. 3 min kilometr avtomobil yolu inşa edilib, 2 aeroport istifadəyə verilib, 270 meqavat gücündə su-elektrik stansiyaları yaradılıb. İndiyədək 8 min nəfərdən artıq məcburi köçkün Qarabağ və Şərqi Zəngəzura qayıdıb.

İşğaldan azad edilmiş ərazilərin bərpası 2024-cü ildə də yüksək templə davam etdiriləcək. Bunu gələn ilin dövlət büdcəsi layihəsində bu məqsəd üçün nəzərdə tutulmuş xərcin miqyası da təsdiq edir. Belə ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası, işğaldan azad olunmuş ərazilərə dönüşün təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədilə 2025-ci ilin dövlət büdcəsində 4 milyard manat vəsait ayrılması nəzərdə tutulur.

Bütövlükdə, gəlir və xərclər göstərir ki, 2025-ci ilin dövlət büdcəsi qarşıya qoyulan bütün prioritet vəzifələrin tam yerinə yetirilməsinə imkan verəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# İqtisadi inkişaf uğurlarımızın əsasıdır

## Azərbaycan dünyaya yüksəliş modelini təqdim edib

**"Azərbaycan xalqı düşmən üzərində qazandığı tarixi qələbəsi, suverenliyin tam təmin edilməsi, beynəlxalq aləmdə əldə edilən uğurları, eləcə də ölkənin iqtisadi inkişafı, həyat şəraitinin yaxşılaşdırılması, ictimai-siyasi sabitliyi, insanların birlik və həmrəyliyi ilə fəxr edə bilər. Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı olması inkişafımıza yeni yollar açır".**

"Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, bu ilin əvvəlindən qazanılan nəticələr, iqtisadi artımın 4,3 faiz təşkil etməsi, qeyri-neft sektorunda 7 faizlik artımın əldə edilməsi, xarici borcun ümumi daxili borca nisbətdə 7,5 faiz olması, inflyasiyanın aşağı düşməsi, iqtisadi sahədə yeni layihələrin hazırlanması və həyata keçirilməsinə qərar verilməsi bunu deməyə əsas verir.

Prezident İlham Əliyevin iqtisadi məsələlərə həsr olunmuş müşavirədə söylədiyi kimi, ölkə iqtisadiyyatının şaxələnməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrələrini verməkdədir. Azərbaycan dünyaya özünün iqtisadi inkişaf modelini təqdim edib, həm də bu modelin təkmilləşdirilməsi təşəbbüsündədir. Bir çox ölkələr tərəfindən qəbul edilən və təqdirlənən bu model dövlətimizin və xalqımızın milli maraqlarına, mövqeyinə xidmət etməklə bərabər, həm də dünya iqtisadiyyatına töhfə verməyə, iqtisadi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə hesablanıb. "44 günlük Vətən müharibəsindən və 23 saatlıq antiterror tədbirlərindən sonra Azərbaycana maraq daha da artıb. Neft-qaz sektorunda yeni layihələrin hazırlanması, bu sahədə əməkdaşlığın genişləndirilməsi, yeni yataqların hasilat həcminin yüksəlməsi, qeyri-neft sektoruna xarici sərmayələrin cəlb edilməsi üçün təşviq layihələrinin həyata keçirilməsi ölkəmizin iqtisadi inkişafını sürətləndirməkdədir. Dövlətimizin başçısı müşavirədə bildirib ki, Azərbaycanda hökm sürən sabitlik və proqnozlaşdırılan vəziyyət, eyni zamanda dövlətin güclənməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsi xarici investorların bizə olan münasibətini təbii olaraq daha da yaxşılaşdırıb. İnvestisiyaların adambaşına düşən həcminə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır", - deyə o əlavə edib.

T.Rzayev qeyd edib ki, iqtisadi müstəqilliyini təmin edən dövlətimiz müstəqil xarici siyasət aparmaq imkanlarına da yiyələnib. Məhz bunun nəticəsidir ki, bu gün Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi, qurulması, abadlaşdırılması insanların sosial rifah halının yaxşılaşdırılması, mühüm layihələrin həyata keçirilməsi istiqamətində əsaslı tədbirlərin görülməsi mümkün olub. Prezident İlham Əliyev VII çağırış Milli Məclisin ilk iclasında bu məsələlərin, görülən möhtəşəm işlərin vacibliyini qeyd etdiyi kimi, müşavirədəki çıxışında da ölkəmizin hərbi potensialının gücləndirilməsinə, təhlükəsizliyin təmin edilməsinə, dövlət sərhədlərinin qorunmasına, hərbi sənaye kompleksinin inkişafına, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsinə böyük önəm verdiyini bildirərək, sosialyönümlü məsələlərə, sosial infrastruktura bağlı olan layihələrin Dövlət İnvestisiya Proqramında öz əksini tapacağını qeyd edib.



T.Rzayev vurğulayıb ki, əldə olunan uğurlar nəticəsində Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib: "İlin əvvəlindən iqtisadi inkişafın gözlənilən səviyyədə olması, proqnozların reallaşması, dayanıqlı inkişaf modelinin təkmilləşdirilməsi sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi, sağlam müzakirələr aparılması, lazımi qərarlar qəbul edilməsi iqtisadi inkişafı sürətləndirib və bundan sonra da irəliləməsinə zəmin yaradıb. Bu inkişaf aqrar sektorda da özünü göstərməkdədir. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə bu il 4,3 faiz çox, 81,0 milyard manatlıq ümumi daxili məhsul istehsal edilməsi, eləcə də kənd təsərrüfatının ümumi məhsulunun 0,8 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalının 1,3 faiz, bitkiçilik məhsulları istehsalının 0,3 faiz artımı ilin uğurlu nəticəsi sayılmalıdır, hələ ilin yekununda bu rəqəmlərin artımı gözlənilir".

O qeyd edib ki, Prezident İlham Əliyevin iqtisadi məsələlərə həsr olunmuş müşavirədə söylədiyi fikirlər, qarşıya qoyduğu vəzifələr ilk növbədə xalqımızın milli maraqlarına xidmət edir, inkişafımızı əsaslandırır. Bu, xoşbəxt həyatımızın təmin olunmasına istiqamətlənməklə, əmin-amanlığa, əməkdaşlığa, birliyə yollar açır. Bu yollar dövlət rəhbərinin düşünülmüş siyasətindən, insanlığa qayğısından, müstəqilliyimizin və suverenliyimizin qorunması sahəsində apardığı mübarizədən, sülhə, demokratiyaya, insan haqlarına, haqq-ədalətə, hörmət və ehtiramdan keçir.

Bu yol qürurverici, uğurludur və onu davam etdirmək gələcəyimizə yeni töhfələr verəcək, uğurlar qazandıracaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Fərid Əhmədov Efiopiyanın ədliyyə məsələləri üzrə dövlət katibi ilə görüşüb

**Ədliyyə naziri Fərid Əhmədov sentyabrın 28-də ölkəmizə səfəri çərçivəsində Efiopiya Federativ Demokratik Respublikasının Ədliyyə Nazirliyinin ədliyyə məsələləri üzrə dövlət katibi Tesfaye Wakjira ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Fərid Əhmədov ölkələrimiz arasında müəyyən sahələrdə ikitərəfli, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın mövcud olduğunu qeyd edib. O, ölkəmizdə ədliyyə sahəsində rəqəmsallaşma, təlim və tədris prosesi, eləcə də görülən digər işlər barədə məlumat verib. 34 ölkənin Ədliyyə nazirlikləri ilə əməkdaşlığa dair sənədlərin mövcud olduğunu vurğulayan nazir Efiopiya ilə də hüquqi sahədə əlaqələrin inkişafı üçün imkanların olduğunu qeyd edib.

Səmimi qəbula görə öz minnətdarlığını bildirən Tesfaye Wakjira Azərbaycana səfərinin tarixi əhəmiyyət daşıdığını vurğulayıb. Ölkəsinin "Afrikanın siyasi paytaxtı" olaraq adlandırıldığını bildirən dövlət katibi Efiopiyanın Azərbaycanda ədliyyə sahəsində aparılan islahatlara, ölkələr arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında sənədin hazırlanmasına, eləcə də dövlət xidmətlərinin göstərilməsinə dair Azərbaycan təcrübəsinin öyrənilməsinə maraqlı olduğunu bildirib.

Görüşdə hüquqi əməkdaşlığın perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparılıb.





# Hərbi İdarəetmə İnstitutunda komandir və rəis heyəti ilə toplanış keçirilib

**Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda briqada komandirləri, müavinləri, əməliyyat və döyüş hazırlığı şöbə (bölmə) rəisləri ilə toplanış keçirilib.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində toplanışın başa çatması münasibətilə keçirilən buraxılış mərasimində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və nazirliyin digər rəhbər heyəti iştirak edib.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Baş Qərargah rəisi iştirakçıları müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından salamlayıb, onları toplanışı müvəffəqiyyətlə başa vurmaları münasibətilə təbrik edib, gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıb.



General-polkovnik K.Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunda aparılan islahatlardan danışıb, peşəkar və dövrün tələblərinə uyğun zabit kadrlarının hazırlanmasının prioritet məsələlərdən biri olduğunu qeyd edib.

Müdafiə nazirinin birinci müavini çıxışında Prezident İlham Əliyevə çoxməqsədli JF-17C (Block-III) təyyarələrinin təqdimatının və Bakıda keçirilmiş "ADEX" Beynəlxalq Müdafiə Sərgisinin əhəmiyyətini xüsusi qeyd edib.

Sonda toplanışa cəlb olunmuş və müvəffəqiyyətlə bitirmiş heyətə sertifikatlar təqdim edilib.

# Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə təlim keçirilib

**Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) xüsusi təyinatlı bölmələri ilə "Gecə şəraitində düşmən obyektinə qəfil basqın" mövzusunda taktiki-xüsusi təlim keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, plana əsasən icra olunacaq tədbirlər xəritə üzərində dəqiqləşdirilib.

Xüsusi təyinatlılar məhdudgörmə şəraitində şərti düşmənin dərinliyinə sızaraq pusqu, basqın və müxtəlif təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Vaxt normativinə uyğun təyin olunan yüksəklik xüsusi təyinatlılar tərəfindən ələ keçirilib, dairəvi müdafiəyə və müdafiənin təşkili ilə növbəti hakim yüksəkliyin tutulması üçün mobil qruplar fəaliyyətini davam etdirib.

Təlim zamanı təminat-təxliyə qrupları tərəfindən yaralıların təxliyəsi və sursat təminatının çatdırılması da praktiki məşq etdirilib.

Azərbaycan Ordusunun son dövrlərdə apardığı uğurlu döyüş əməliyyatlarında qazanılan təcrübənin tətbiq edildiyi taktiki-xüsusi təlimdə verilən tapşırıqlar yüksək peşəkarlıq və səriştə ilə yerinə yetirilərək qarşıya qoyulmuş məqsədlərə tam nail olunub.

# "Eternity-2024" çoxmillətli komanda-qərargah təlimi başa çatıb

**Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə Gürcüstanda keçirilən "Eternity-2024" çoxmillətli komanda-qərargah təlimi başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər üç ölkənin hərbi qulluqçuları və aidiyyəti dövlət qurumlarının nümayəndələri Vaziani təlim mərkəzində strateji əhəmiyyətli, regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqları yerinə yetiriblər.

İştirakçı ölkələrin silahlı qüvvələri arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və uzlaşmanın təmin olunması məqsədilə keçirilən təlimdə iştirakçılar yüksək peşəkarlıq nümayiş etdiriblər.



# "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı müraciətlərə baxılmanın elektronlaşdırılmasını təmin etmək məqsədilə üç ay müddətində zəruri tədbirlər görsün;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Fərmanın 1-ci hissəsi 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 28 sentyabr 2024-cü il*

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi qaydaları

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə, Azərbaycan Respublikasının Meşə Məcəlləsinə, Azərbaycan Respublikasının Su Məcəlləsinə, "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında" Azərbaycan Respublikasının Qanununa və bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlara uyğun olaraq hazırlanmışdır və torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi mexanizmini müəyyən edir.

1.2. Torpaq sahəsinin kateqoriyasına və məqsədli təyinatına dair məlumatlar dövlət torpaq kadastrına daxil edilir və daşınmaz əmlakın dövlət reyestrinə, torpaqların elektron kadastr uçotu informasiya sisteminə (bundan sonra - TEKUİS), "Elektron kənd təsərrüfatı"informasiya sisteminə (bundan sonra - EKTİS), habelə rəqəmsal və kağız üzərində kadastr xəritələrinə, ərazi planlaşdırılması sənədlərinə daxil edilməsi üçün aidiyyəti üzrə təqdim olunur.

1.3. Torpaqların kateqoriyalara aid edilməsi, bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatı Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 9-cu, 10-cu və 12-33-cü maddələri nəzərə alınmaqla müəyyən edilir.

1.4. Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin (bundan sonra - Nazirlər Kabineti) qərarı ilə həyata keçirilir.

1.5. Kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyası daxilində əkin, çoxillik əkmələrin altında olan kənd təsərrüfatı yerlərinin məqsədli təyinatının bir-biri arasında dəyişdirilməsi halları istisna olmaqla, kateqoriya daxilində torpaqların məqsədli təyinatının dəyişdirilməsi Nazirlər Kabinetinin qərarı ilə həyata keçirilir.

1.6. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində torpaqların kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyasına aid edilməsi, habelə həmin kateqoriya daxilində kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə aid edilməsi və dəyişdirilməsi Nazirlər Kabinetinin təsdiq etdiyi müvafiq qaydaya uyğun olaraq həyata keçirilir.

1.7. "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanına uyğun olaraq, 2025-ci il yanvarın 1-dək edilən müraciətlər əsasında istismarına icazə verilmiş qeyri-yaşayış təyinatlı tikinti obyektlərinin yerləşdiyi torpaqların kateqoriyasının dəyişdirilməsi həmin Fərmana uyğun olaraq həyata keçirilir.

1.8. Kənd təsərrüfatı yerləri xüsusi olaraq qorunur və onların qeyri-kənd təsərrüfatı məqsədilə digər kateqoriyalara keçirilməsinəAzərbaycan Respublikasının Torpaq Məcəlləsinə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinəvə bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlara uyğun olaraq bu Qaydaların tələbləri nəzərə alınmaqla yol verilir.

1.9. Akvakultura təsərrüfatlarının istifadəsində olan torpaqların kateqoriyasının dəyişdirilməsi tələb olunmur.

1.10. Kənd təsərrüfatı təyinatlı torpaq sahələrində Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-cü və 13-1-ci maddələrində nəzərdə tutulan tikililərin inşası məqsədləri üçün torpaq sahəsinin kateqoriyasının və məqsədli təyinatının dəyişdirilməsi tələb olunmur.

1.11. Yay və qış otlaqlarından, örüş və biçənək sahələrinə aid kənd təsərrüfatı yerlərindən daha səmərəli istifadə edilməsi və kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar əkin dövriyyəsinə əlavə torpaq sahələrinin cəlb edilməsi zərurəti yarandıqda, onların məqsədli təyinatının dəyişdirilərək əkin və çoxillik əkmələrə aid edilməsinə torpaqların münbitlik göstəriciləri, əkinəyararlılıq vəziyyəti, meliorasiya və irriqasiya sistemlərinin mövcudluğu, eləcə də görüləcək işlərin iqtisadi əsaslandırılması nəzərə alınmaqla və heyvandarlığın inkişafına təsiri öyrənilməklə yol verilir.

1.12. Əkin və çoxillik əkmələrin altında olan kənd təsərrüfatı yerlərinin bir-biri arasında məqsədli təyinatının dəyişdirilməsi torpaq sahələrinin mülkiyyətçiləri və ya icarəçiləri, istifadəçiləri (dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlara münasibətdə torpaq mülkiyyətçilərinin yazılı razılığı, xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə torpaq mülkiyyətçilərinin notariat qaydasında təsdiq edilmiş razılığı ilə) tərəfindən həyata keçirilir və onların müraciəti əsasında daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat aparıldığı andan başa çatır.

1.13. Torpaqların bir kateqoriyadan digərinə keçirilməsi məcburi hüquqi qüvvəyə malik baş və müfəssəl planların dəyişdirilməsi ilə bağlı olduqda, torpaq mülkiyyətçilərinin və istifadəçilərinin (dövlət orqanlarının, istifadəsində torpaq sahəsi olan dövlətə məxsus hüquqi şəxslərin) razılığı alınır.

1.14. Dövlət ehtiyacları üçün alınan torpaq sahəsi üzərində hüquqların "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlətə keçdiyi andan həmin torpağın kateqoriyası dəyişdirilmiş hesab edilir, bu barədə məlumatlar (sənədlər) aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə (bundan sonra -Xidmət) təqdim edildikdən sonra 2 (iki) iş günü müddətində dövlət torpaq kadastrına daxil edilir və bu Qaydaların 1.2-ci bəndinə uyğun olaraq "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

1.15. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilən torpaq sahəsində (su obyektində) elektrik stansiyasının tikintisinə və quraşdırılmasına icazə verildiyi andan həmin torpaq sahəsinin kateqoriyası və torpaq sahəsindən yol verilən istifadə növü dəyişdirilmiş hesab edilir, bu barədə məlumatlar Xidmət tərəfindən 2 (iki) iş günü müddətində dövlət torpaq kadastrına daxil edilir və bu Qaydaların 1.2-ci bəndinə uyğun olaraq "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

1.16. "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sifarişçinin bina və qurğulara mülkiyyət hüquqları daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alındığı gündən süni torpaq sahəsi həmin Qanunun 6.1.3-cü maddəsində göstərilən kateqoriyaya və məqsədli təyinata aid edilmiş hesab olunur, bu barədə məlumatlar Xidmət tərəfindən 2 (iki) iş günü müddətində dövlət torpaq kadastrına daxil edilir və bu Qaydaların 1.2-ci bəndinə uyğun olaraq "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

1.17. Ehtiyat fondu torpaqlarının istifadəsinə onların bu Qaydalarla müəyyən edilmiş əsaslar üzrə müvafiq kateqoriyaya keçirilməsindən sonra yol verilir.

1.18. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 57-ci maddəsinin 1-ci hissəsinə uyğun olaraq, sənaye obyektlərinin tikintisi, dəmir və avtomobil yollarının, elektrik və rabitə xətlərinin, magistral boru kəmərlərinin çəkilişi, habelə digər qeyri-kənd təsərrüfatı ehtiyacları üçün torpaq sahələri, əsasən, kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlardan, meşə fondu torpaqlarından isə meşə bitkiləri ilə örtülü olmayan sahələrdən, yaxud meşəbitmə şəraitinə görə az yararlı və yararsız sahələrdən ayrılır.

1.19. Meşə fondu torpaqlarında müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikintisi, habelə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə meşə ilə örtülü olmayan sahələrin əkin dövriyyəsinə cəlb edilməsi zərurəti yarandıqda, həmin torpaq sahələri eyni ölçüdə kənd təsərrüfatına az yararlı və ya şərti yararsız torpaq sahələri ilə əvəzləşdirilir.

1.20. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 36-cı maddəsinin 1-ci hissəsinə uyğun olaraq, radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış, əhalinin həyatına və sağlamlığına təhlükə yarada bilən, habelə məhsul istehsalı üçün sanitariya tələblərinə, müvafiq normalara, qaydalara və normativlərə cavab verməyən torpaqlar kənd təsərrüfatı dövriyyəsindən çıxarılır və konservasiya edilməsi üçün Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalara uyğun olaraq müvafiqehtiyat fondu torpaqları (dövlət və ya bələdiyyə) kateqoriyasına keçirilir.

1.21. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 37-ci maddəsinə uyğun olaraq, ekzogen geoloji proseslərə (sürüşmə, sel, aşınma, uçqun, tökülmə, eroziya, abraziya, deflyasiya, eol, bataqlaşma, yarğan və s.) məruz qalmış torpaq sahələri texniki meliorasiya və bərpa (rekultivasiya) işləri aparılanadək, təsərrüfat fəaliyyəti dövriyyəsindən çıxarılır və prosesin miqyasından asılı olaraq müvafiq ehtiyat fondu torpaqları (dövlət və ya bələdiyyə) kateqoriyasına keçirilir.

1.22. Torpaqların kateqoriyası və məqsədli təyinatı barədə məlumatlar dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələri üzərində sərəncam verilməsinə dair qərarlarda, habelə torpaq sahələri barədə bağlanılmış əqdlərdə göstərilməlidir.

### 2. Torpaqların kateqoriyalara aid edilməsinin, onların bir kateqoriyadan digərinə keçirilməsinin və məqsədli təyinatının dəyişdirilməsinin əsasları, habelə bununla bağlı rəy verilməsi zamanı nəzərə alınmalı meyarlar

2.1. Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi əsasları aşağıdakılardır:

2.1.1. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə uyğun olaraq torpağın alınmasına əsas verən dövlət ehtiyacları;

2.1.2. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilən torpaq sahəsində (su obyektində) elektrik stansiyasının tikintisinə və quraşdırılmasına icazə verilməsi;

2.1.3. "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq torpaq sahəsində inşa edilmiş bina və qurğulara mülkiyyət hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması;

2.1.4. sənaye obyektlərinin, zonalarının (məhəllələrinin və parklarının) və Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-1-ci maddəsi nəzərə alınmaqla kənd təsərrüfatı məhsullarının sənaye üsulu ilə istehsalı, emalı və saxlanılması üçün infrastrukturun yaradılması;

2.1.5. ehtiyat fondu torpaqlarından istifadə zərurətinin yaranması;

2.1.6. müasir texnologiyaların tətbiqi ilə aqroparkların, fermer təsərrüfatlarının və aqraryönlü digər təsərrüfatların yaradılması məqsədilə başqa kateqoriyaya aid torpaqlardan əkin dövriyyəsinə əlavə torpaqların cəlb edilməsi;

2.1.7. qoruyucu meşə zolaqlarının və yaşıllıq zonalarının salınması məqsədilə meşə fondu torpaqlarının tərkibinə əlavə torpaqların verilməsi;

2.1.8. meşə fondu torpaqlarında müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikintisi, habelə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə əkin dövriyyəsinə əlavə torpaq sahələrinin cəlb edilməsi zərurəti olduqda;

2.1.9. bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin (o cümlədən milli parkların, dövlət təbiət qoruqlarının, yasaqlıqların və s.) tərkibinə əlavə torpaqların verilməsi;

2.1.10. aerokosmik tədqiqatlar aparılması məqsədilə müvafiq infrastrukturun yaradılması zərurəti olduqda;

2.1.11. ekzogen geoloji proseslərin təsirinə məruz qalmış yaşayış məntəqələrinin torpaqlarının əvəzləşdirilməsi;

2.1.12. yeni yaşayış məhəllələrinin (məntəqələrinin) salınması, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin ləğv edilməsi və ya onların inzibati ərazisinin dəyişdirilməsi, mövcud yaşayış məntəqələrinin inkişaf etdirilməsi (genişləndirilməsi) məqsədilə ərazi planlaşdırılması sənədlərinin (ümumi, baş və müfəssəl planların) və onlarda dəyişiklik olunmasının təsdiq edilməsi, həmçinin yaşayış məntəqələrinin torpaqlarına aid olmayan torpaqlarda salınmış yaşayış massivlərinin yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi zərurəti olduqda;

2.1.13. yaşayış məntəqələrinin hüdudları daxilində özəlləşdirilən müəssisə və obyektlərin, habelə fiziki və yadövlətə məxsus olmayan hüquqi şəxslərin vəsaiti hesabına inşa edilən obyektlərin yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi barədə həmin müəssisə və obyektlərin mülkiyyətçilərinin, habelə xüsusi mülkiyyətdə olan torpaq sahələrindən iqtisadi cəhətdən daha səmərəli istifadənin təmin edilməsi ilə bağlı mülkiyyətçilərin əsaslandırılmış müraciətlərinin daxil olması;

2.1.14. tarix-mədəniyyət, təbii qoruq və sağlamlaşdırma yerlərinin yaradılması, əhalinin istirahətinin təşkili, turizmin inkişafı, idman və digər sosial obyektlərin tikintisi;

2.1.15. kənd təsərrüfatı yerlərinin radioaktiv və kimyəvi çirklənməyə məruz qalması, ekzogen geoloji proseslər nəticəsində dövriyyədən çıxarılaraq onlardan istifadə hüququna xitam verilməsi;

2.1.16. faydalı qazıntı yataqlarının istismarı ilə əlaqədar dağ-mədən işlərinin həyata keçirilməsi;

2.1.17. "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanına uyğun olaraq, 2025-ci il yanvarın 1-dək edilən müraciətlər əsasında istismarına icazə verilmiş qeyri-yaşayış təyinatlı tikinti obyektlərinin yerləşdiyi torpaqların kateqoriyasının dəyişdirilməsi.

2.2. Torpaqların məqsədli təyinatının dəyişdirilməsi əsasları aşağıdakılardır:

2.2.1. ərazi planlaşdırılması ilə bağlı hallar;

2.2.2. torpaqların münbitlik göstəriciləri, əkinəyararlılıq vəziyyəti, meliorasiya və irriqasiya sistemlərinin mövcudluğu nəzərə alınmaqla və kənd təsərrüfatı yerlərindən daha səmərəli istifadə edilməsi üçün torpağın keyfiyyətinin yaxşılaşdırılmasına zəmin yaratmaqla, torpaqlardan məqsədli təyinatına uyğun istifadə istiqamətinin dəyişdirilməsi zərurəti ilə bağlı yaranan hallar (əkin dövriyyəsi və çoxillik əkmələr).

2.3. Fəaliyyət sferasına (maraqlarına) toxunulan aşağıdakı dövlət orqanları torpaq sahəsinin kateqoriyasının (kateqoriya daxilində məqsədli təyinatının) dəyişdirilməsi ilə bağlı müraciətlərə aşağıdakı istiqamətlərdə rəy verirlər:

2.3.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi - torpaqların kateqoriyasının dəyişdirilməsinə münasibətdə torpaqların kənd təsərrüfatı perspektivlərinin mövcudluğu, məqsədli təyinatının dəyişdirilməsinə münasibətdə isə torpaqların əkinəyararlılıq vəziyyəti, heyvandarlığın və əkinçiliyin inkişafı ilə bağlı aqrar sahədə torpaq ehtiyatlarından səmərəli istifadəyə dair;

2.3.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi - faydalı qazıntıların çıxarılması üçün torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, faydalı qazıntıların təsdiq edilmiş ehtiyatları və onların işlənilməsinin yerin təki haqqında qanunvericiliyə uyğunluğuna, ətraf mühitin mühafizəsinə dair;

2.3.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi - kateqoriyaya aid edilməsi və ya kateqoriyasının dəyişdirilməsi, yaxud məqsədli təyinatının dəyişdirilməsi nəticəsində torpaqdan istifadənin iqtisadi göstəricilərinə və səmərəliliyinə dair;

2.3.4. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi:

2.3.4.1. kateqoriyası dəyişdirilməli torpaq sahəsi yaşayış məntəqəsinin inzibati sərhədləri daxilində yerləşdiyi halda - təklif edilən dəyişikliyin, habelə torpaq sahəsində həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyətinin yaşayış məntəqəsinin baş planına, müvafiq ərazinin şəhərsalma sənədlərinə (qüvvədə olan müfəssəl plana, belə plan olmadıqda və ya onun müddəti bitdikdə, tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə) və kənd ərazilərində naturada işlənilmiş və təsdiq edilmiş yerquruluşu planına uyğunluğuna dair;

2.3.4.2. yaşayış məntəqəsinin inzibati sərhədlərinə daxil olmayan kateqoriyası dəyişdirilməli torpaq sahəsində tikinti niyyəti həyata keçirildiyi halda - tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara uyğunluğuna dair;

2.3.5. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi - ümumi istifadədə olan meliorasiya və irriqasiya sistemlərinin hüdudlarında yerləşən torpaq sahələrinə münasibətdə meliorasiya və irriqasiya sistemlərinin mövcudluğuna, yararlılıq vəziyyətinə, bu istiqamətdə nəzərdə tutulan layihələrə və su ehtiyatlarının potensialına dair;

2.3.6. müvafiq rayon (şəhər) icra hakimiyyətləri - müvafiq ərazidə dövlət mülkiyyətində olan torpaqlardan istifadənin planlaşdırılmasına, habelə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan təyinatı üzrə istifadə edilməsinə, torpaqlardan səmərəli istifadə edilməklə ərazinin iqtisadi və sosial inkişafının və məşğulluğun təmin edilməsinə dair.

### 3. Torpaqların kateqoriyalara aid edilməsinə, onların bir kateqoriyadan digərinə keçirilməsinə və məqsədli təyinatının dəyişdirilməsinə dair müraciətlərə baxılma

3.1. Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı həmin torpaq sahəsinin yerləşdiyi ərazi vahidi, aid olduğu kateqoriya (kateqoriya daxilində məqsədli təyinat), keçirilməsi nəzərdə tutulan kateqoriya (kateqoriya daxilində məqsədli təyinat), keçirilmənin əsaslandırılması, torpaq sahəsinin ölçüsü, mülkiyyətdə, istifadədə və ya icarədə olması, kənd təsərrüfatı kateqoriyasına aid torpaq sahəsi olduqda həmçinin suvarılan və ya dəmyə olması barədə məlumatlar, habelə kateqoriyaya aid edilən, digər kateqoriyaya keçirilən və məqsədli təyinatı dəyişdirilən torpaq sahəsinin planlaşdırılan istifadə istiqamətləri aydın göstərilməklə aşağıdakı subyektlər Xidmətə müraciət edir:

3.1.1. dövlət mülkiyyətində olan torpaqlara münasibətdə - aidiyyəti dövlət orqanları (qurumları);

3.1.2. bələdiyyə mülkiyyətində olan torpaqlara münasibətdə - müvafiq bələdiyyələr;

3.1.3. xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə - torpaq mülkiyyətçiləri;

3.1.4. torpaqlar uzunmüddətli istifadədə olduğu hallarda, mülkiyyətçinin yazılı razılığı ilə icarəçi və ya istifadəçi olan fiziki və ya hüquqi şəxslər.

3.2. Müraciətə aşağıdakı sənədlər əlavə edilir:

3.2.1. torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququna dair daşınmaz əmlakın dövlət reyestrindən çıxarış;

3.2.2. torpaq sahəsinin ölçüsündən asılı olaraq, müvafiq miqyasda tərtib olunmuş situasiya planı (sərhədlərinin döngə nöqtələri və onların koordinatları əks olunmaqla) və ya sərhədləri daxilində mövcud və yerləşdirilməsi nəzərdə tutulan tikililər olduğu halda, layihəçi tərəfindən tərtib olunmuş layihələndirilən ərazinin baş planı (xətti qurğularda isə onların istiqamətinin uzununa profilli en kəsiyi);

3.2.3. bütün əsaslar və mülkiyyət növləri üzrə torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə dəyən ziyanın, kənd təsərrüfatı və meşə təsərrüfatı itkilərinin ödənilməsi, habelə kateqoriyasının dəyişdirilməsi nəzərdə tutulan torpaq sahəsində obyektin layihələndirilməsi müddətində mənafeyinə toxunulan hüquqi və fiziki şəxslərin tikinti ilə bağlı tələblərinin yerinə yetirilməsi barədə xeyrinə torpaq sahəsi əldə edənin notariat qaydasında təsdiq edilmiş zəmanət məktubu;

3.2.4. bu Qaydaların 3.2.1-3.2.3-cü yarımbəndlərində nəzərdə tutulmuş sənədlərə əlavə olaraq:

3.2.4.1. bələdiyyə mülkiyyətində olan torpaqlara münasibətdə torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi barədə təkliflərin müzakirəsinə dair Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 21 dekabr tarixli 792 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bələdiyyələrin Nümunəvi Reqlamenti"nə uyğun tərtib edilmiş bələdiyyə iclasının protokolundan çıxarış;

3.2.4.2. xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə mülkiyyətçi fiziki şəxs olduqda - onun şəxsiyyətini təsdiq edən sənədin surəti (müraciət torpaq mülkiyyətçisinin adından başqa şəxs tərəfindən edildikdə, notariat qaydasında təsdiq edilmiş etibarnamənin surəti), mülkiyyətçi hüquqi şəxs olduqda isə hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın, onun nümayəndəsinin səlahiyyətini və şəxsiyyətini təsdiq edən sənədlərin surətləri;

3.2.4.3. neft və qaz hasilatı istisna olmaqla, faydalı qazıntı yataqlarının istismarı ilə əlaqədar dağ-mədən işlərinin həyata keçirilməsi üçün torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, faydalı qazıntıların təsdiq edilmiş ehtiyatları və onların işlənilməsinin məqsədəuyğunluğu haqqında Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi, habelə sifarişçinin vəsaiti hesabına hazırlanmış torpaqların rekultivasiyası layihəsi;

3.2.4.4. torpaqların bir kateqoriyadan digərinə keçirilməsi məcburi hüquqi qüvvəyə malik ərazi planlaşdırılması sənədlərinin (ümumi, baş və müfəssəl planların) dəyişdirilməsi ilə bağlı olduqda, torpaq mülkiyyətçilərinin və istifadəçilərinin (dövlət orqanlarının, istifadəsində torpaq sahəsi olmaqla, dövlətə məxsus hüquqi şəxslərin) razılığı;

3.2.4.5. bu Qaydaların 3.1.4-cü yarımbəndinə uyğun olaraq müraciət edildiyi hallarda, mülkiyyətçinin yazılı razılıq sənədi.

3.3. Xidmət torpaqların kateqoriyalara aid edilməsi, bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı edilmiş müraciətə dair sənədlərin və məlumatların tamlığını, habelə torpaqların münbitliyinin mühafizəsi, torpaqların münbitlik xassələrinin göstəricilərini, torpaq sahəsinin keçirilməsi təklif edilən kateqoriya (kateqoriya daxilində məqsədli təyinat) üzrə istifadəsinin mümkünlüyünü, mülkiyyət, icarə və ya istifadə hüquqları barədə məlumatların, dövlət torpaq kadastrı, daşınmaz əmlakın dövlət reyestri və TEKUİS-nin məlumatlarının düzgünlüyünü yoxlayır.

3.4. Müraciətdə və ona əlavə olunan sənədlərdə (məlumatlarda) aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, müraciət daxil olduğu gündən 3 (üç) iş günündən gec olmayaraq Xidmət onların aradan qaldırılması barədə məlumatı yazılı qaydada müraciət edən subyektə göndərir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Müraciətdə və əlavə olunan sənədlərdə aşkar edilən bütün çatışmazlıqlar müraciət edən subyektə eyni zamanda bildirilməlidir. Müraciət edən subyekt həmin çatışmazlıqları məlumatı aldığı gündən ən geci 20 (iyirmi) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman müddətin axımı dayandırılır. Göstərilən müddətdə çatışmazlıqlar aradan qaldırılmadıqda, Xidmət müraciət edən subyekti yazılı qaydada məlumatlandırmaqla müraciətin baxılmamış saxlanılması barədə qərar qəbul edir. Müraciət edən subyektaşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra bu Qaydalara uyğun olaraq təkrar müraciət edə bilər.

3.5. Müraciətdə və ona əlavə olunan sənədlərdə (məlumatlarda) çatışmazlıqlar aşkar edilmədikdə, habelə bu Qaydaların 3.4-cü bəndinə uyğun olaraq aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqda, Xidmət 3 (üç) iş günündən gec olmayaraqbu Qaydaların 2.3.1-ci,2.3.3-2.3.6-cı yarımbəndlərində qeyd olunan, habelə dövlət torpaq kadastrı məlumatlarına əsasən mənafeyinə toxunulan aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəylərinin alınması üçün Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə həmin dövlət orqanlarına (qurumlarına) müraciət edir. Aidiyyəti dövlət orqanları (qurumları) 10 (on) iş günü müddətində rəylərini bildirməlidirlər. Göstərilən müddətdə rəylər təqdim edilmədikdə, torpaq sahəsinin kateqoriyasının (kateqoriya daxilində məqsədli təyinatının) dəyişdirilməsi aidiyyəti dövlət orqanı (qurumu) ilə razılaşdırılmış hesab olunur.

3.6. Bu Qaydalara əsasən müraciətə əlavə edilməli olan sənədlərin və məlumatların EHİS vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar müraciət edən subyektdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların EHİS vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi müraciət edən subyektin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən subyekt tərəfindən təmin edilir.

3.7. Bu Qaydaların 3.3 -3.6-cı bəndlərində nəzərdə tutulan işlər tamamlandıqdan sonra Xidmət tərəfindən 15 (on beş) iş günü müddətində mülkiyyət növlərinə uyğun olaraq torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən haqqı ödənilməklə torpaq sahəsinin yer quruluşu qaydasında yerdə (naturada) sərhədləri, qonşuluqları, döngə nöqtələrinin koordinatları müəyyən edilir, mərzçəkmə işləri aparılır və torpaq sahəsinin ərazisindən asılı olaraq iki nüsxədən ibarət kağız üzərində və elektron daşıyıcıda yer quruluşu planı (xəritəsi) hazırlanır. Yer quruluşu planı (xəritəsi) müvafiq yerli icra hakimiyyəti orqanı və ya bələdiyyə və aidiyyəti dövlət orqanları (qurumları) ilərazılaşdırılır və təsdiq edilir. Yer quruluşu planı (xəritəsi) müraciət və ona əlavə edilən sənədlər, habelə təqdim edilmiş rəylərlə birlikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilir.

3.8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi kateqoriyaya aid ediləcək, habelə kateqoriyası, məqsədli təyinatı dəyişdiriləcək torpaq sahəsinin kağız üzərində və elektron daşıyıcıda hazırlanmış, razılaşdırılmış yerquruluşu planının (xəritəsinin) bir nüsxəsini, müraciəti və ona əlavə olunan sənədləri, təqdim edilmiş rəyləri, torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsinin əsasları, torpaq sahəsinin ölçüsü, yerləşdiyi ərazi vahidi, əvvəl aid olduğu kateqoriya (kateqoriya daxilində məqsədli təyinat), mülkiyyət növü, habelə torpaqdan istifadəyə dair xüsusi şərtlər və məhdudiyyətlər barədə məlumatları 10 (on) iş günü müddətində Nazirlər Kabinetinə təqdim edir.

3.9. Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsi barədə Nazirlər Kabineti tərəfindən bu Qaydaların 1.4-cü və 1.5-ci bəndlərinə uyğun olaraq qərar qəbul edildiyi halda, onun surəti Xidmətə daxil olduqdan sonra dövlət torpaq kadastrında 2 (iki) iş günü müddətində dəyişikliklər edilir və bu barədə müraciət edən subyektə 3 (üç) iş günü müddətində sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada məlumat verilir. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə müraciət edən subyektin ərizəsi əsasında bu dəyişikliklər daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

3.10. Torpaq sahəsinin kateqoriyaya aid edilməsi, bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsi prosesi bu Qaydaların 1.2-ci bəndinə uyğun olaraq, dövlət torpaq kadastrında və daşınmaz əmlakın dövlət reyestrində bu barədə zəruri dəyişikliklər edildikdən sonra başa çatır.

### 4. Torpaqların kateqoriyalara aid edilməsinə, onların bir kateqoriyadan digərinə keçirilməsinə və məqsədli təyinatının dəyişdirilməsinə dair müraciətlərə baxılmadan imtina edilməsi

4.1. Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsinə və məqsədli təyinatının dəyişdirilməsinə dair müraciətlərə baxılmasından aşağıdakı hallarda imtina edilir:

4.1.1. bu Qaydaların 3.1.1-3.1.4-cü yarımbəndlərində nəzərdə tutulmayan subyektlər tərəfindən müraciət edildikdə;

4.1.2. müraciətdə bu Qaydaların 3.1-ci bəndinin birinci abzasında nəzərdə tutulmuş məlumatlar öz əksini tapmadıqda və (və ya) müraciətə bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulan sənədlər əlavə edilmədikdə;

4.1.3. mənafeyinə toxunulduğu halda, qonşu torpaq sahələrinin qanuni sahiblərinin mövqeyi nəzərə alınmadıqda;

4.1.4. torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi qanunla qadağan edildikdə;

4.1.5. kateqoriyasının vəya məqsədli təyinatının dəyişdirilməsi nəzərdə tutulan torpaq sahəsi ərazi planlaşdırılması sənədlərinə, ərazi üzrə mövcud və layihələndirilmiş mühəndis-kommunikasiya təminatı sistemlərinə uyğun olmadıqda;

4.1.6. bu Qaydalarda əks olunan əsaslar üzrə torpaq sahəsinin kateqoriyasının və ya məqsədli təyinatının dəyişdirilməsi torpaqların münbitliyinin qorunmasına, torpağın münbitlik göstəricilərinə (aqrokimyəvi analizlərin nəticələri əsasında), əkinəyararlılıq vəziyyətinə, ətraf mühitin mühafizəsinə və torpaq ehtiyatlarından səmərəli istifadə məqsədlərinə uyğun olmadıqda;

4.1.7. ölkənin makroiqtisadi və ərazinin iqtisadi inkişaf istiqamətlərinə uyğun olmadıqda.

4.2. Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarının (qurumlarının) mənfi rəyibuna əsas olan iradlar normativ hüquqi aktlara istinad olunmaqla və onların pozulan tələbləri dəqiq göstərilməklə əsaslandırılmalıdır.

4.3. Bu Qaydaların 4.1.1-4.1.7-ci yarımbəndlərində qeyd edilən hallar aradan qaldırıldıqdan sonra Xidmətəyenidən müraciət edilə bilər.

### 5. Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsinə dair qərarın elektron informasiya sistemində qeydiyyatı və ötürülməsi

Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsinə dair qəbul edilmiş qərar barədə məlumatlar dövlət torpaq kadastrına daxil edilir və bu Qaydaların 1.2-ci bəndinə uyğun olaraq TEKUİS-ə və EKTİS-ə daxil edilir.

## Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 iyul tarixli 162 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 5.5.8-ci yarımbəndinə "sərəncamçısı olaraq" sözlərindən əvvəl ", habelə Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların gördüyü işlərdən (göstərdiyi xidmətlərdən) əldə olunan gəlirlərin" sözləri əlavə olunsun və həmin yarımbənddə "Agentlik" sözü "Agentliyin" sözü ilə əvəz edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 28 sentyabr 2024-cü il*

## Sabah VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin payız sessiyası öz işinə başlayacaq

**Sentyabrın 30-da VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il payız sessiyasında ilk iclası keçiriləcək.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, sessiyanın ilk iclasında yeni seçilmiş VII çağırış Milli Məclisin üzvlərinə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən vəsiqələr təqdim ediləcək. İclasda həmçinin VII çağırış Milli Məclisin ilk iclasında yaradılmış komitələrinin tərkibi formalaşacaq.

*"Azərbaycan"*

# Ceyhun Bayramov "İqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət məqsədinə" həsr olunmuş dialoqda iştirak edib

**Sentyabrın 27-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyimiz çərçivəsində təşkil olunan "İqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət məqsədinə" həsr olunmuş qeyri-rəsmi nazirlər dialoqunda iştirak və çıxış edib.**




XİN-dən AZƏRTAC-a bildirilib ki, nazirlər dialoqunda, həmçinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil iştirak və çıxış edib. Eyni zamanda tədbirdə müxtəlif ölkələrin yüksəksəviyyəli nümayəndələri, habelə COP29 üzrə danışıqçılar qruplarının üzvləri iştirak ediblər.

Ceyhun Bayramov çıxışında Azərbaycanın COP29 sədrliyi fəaliyyəti, prioritet və təşəbbüslərindən, habelə iqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət məqsədinin razılaşdırılması istiqamətində aparılan danışıqlar prosesindən ətraflı bəhs edib.

COP29 sədrliyimiz çərçivəsində aparılan danışıqlar prosesində ölkəmizin inklüzivlik və əməkdaşlıq çərçivəsində prosesin bütün maraqlı tərəfləri ilə yaxından çalışdığı diqqətə çatdırılıb. İqlim dəyişikliyi ilə mübarizəyə maliyyə vəsaiti cəlbinin vacibliyini nəzərə alaraq, özəl sektor, habelə çoxtərəfli maliyyə institutlarının iştirakı ilə bütün resursları səfərbər etməyin və Qlobal Cənubun iqlim dəyişikliyinə qarşı mübarizə səylərinin dəstəklənməsinin əhəmiyyəti vurğulanıb.

İqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət məqsədinin razılaşdırılmasının prosesin ən vacib elementlərindən biri olduğunu qeyd edən nazir Ceyhun Bayramov bu istiqamətdə danışıqlarda iştirak edən bütün tərəfləri konstruktiv mövqe sərgiləyərək bəşəriyyətin qarşısında duran iqlim dəyişikliyi təhdidi ilə mübarizə istiqamətində səylərin səfərbər edilməsinə çağırış edib.

COP29 sədrliyimizin 14 əsas təşəbbüs və bəyanla müəyyən olunmuş məqsədləri dəstəkləməklə yanaşı, onlara çatmaq üçün müvafiq alətlərin də təmin olunmasına fokuslandığı bildirilib. İqlimə əsaslanan inkişafın dəstəklənməsi yanaşmamızın, xüsusilə ən həssas təbəqələri nəzərə aldığı vurğulanıb.

Nazirlər dialoqu iqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət məqsədi üzrə müzakirələrin aparılması ilə davam etdirilib.

# Xarici işlər naziri bir sıra görüşlər keçirib







Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində BMT Baş katibinin müavini, az inkişaf etmiş, dənizə çıxışı olmayan və kiçik ada ölkələri üzrə ali nümayəndəsi Rabab Fatima ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı tərəflər Azərbaycan və BMT arasında mövcud əməkdaşlıq məsələlərini, habelə Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrlik fəaliyyətini və hazırlıq prosesini müzakirə ediblər.

Nazir Ceyhun Bayramov BMT və onun qurumları ilə əməkdaşlığın Azərbaycanın xüsusi diqqət ayırdığı istiqamətlərdən biri olduğunu və ölkəmizin təşkilat tərəfindən həyata keçirilən layihələrdə fəal iştirak etdiyini bildirib.

Regionda və dünyada sülhün və təhlükəsizliyin qorunması, həmçinin BMT-nin "Dayanıqlı inkişaf məqsədləri"nə nail olunması məqsədilə müvafiq addımların atılması və digər üzv dövlətlərlə səylərin birləşdirilməsinin əhəmiyyəti vurğulanıb. Azərbaycanın iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllinə yönəlmiş koordinasiyalı fəaliyyətə hər zaman hazır olduğu qarşı tərəfin diqqətinə çatdırılıb.

COP29 sədrliyimiz çərçivəsində səsiyaya hazırlıq işləri, aparılan danışıqlar prosesi barədə ətraflı məlumat verən Ceyhun Bayramov ölkəmizin inklüzivlik prinsipini rəhbər tutaraq, xüsusilə az inkişaf etmiş, dənizə çıxışı olmayan və kiçik ada ölkələrinin iqlim dəyişikliyi ilə mübarizə səylərinin dəstəklənməsini diqqət mərkəzində saxladığını vurğulayıb.

Ali nümayəndə Rabab Fatima Azərbaycanın əməkdaşlığını və müvafiq layihələrdə iştirakını yüksək qiymətləndirib və birgə təşəbbüslərin dənizə çıxışı olmayan region ölkələrinin nəqliyyat imkanlarının genişləndirilməsinə töhfə verəcəyinə olan inamını ifadə edib. Eyni zamanda "Dayanıqlı inkişaf məqsədləri"nin reallaşdırılması istiqamətində atılan addımların, xüsusilə də COP29-a sədrlik çərçivəsində görülmüş işlərin Azərbaycanın təşkilatın işində uğurlu iştirakının göstəricilərindən olduğunu qeyd edib.

Bununla yanaşı, görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində Niderland Krallığının xarici işlər naziri Kasper Veldkamp ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, görüşdə Azərbaycan-Niderland münasibətlərinin müxtəlif aspektləri, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar müzakirə olunub.

İki ölkə arasında qarşılıqlı səfərlərin, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində təmasların ikitərəfli münasibətlərin spektrini nəzərdən keçirmək və gələcək əməkdaşlığın yeni istiqamətlərini araşdırmaq üçün vacibliyi qeyd olunub.

Ceyhun Bayramov, həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidinə qarşı mübarizə tədbirləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə ətraflı məlumatlandırıb.

Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində görülən işlərə təhdid törədən əsas amillər, o cümlədən Ermənistanın Konstitusiyası və digər qanunverici sənədlərində ölkəmizə qarşı ərazi iddialarının mövcudluğu, habelə bu ölkənin sürətli silahlanması diqqətə çatdırılıb.

Azərbaycanın COP29-a sədrlik fəaliyyətindən bəhs edən nazir Ceyhun Bayramov mümkün əməkdaşlıq imkanlarının dəyərləndirilməsinə hazır olduğumuzu diqqətə çatdırıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində Bosniya və Herseqovinanın xarici işlər naziri Elmedin Konakoviç ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Bosniya və Herseqovina arasında ikitərəfli, habelə çoxtərəfli strateji tərəfdaşlıqdan, ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyindən irəli gələn məsələlər müzakirə olunub.

İki ölkə arasında mövcud tərəfdaşlıq münasibətlərinin inkişafı istiqamətində siyasi, iqtisadi, enerji, alternativ enerji, elm, təhsil, mədəniyyət, gənclər, idman və sair aspektlər üzrə geniş əməkdaşlıq potensialının mövcud olduğu vurğulanıb.

Bununla yanaşı, turizm, kənd təsərrüfatı, sənaye, yüksək texnologiyalar, qarşılıqlı sərmayə qoyuluşları, nəqliyyat sahələrində mövcud olan əməkdaşlığın inkişaf perspektivlərindən istifadənin vacibliyi qeyd olunub.

Nazir bu il ölkəmizin evsahibliyi edəcəyi COP29-un yeni tərəfdaşlıq sahələri üçün əlverişli imkanlar yaratdığını və bu çərçivədə Azərbaycanın Bosniya və Herseqovina ilə əməkdaşlıqda maraqlı olduğunu qeyd edib.

Qarşı tərəf, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə sahəsində görülən işlər, habelə Azərbaycan və Ermənistan arasında normallaşma və sülh gündəliyinin hazırkı vəziyyəti barədə ətraflı məlumatlandırılıb.

Eyni zamanda görüşdə yeni əməkdaşlıq istiqamətləri və qarşılıqlı maraq kəsb edən digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 79-cu sessiyasının ümumi müzakirələri çərçivəsində Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri şahzadə Feysəl bin Fərhan Əl Səud ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan-Səudiyyə Ərəbistanı əlaqələrinin daha da inkişafından məmnunluq ifadə olunub.

BMT və İƏT kimi beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında bir-birinin legitim maraqlarına qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıqdan razılıqla bəhs olunub, Azərbaycanın haqlı mövqeyinə davamlı dəstəyə görə qarşı tərəfə minnətdarlıq bildirilib.

Səudiyyə Ərəbistanının Azərbaycanın bərpaolunan enerji sektorundakı fəaliyyəti yüksək qiymətləndirilib, ölkəmizin cari ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyinin "yaşıl enerji" sahəsində Azərbaycan-Səudiyyə Ərəbistanı əməkdaşlığı üçün əlavə imkanlar yarada biləcəyi diqqətə çatdırılıb.

Azərbaycan və Səudiyyə Ərəbistanı arasında iqtisadiyyat, ticarət və investisiyalar sahələrində mövcud inkişaf imkanlarından hər iki ölkənin rifahı naminə maksimum fayda əldə edilməsi üçün əməkdaşlıq mexanizmi qismində Hökumətlərarası Müştərək İqtisadi Komissiyanın potensialının reallaşdırılması vacibliyinə dair həmfikirlik ifadə olunub.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra nazirlər tərəfindən "Azərbaycan Respublikası hökuməti və Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında qısamüddətli səfər edən diplomatik və xüsusi və xidməti pasportlara malik olan şəxslərin qarşılıqlı giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumu imzalanıb.

❖ ❖ ❖

Sentyabrın 27-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok ilə görüşüb.

XİN-dən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Almaniya arasında mövcud ikitərəfli münasibətlər, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Qarşı tərəf, həmçinin Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi çərçivəsində görülmüş işlər barədə ətraflı məlumatlandırılıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesindən bəhs edən nazir Ceyhun Bayramov Ermənistan konstitusiyası və qanunverici sənədlərində ölkəmizə qarşı davam edən ərazi iddialarının, habelə bu ölkənin sürətli silahlanmasının sülh gündəliyinə hədə törədən təhdidlər olduğunu diqqətə çatdırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Sentyabrın 27-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində İndoneziya Respublikasının xarici işlər naziri Retno Marsudi ilə görüşüb.

XİN-dən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və İndoneziya arasında ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlıq məsələləri, habelə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri müzakirə olunub.

Azərbaycan Respublikası ilə İndoneziya Respublikası arasında əlaqələrin müxtəlif, o cümlədən iqtisadiyyat, nəqliyyat, turizm sahələrində inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

İki ölkə arasında BMT, Qoşulmama Hərəkatı, İƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyəti qeyd olunub.

COP29-a sədrliyimiz çərçivəsində irəli sürülən təşəbbüslərdən ətraflı bəhs edən nazir Ceyhun Bayramov iqlim dəyişikliyi ilə mübarizə sahəsində də İndoneziya ilə əməkdaşlıq etməyə hazır olduğumuzu bildirib.

Daha sonra nazirlər tərəfindən "Azərbaycan Respublikası Hökuməti ilə İndoneziya Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportların sahiblərinin vizadan azad edilməsi haqqında" Saziş imzalanıb.

❖ ❖ ❖

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində Mali Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdoulaye Diop ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, görüşdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın mövcud perspektivləri, habelə Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyindən irəli gələn məsələlər müzakirə olunub.

Ölkələrimiz arasında beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı çərçivəsində çoxtərəfli əməkdaşlığın mövcudluğu məmnunluqla qeyd olunub, münasibətlərin ikitərəfli səviyyədə inkişafı baxımından bu kimi təmasların, qarşılıqlı səfərlərin davam etdirilməsi, habelə iki ölkə arasında siyasi məsləhətləşmələr kimi mexanizmlərdən istifadənin vacibliyi vurğulanıb.

Qoşulmama Hərəkatına sədrliyimizin Afrika ölkələri ilə əlaqələrimizə verdiyi təkanın davam etdirilməsi istiqamətində Azərbaycanın Afrika İttifaqı ilə əlaqələrinin genişləndirilməsinin əhəmiyyəti və bu istiqamətdə bir sıra perspektivlərin mövcudluğu qeyd olunub.

Ceyhun Bayramov qarşı tərəfi COP29 sədrlik fəaliyyətimiz, əsas prioritetlər barədə ətraflı məlumatlandırıb. COP29 sədrliyimizin, xüsusilə az inkişaf etmiş, dənizə çıxışı olmayan və kiçik ada ölkələrinin iqlim dəyişikliyi ilə mübarizə səylərinin dəstəklənməsinə, onların həssaslıqları ilə bağlı zəruri tədbirlərin görülməsinə hədəfləndiyi diqqətə çatdırılıb, sədrlik təşəbbüslərimizin əksəriyyətinin bu istiqamətə həsr olunduğu qeyd olunub.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 443

QƏRAR

Bakı şəhəri, 25 sentyabr 2024-cü il

## "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanununun və "Azərbaycan Respublikasının "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 81 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi .qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanununun tətbiqi və "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 80 nömrəli Fərmanının 2-ci hissəsinin və "Azərbaycan Respublikasının "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 81 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 30 aprel tarixli 239 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 750 (Cild I) ilə təsdiq edilmiş "Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında Əsasnamə"nin 3-cü hissəsinin üçüncü abzasında "tibbi avadanlıq" sözləri "tibb vasitələri" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 246 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli 404 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. X bölmə üzrə:

2.1.1. adından "Tibbi," sözü çıxarılsın;

2.1.2. üçüncü və otuzuncu abzaslarda "tibbi preparatların" sözləri "dərman vasitələrinin" sözləri ilə əvəz edilsin;

2.1.3. səkkizinci abzasda "tibbi məmulatların" sözləri "dərman vasitələrinin" sözləri ilə əvəz edilsin;

2.2. XI bölmədə "Tibbi alətlərin və avadanlıqların istehsalı" hissəsinin adında "Tibbi alətlərin və avadanlıqların" sözləri "Tibb vasitələrinin" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4 (II kitab), maddə 211 (Cild I); 2024, № 5 (II kitab), maddə 606) ilə təsdiq edilmiş "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə"nin 3.1.3-1-ci yarımbəndində "vasitələri" sözü "və tibb vasitələri, habelə dərman maddələri" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 583 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli 404 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalat, peşə və vəzifələrin adı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

4.1. "VIII. Etil mayesinin tədqiqatı üzrə motor-sınaq stansiyasının fəhlələri və mütəxəssisləri" bölməsinin "Dərmanlar, vitaminlər, tibbi və bioloji preparatlar və materiallar" hissəsinin adından "tibbi və" sözləri çıxarılsın;

4.2. "XXVII. Yeyinti sənayesi" bölməsinin "Ət sənayesi, ət istehsalı" hissəsinin 47-ci bəndində "Tibbi preparatların" sözləri "Dərman və tibb vasitələrinin" sözləri ilə əvəz edilsin;

4.3. "XXXVII. Səhiyyə" bölməsinin "Aptek müəssisələri (həmçinin tibb və sosial təminat müəssisələrinin ştatlarında olanlar)" hissəsinin 133-cü bəndində "Həkimin resepti" sözləri "Resept" sözü ilə, "tibbi təyinatlı məmulatların" sözləri "tibb vasitələrinin" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 963 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli 404 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İşçilərə həftə ərzində 36 saatdan çox olmayan, qısaldılmış iş vaxtı müəyyən edilən əmək şəraiti fiziki, kimyəvi, bioloji və habelə insanın sağlamlığı üçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olan əmək şəraitli istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalatların, peşə və vəzifələrin adı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

5.1. "VI. KİMYA İSTEHSALATI." bölməsinin 117-ci bəndindən "tibbi və" sözləri çıxarılsın;

5.2. "XXXII. Səhiyyə" bölməsinin 45-ci bəndində "Həkimin resepti" sözləri "Resept" sözü ilə, "tibbi təyinatlı məmulatların" sözləri "tibb vasitələrinin" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 29 dekabr tarixli 242 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1241 (Cild I) ilə təsdiq edilmiş "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərə göstərilən tibbi yardımın Qaydası"nın 6-cı hissəsində "tibbi vəsaitlər" sözləri "tibb vasitələri" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 iyun tarixli 143 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 571 (Cild I) ilə təsdiq edilmiş "Elektron sağlamlıq kartı" sisteminin tətbiqi Qaydaları"na aşağıdakı məzmunda 3.3-cü bənd əlavə edilsin:

"3.3. Resept şəxslərin elektron sağlamlıq kartına onun FİN-i vasitəsilə inteqrasiya olunur.".

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 20 dekabr tarixli 266 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1155 (Cild I) ilə təsdiq edilmiş "Onkoloji xəstələrin dərman vasitələri ilə təminatı Qaydası"nın 7-ci hissəsində "həkim resepti ilə" sözləri "reseptlə" sözü ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 56 (Cild I); 2024, № 2, maddələr 209, 213, № 5 (II kitab), maddə 579) ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 8-ci bölmənin 8.1.1-ci yarımbəndinin on birinci abzasında "tibbi preparatları" sözləri "dərman vasitələrini" sözləri ilə əvəz edilsin;

9.2. 18-ci bölmə üzrə:

9.2.1. adından "tibbi və" sözləri çıxarılsın;

9.2.2. 18.8-ci bəndin "a) fəhlələr:" abzası üzrə:

9.2.2.1. üçüncü sətirdə "tibb preparatlarının" sözləri "dərman vasitələrinin" sözləri ilə əvəz edilsin;

9.2.2.2. iyirmi doqquzuncu sətirdə "tibbi preparat" sözləri "dərman vasitəsi" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyul tarixli 116 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 740 (Cild I) ilə təsdiq edilmiş "Hazırlanması, keyfiyyətinin, təhlükəsizliyinin və effektivliyinin araşdırılması məqsədilə dərman vasitələrinin elmi tədqiqat müəssisələri tərəfindən Azərbaycan Respublikasına idxalı Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1-ci hissədə "Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçməmiş" sözləri "dərman vasitələrinin dövlət reyestrinə (bundan sonra - dövlət reyestri) daxil edilməyən" sözləri ilə əvəz edilsin;

10.2. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qaydanın məqsədləri üçün dərman maddələri dərman vasitələrinə bərabər tutulur.";

10.3. 2-ci, 3-cü və 6-8-ci hissələrdə "Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçməmiş" sözləri "dövlət reyestrinə daxil edilməyən" sözləri ilə əvəz edilsin;

10.4. 3.1-ci bənddə "dövlət qeydiyyatından keçməmiş" sözləri "dövlət reyestrinə daxil edilməyən" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 917 (Cild I) ilə təsdiq edilmiş "Dərman vasitələrinin humanitar məqsədlər üçün Azərbaycan Respublikasına idxalı Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qaydanın məqsədləri üçün dərman maddələri dərman vasitələrinə bərabər tutulur.";

11.2. 2-ci hissənin ikinci abzasında "Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmayan" sözləri "Dərman vasitələrinin dövlət reyestrinə (bundan sonra - dövlət reyestri) daxil edilməyən" sözləri ilə əvəz edilsin;

11.3. 4-cü hissədə "Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmayan" sözləri "dövlət reyestrinə daxil edilməyən" sözləri ilə əvəz edilsin;

11.4. 5.1-ci bənd üzrə:

11.4.1. birinci abzasdan "(xəstəliklərin diaqnostikası və müalicəsi məqsədilə istifadə edilən tibb vasitələri istisna olmaqla)" sözləri çıxarılsın;

11.4.2. yeddinci abzasda "dəsti" sözü "partiyası" sözü ilə əvəz edilsin;

11.5. 5.2-ci bənddə "Xəstəliklərin diaqnostikası və müalicəsi məqsədilə istifadə edilən tibb vasitələri (tibb cihazları, məmulatları, əşya və materialları, alətləri, avadanlıqları, tibbi reaktivlər və optik ləvazimatlar) (bundan sonra - tibb vasitələri)" sözləri "Tibb vasitələri" sözləri ilə əvəz edilsin;

11.6. 11.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"11.3. bu Qaydanın 2-ci hissəsinin ikinci abzası nəzərə alınaraq, dərman vasitəsi dövlət reyestrinə daxil edilmədikdə;".

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 8 may tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 435 (Cild I) ilə təsdiq edilmiş "Meliorasiya və irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə əkinlərinin saxlanması Qaydaları"nın 10.3-cü bəndində "tibbi ləvazimatlarla" sözləri "tibb vasitələri ilə" sözləri ilə əvəz edilsin.

13. "Bədən tərbiyəsi və idmanla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 dekabr tarixli 198 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1073 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Milli yığma komandaların maddi-texniki, elmi-metodiki, tibbi-bioloji, tibbi və antidopinq təminatı Qaydası"nın 4.3-cü bəndinin beşinci abzasında "tibbi preparatlardan" sözləri "dərman vasitələrindən" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 yanvar tarixli 15 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 1, maddə 61 (Cild I) ilə təsdiq edilmiş "İdmançılara təqaüdlərin və digər ödənişlərin verilməsi Meyarları və Qaydaları"nın 3.1.1-ci yarımbəndində "tibbi preparatlarla" sözləri "dərman vasitələri ilə" sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 aprel tarixli 83 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 373 (Cild I) ilə təsdiq edilmiş "Dərman vasitələrinin elmi tədqiqatlarının, klinikaya qədər tədqiqatlarının və klinik sınaqlarının aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

15.1. 2.8-ci bənddə "standartların" sözü "texniki normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

15.2. 2.9-cu bənddə və 2.23-cü bənddə (hər iki halda) "qeydiyyata" sözü "dövlət qeydiyyatına" sözləri ilə əvəz edilsin;

15.3. 2.26-cı bənd üzrə:

15.3.1. birinci cümlədə "qeydiyyatdan" sözü "dövlət qeydiyyatından" sözləri ilə əvəz edilsin;

15.3.2. dördüncü cümlədə "Qeydiyyata" sözü "Dövlət qeydiyyatına" sözləri ilə əvəz edilsin;

15.4. 5.5-ci bənddə "qeydiyyatdan keçməmiş" sözləri "dövlət qeydiyyatına alınmamış" sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 820 (Cild I); 2024, № 1, maddə 83, № 2, maddə 209, № 3, maddə 307) ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nin "III. Təhsil müəssisələrində ümumi sanitariya-gigiyena tələbləri" bölməsində aşağıdakı dəyişikliklər edilsin:

16.1. 23 nömrəli cədvəl üzrə:

16.1.1. 2-ci hissənin üçüncü sətrinin 3-cü sütununda "tibbi təyinatlı məmulatların" sözləri "tibb vasitələrinin" sözləri ilə əvəz edilsin;

16.1.2. 3-cü hissənin 4-cü sütununda "tibbi ləvazimatlar" sözləri "tibb vasitələri" sözləri ilə əvəz edilsin;

16.1.3. 4-cü hissənin üçüncü sətrinin 3-cü sütununda "tibbi alət və ləvazimatların" sözləri "tibb vasitələrinin" sözləri ilə əvəz edilsin;

16.2. 1.2.19-cu yarımbəndin birinci cümləsində "tibb alətləri" sözləri "tibb vasitələri" sözləri ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 noyabr tarixli 259 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1198 (Cild I); 2024, № 4, maddə 184, № 6 (II kitab), maddə 736) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Mədəni bitkilərin genetik ehtiyatlarının milli kolleksiyalarının formalaşdırılması, mühafizəsi və istifadəsi Qaydaları"nın 11.6-cı bəndində "tibbi preparatlar" sözləri "dərman vasitələri" sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 4 aprel tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 439 (Cild I); 2024, № 3, maddə 328; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 4 sentyabr tarixli 393 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Gəmilərin nəzarət yoxlamasına dair Əsasnamə"nin 5.3.29-cu yarımbəndində "tibbi ləvazimatlar" sözləri "tibb vasitələri" sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 aprel tarixli 67 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 445 (Cild I) ilə təsdiq edilmiş "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması Qaydaları"nın 3.5-ci bəndinin birinci cümləsində "kliniki" sözü "klinik" sözü ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 232 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1030 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Gömrük ekspertizasının aparılması Qaydaları"na 2 nömrəli əlavə - Gömrük ekspertizası üçün göndərilən prob və nümunələrin minimum miqdarı"nın 16-cı hissəsində "Malların adı" sütununa "vasitələri" sözündən sonra "və dərman maddələri" sözləri əlavə edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1223 (Cild I); 2024, № 2, maddə 217, № 3, maddə 314, № 4, maddə 468) ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın 2.1.7-ci yarımbəndində "qeydiyyatından keçməyən" sözləri "qeydiyyatına alınmayan dərman vasitələri, həmçinin "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 9.6-cı maddəsində qeyd olunan" sözləri ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 18 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 203 (Cild I); 2024, № 2, maddə 209) ilə təsdiq edilmiş "Tikinti layihəsinin texnologiya bölməsinin hazırlanması tələb olunan hallar"da aşağıdakı dəyişikliklər edilsin:

22.1. 1.25.1-ci yarımbəndə "dərman vasitələrinin" sözlərindən sonra "və dərman maddələrinin" sözləri əlavə edilsin;

22.2. 1.25.2-ci yarımbənddə "tibb texnikası və avadanlıqları" sözləri "tibb vasitələri" sözləri ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 440 (Cild I); 2024, № 1, maddə 85, № 4, maddə 444) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın 18.4-cü bəndində "tibbi təyinatlı mallar" sözləri "tibb vasitələri" sözləri ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 191 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 744 (Cild I); 2024, № 3, maddə 313, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

24.1. 1.2.1-ci və 4.12.2-ci yarımbəndlərə "vasitələri" sözündən sonra "və dərman maddələri" sözləri əlavə edilsin;

24.2. 1.3-cü bəndə, 2.2.5-ci yarımbəndə və 4.12-ci bəndə "dərman vasitələrinə" sözlərindən sonra "və dərman maddələrinə" sözləri əlavə edilsin;

24.3. 4.12.2.1-ci yarımbənddə "və 9.4-cü" sözləri ", 9.4-cü və 9.6-cı" sözləri ilə əvəz olunsun və həmin yarımbəndə "dərman vasitələrinə" sözlərindən sonra "və dərman maddələrinə" sözləri əlavə edilsin;

24.4. 5.5-ci bəndə "Dərman vasitələrinə" sözlərindən sonra "və dərman maddələrinə" sözləri əlavə edilsin;

24.5. 5.5.1-ci və 5.5.2-ci yarımbəndlərə "dərman vasitələrinin" sözlərindən sonra "və dərman maddələrinin" sözləri əlavə edilsin;

24.6. Qaydaların 6 nömrəli əlavəsinin adına "DƏRMAN VASİTƏLƏRİNƏ" sözlərindən sonra "VƏ DƏRMAN MADDƏLƏRİNƏ" sözləri əlavə edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 iyul tarixli 214 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 904 (Cild I) ilə təsdiq edilmiş "Nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləği"nin 7-ci hissəsinin "Nəzarət markası verilən nüsxənin növü" sütununa "dərman vasitələri" sözlərindən sonra "və dərman maddələri" sözləri əlavə edilsin.

26. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 951 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddə 612; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 iyul tarixli 350 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

26.1. 2.6.10-cu yarımbəndə "mallar" sözündən sonra "("Dər-man vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dərman və tibb vasitələri, habelə dərman maddələri istisna olmaqla)" sözləri əlavə edilsin;

26.2. aşağıdakı məzmunda 2.6-3-cü bənd əlavə edilsin:

"2.6-3. Dərman və tibb vasitələri, habelə dərman maddələri idxal edilərkən bu Qaydaların 2.5.1-ci yarımbəndində göstərilən sənədlərin əvəzinə "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq gömrük orqanları tərəfindən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin verdiyi dərman vasitələrinin idxalına icazə barədə məlumatın mövcudluğu yoxlanılır.".

27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 258 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 889 (Cild I); 2024, № 1, maddə 105) ilə təsdiq edilmiş "Nəzarət markalarının alınmasına görə ödənilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına nəzarət edilməsi və uçotunun aparılması Qaydası"nın 1.2-ci bəndinə "dərman vasitələrinə" sözlərindən sonra ", dərman maddələrinə" sözləri əlavə edilsin.

28. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 823 (Cild I); 2024, № 1, maddə 77) ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"nin 3.1-ci bəndinin cədvəl hissəsinin "3. Malların mənşə ölkəsinin, emal prosesində hasilat normalarının və keyfiyyətinin müəyyən edilməsi" bölməsinin 3.23-cü bəndinin 2-ci sütununda "dərman vasitələrinin və bioloji aktiv qida məhsullarının və onların substansiyalarının" sözləri "dərman və tibb vasitələrinin, habelə dərman maddələrinin, bioloji aktiv qida məhsullarının" sözləri ilə əvəz edilsin.

29. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454 (Cild I); 2024, № 3, maddə 303; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 iyul tarixli 333 nömrəli və 6 sentyabr tarixli 404 nömrəli qərarları) ilə təsdiq edilmiş "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın 19.35-ci bəndinin birinci cümləsində "kliniki" sözü "klinik" sözü ilə əvəz edilsin.

30. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 oktyabr tarixli 414 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1732 (Cild I) ilə təsdiq edilmiş "Reklamı qadağan olunan əmtəələrin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

30.1. 3-cü hissədə "Həkim resepti" sözləri "Resept" sözü ilə əvəz edilsin;

30.2. 5-ci hissədə "tibbi təyinatlı texnika" sözləri "tibb vasitəsi" sözləri ilə əvəz edilsin.

31. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 iyul tarixli 330 nömrəli, 17 iyul tarixli 342 nömrəli və 3 sentyabr tarixli 382 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin 7-ci hissəsində 4818 mal mövqeyinə aid sətrin ikinci sütununda "tibbi təyinatlı məmulatlar" sözləri "tibb vasitələri" sözləri ilə əvəz edilsin.

32. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 iyul tarixli 287 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1623 (Cild I); 2024, № 3, maddə 331) ilə təsdiq edilmiş "Bioloji fəallığa malik qida əlavələrinin ekspertizadan keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

32.1. 5.7-ci bənddə "üzərində" sözündən sonra "Uşaqların əli çatmayan yerdə saxlayın", əmtəə nişanı adının yazıldığı hər yerdə əmtəə nişanı adının altında onunla eyni ölçüdə və şriftdə olan ağ fonda qara rəngli" sözləri, "qalın" sözündən sonra "və böyük" sözləri əlavə edilsin, "Dərman vasitəsi deyildir" sözləri "DƏRMAN VASİTƏSİ DEYİLDİR!" sözləri ilə əvəz edilsin, "və "Uşaqların əli çatmayan yerdə saxlayın" sözləri çıxarılsın;

32.2. 6.4.1-ci yarımbənddə "Dərman vasitəsi deyildir" sözləri "DƏRMAN VASİTƏSİ DEYİLDİR" sözləri ilə əvəz edilsin.

33. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 sentyabr tarixli 399 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1553 (Cild I) ilə təsdiq edilmiş "Dərman qutusunun tərkibinə və odsöndürənə dair tələblər, habelə onlardan istifadə təlimatı"nda aşağıdakı dəyişikliklər edilsin:

33.1. 2.2-ci və 4.3-cü bəndlərdə ismin müvafiq hallarında "tibbi ləvazimatlar" sözləri ismin müvafiq hallarında "tibb vasitələri" sözləri ilə əvəz edilsin;

33.2. həmin təlimata 1 nömrəli əlavə - "Dərman qutusunun tərkibi"nin "Tibbi ləvazimatların və dərman vasitələrinin adı" sütununun adında "Tibbi ləvazimatların" sözləri "Tibb vasitələrinin" sözləri ilə əvəz edilsin.

34. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (I kitab), maddə 739; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyul tarixli 359 nömrəli, 30 iyul tarixli 369 nömrəli və 6 sentyabr tarixli 404 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə"nin 1.4.4-cü yarımbəndinin üçüncü cümləsində "və tibbi preparatların" sözləri ", dərman və tibb vasitələrinin" sözləri ilə əvəz edilsin.

35. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 noyabr tarixli 460 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1880 (Cild I); 2024, № 3, maddə 330) ilə təsdiq edilmiş "Dərman vasitələrinin geri çağırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

35.1. 1.2-ci bəndə "istehsalı," sözündən sonra "idxalı," sözü əlavə edilsin;

35.2. 1.3-cü bənddə "Yüksək" sözü "Dərman maddələri və yüksək" sözləri ilə əvəz edilsin;

35.3. 2.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.2. Etibarlı İstehsalat Təcrübəsi - dərman vasitələrinin texniki normativ hüquqi aktların tələblərinə uyğun istehsal olunduğunu və yoxlanıldığını, öz təyinatına, dövlət qeydiyyat sənədlərinin və bu dərman vasitəsinə dair aparılmış kliniki sınaqların nəticələrinə uyğunluğun qiymətləndirilməsinə dair prosedur;";

35.4. 2.1.3-cü yarımbənddə "alınmasının, saxlanmasının və satışının dövlət standartlarına" sözləri "alınmasına, saxlanılmasına və satışına dair texniki normativ hüquqi aktların tələblərinə," sözləri ilə əvəz edilsin;

35.5. 5.2.3-cü yarımbənddə "ikincili" sözü "ikinci" sözü ilə əvəz edilsin.

36. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 503 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2084 (Cild I); 2024, № 3, maddələr 330, 343) ilə təsdiq edilmiş "Dərman vasitələrinin farmakonəzarət Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

36.1. aşağıdakı məzmunda 1.3-cü bənd əlavə edilsin:

"1.3. Dərman maddələri bu Qaydanın məqsədləri üçün dərman vasitələrinə bərabər tutulur.";

36.2. 2.1.15-ci, 4.1.14-cü yarımbəndlərdə, 7.2-ci bəndin birinci cümləsində "qeydiyyata" sözü "dövlət qeydiyyatına" sözləri ilə əvəz edilsin;

36.3. 3.2-ci bənddən "Ümumdünya Səhiyyə Təşkilatının müvafiq təsdiqedici sənədi ilə istifadəsi tövsiyə olunan dərman vasitələrinə," və "və yüksək risk qrupuna daxil olan tibb vasitələrinə (invaziv tibb vasitələrinə)" sözləri çıxarılsın;

36.4. 3.7-ci bənddə "vəsiqə sahibi" sözləri "dərman vasitələri istehsalçısı" sözləri ilə əvəz edilsin.

37. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 63 (Cild I); 2024, № 3, maddə 358) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə əlavə - "Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri"nin 1.1.31-ci yarımbəndinin üçüncü sütununda "kliniki" sözü "klinik" sözü ilə əvəz edilsin.

38. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 93 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 354 (Cild I) ilə təsdiq edilmiş "Tibbi-iqtisadi ekspertizanın aparılması Qaydası"nın 3.2.2-ci yarımbəndində "kliniki" sözü "klinik" sözü ilə əvəz edilsin.

39. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 355 (Cild I) ilə təsdiq edilmiş "Tibbi xidmətin keyfiyyətinin ekspertizasının aparılması Qaydası"nın 2.1.3-cü, 3.3.8-ci yarımbəndlərində və 3.5-ci bəndində "kliniki" sözü "klinik" sözü ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 516 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1617 (Cild I); 2024, № 5, maddə 606) ilə təsdiq edilmiş "Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası"nın 3.1.4-cü yarımbəndində "vasitələri" sözü "və tibb vasitələri, habelə dərman maddələri" sözləri ilə əvəz edilsin.

41. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 402 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1526 (Cild I) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin tariflərinin hesablanması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

41.1. 2.1.3-cü yarımbənddə "tibbi preparatlar" sözləri "dərman vasitələri" sözləri ilə əvəz edilsin;

41.2. 2.5.1-ci yarımbəndin beşinci abzasında "qiyməti" sözü "qiymətinin yuxarı həddi" sözləri ilə əvəz edilsin;

41.3. 2.5.3-cü yarımbəndin beşinci abzasında "preparatın" sözü "dərman vasitəsinin" sözləri ilə əvəz edilsin.

42. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 495 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1830 (Cild I) ilə təsdiq edilmiş "Satınalma güzəştinin tətbiqi Qaydası"nın 2.3.7-ci yarımbəndinə ismin müvafiq hallarında "dərman vasitələri" sözlərindən sonra ismin müvafiq hallarında "və dərman maddələri" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Mehriban ƏLİYEVA: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"

## 29-30 sentyabr 2020-ci il ZƏFƏR gündəliyi



*Cəbhənin bütün istiqamətlərində düşmən qüvvələrinə ağır zərbələr endirilir. Erməni əsgəri silahını, döyüş bayrağını ataraq qaçır. Azərbaycan Ordusunun Zəfər yürüşü davam edir.*

## 29 sentyabr

### Düşmənin artilleriya batareyası məhv edilib

Sentyabrın 28-dən 29-na keçən gecə bütün cəbhəboyu gərgin döyüşlər davam edib.

Ermənistan silahlı qüvvələri cəbhənin Füzuli-Cəbrayıl və Ağdərə-Tərtər istiqamətlərində itirdikləri mövqeləri geri qaytarmaq üçün bir neçə dəfə əks-hücum cəhdi göstərib.

Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri uğurla müdafiə olunaraq düşmənin bütün cəhdlərinin qarşısını alıb.



Gecə döyüşlərində cəbhənin Ağdərə istiqamətində düşmənin Madagizdən (Suqovuşan) hərəkət edən zirehli və avtomobil texnikasından ibarət qarışıq kolonu və onların hərəkətinə atəş dəstəyi verən artilleriya batareyası Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və cəbhənin bu istiqamətdə yerləşən qoşunlarımız tərəfindən məhv edilib.

Cəbhənin Füzuli-Cəbrayıl istiqamətində səhər saatlarında yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilib.

Gərgin döyüşlər davam edib. Düşmən ağır itkilər verərək geri çəkilməyə məcbur edilib.

### Daha 4 erməni tankı sıradan çıxarılıb

Səhər saatlarından etibarən Füzuli şəhərinin işğaldan azad olunması uğrunda Azərbaycan Ordusunun hücumu davam edib.

Səhər saat 07:00-08:00 radələrində cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankı qəhrəman əsgərlərimiz tərəfindən məhv edilib.

### Daşkəsən artilleriya atəşinə tutulub

Ermənistan növbəti provokasiyaya əl atıb. Səhər saat 07:30-dan etibarən Ermənistanın Vardenis rayonu ərazisindən Azərbaycanın Daşkəsən rayonunun ərazisi artilleriya atəşinə tutulub.

### Erməni hərbi hissəsinin komandiri məhv edilib

Bütün cəbhəboyu döyüşlər davam edir.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənə məxsus növbəti iki tank dəqiq atəşlə məhv edilib. Artilleriya bölmələrimiz düşmənə sarsıdıcı zərbələr endirib.

İşğal edilmiş ərazilərimizdə gedən döyüşlərə cəlb edilmiş Ermənistan ordusunun Eçmiədzin rayonunda dislokasiya olunan 61-ci əlahiddə mühəndis alayının 13516 saylı hərbi hissəsinin komandiri Spartak Koçaryan məhv edilib.

### İlham ƏLİYEV: "Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır"

Almaniya Kansleri Angela Merkel Prezident İlham Əliyevə telefonla zəng edib.

Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsi ilə bağlı ölkəsinin narahatlığını ifadə edən Angela Merkel hadisələrin gedişi ilə maraqlanıb.

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədib, ağır artilleriya qurğularından təmas xətti boyu yerləşən hərbi birləşmələrimizi, şəhər və kəndlərimizi atəşə tutub. Nəticədə iki gün ərzində hərbçilərimiz, 10 mülki şəxs, o cümlədən iki uşaq həlak olub, 29 mülki şəxs yaralanıb, 150 yaşayış evi dağıdılıb. Azərbaycan tərəfi əks-hücum əməliyyatına başlayıb.



İlham Əliyev vurğulayıb ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət bu ölkənin siyasi və hərbi rəhbərliyinin üzərinə düşür, Azərbaycan Ordusu öz torpaqlarında vuruşur və Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır.

### Mehriban ƏLİYEVA: "Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi azad edir"



"Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!"

Bu fikir Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstaqram" səhifəsindəki paylaşımında yer alıb. Paylaşımda daha sonra deyilir: "Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir".

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edən Mehriban xanım vurğulayıb ki, bu gün xalq niyyəti, hərəkət və duaları ilə misli görünməmiş birlik göstərir: "Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"

### Paşinyanın uydurmaları ifşa edildi

Rusiyanın "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan veriliş efirə gedib. Verilişdə Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan aparıcıların suallarını cavablandırıblar.

İlham Əliyev hər zaman olduğu kimi, yenə də qətiyyətli və prinsipial mövqeyini nümayiş etdirərək bildirib ki, artıq üçüncü gündür şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır.

Dövlətimizin başçısı Ermənistanın bu savaşda Türkiyənin iştirakı ilə bağlı uydurmalarına da aydınlıq gətirərək deyib ki, Türkiyə Azərbaycana yalnız mənəvi dəstək göstərir. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfinin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır. Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət də yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.



Beynəlxalq ictimaiyyət qarşısında çıxış edərkən dəfələrlə rəzil duruma düşən Nikol Paşinyan növbəti dəfə də ənənəsini pozmadı. Verilişin aparıcılarının sualları qarşısında aciz qalan Ermənistanın baş naziri yenə də çıxışında heç bir fakta əsaslanmayan yalan və uydurmalar söylədi.

## 30 sentyabr

### 3 gündə 2300 canlı qüvvə, 200-dən artıq artilleriya, 130-dək tank məhv edilib

İşğal olunmuş torpaqlarımızın azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edib.

Müdafiə Nazirliyi məlumat yayaraq bildirib ki, sentyabrın 27-dən 30-dək düşmənin 2300 nəfərədək canlı qüvvəsi məhv edilib və yaralanıb, 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dək hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri, 5 silah-sursat anbarı, 50-dək tank əleyhinə vasitələr, 55 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.



### Cəbrayıl istiqamətində düşmənin döyüş texnikaları sıradan çıxarılıb

Cəbhənin Cəbrayıl rayonu istiqamətində düşmənin döyüş texnikaları bölmələrimiz tərəfindən məhv edilib.

Səhər saat 08:00-dan etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutub. Mülki infrastruktura ziyan dəyib və yaralananlar olub.

Düşmənin artilleriya bölmələri Goranboy rayonunun Aşağı Ağcakənd kəndini də atəşə tutmağa başlayıb.

### Düşmənin "S-300" zenit-raket qurğusu məhv edilib

Xocalı rayonunun Şuşakənd ərazisində düşmənin 1 "S-300" zenit-raket qurğusu sıradan çıxarılıb.

İtirilmiş mövqeləri geri qaytarmaq üçün Suqovuşan istiqamətinə əlavə qüvvələr cəmləşdirən düşmən səhər saatlarından başlayaraq hücuma cəhd göstərib. Düşmənin bu fəaliyyətinin qarşısı alınıb və onun müqavimətinin qırılması məqsədilə qoşunlarımız tərəfindən əks-həmlə əməliyyatı keçirilib.

### Prezidentdən və Mehriban Əliyevadan yaralı qazilərimizə dəstək



Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkiblər.

Hər bir yaralı əsgərin vəziyyəti ilə maraqlanan İlham Əliyev deyib ki, həkimlər onların tezliklə sağalıb normal həyata qayıtmaları üçün əllərindən gələni edəcəklər.

Yaralılar isə tezliklə sağalıb yenidən döyüş bölgəsinə getmək, Vətən uğrunda haqlı savaşlarını davam etdirmək niyyətində olduqlarını bildiriblər. Ali Baş Komandan bir daha vurğulayıb ki, bu savaş tezliklə qələbəmizlə başa çatacaq: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".

Baş sərkərdə döyüşlərin gedişatından da söz açaraq deyib ki, artıq dördüncü gün davam edən savaşda Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik.

### İlham Əliyev Şarl Mişelə bir daha həqiqətləri açıqladı

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Prezident İlham Əliyevə telefonla zəng edib.

Təmas xəttində hərbi əməliyyatların başlamasından narahatlığını ifadə edən Şarl Mişel münaqişənin sülh yolu ilə nizamlanmasının zəruri olduğunu bildirib.

İlham Əliyev isə bir daha əsl həqiqətləri söyləyib və işğalçının hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyətin Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşdüyünü bildirib.

### On minlərlə könüllü döyüşlərə qatılmaq istəyir

Müdafiə Nazirliyi döyüşlərə qatılmaq istəyən könüllülərə müraciət edib. Müraciətdə bildirilir ki, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Azərbaycan Ordusunun düşmənə qarşı apardığı döyüşlərdə əldə etdiyi uğurlar xalqımızda döyüş ruhunun yüksəlməsinə səbəb olub. Azərbaycan əsgərinin uğurundan ruhlanan on minlərlə həmvətənimiz nazirliyə müraciət edərək ordumuzla birlikdə könüllü olaraq döyüşlərə qatılmaq istədiyini bildirib.

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan əsgərinə mənəvi dəstək olduqlarına görə təşəkkür edir və döyüşlərə qoşulmaqla şəxsi heyətin yanında olmaq istəyən hər kəsə dərin minnətdarlığını çatdırır. Bildirilir ki, könüllü döyüşlərə qatılmaq arzusunda olan döyüş və müharibə təcrübəsinə malik vətəndaşlarımız hərbi hissələrə deyil, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etsinlər.

### Ermənistan "Toçka-U" taktiki raket kompleksini tətbiq edib

Bölmələrimizin mövqelərini atəşə tutan düşmən topları dəqiq atəşlə məhv edilib. Qoşunlarımızın zərbələrinə məruz qalan Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taboru ağır itkilərə məruz qaldığından komandanlıqdan təcili surətdə kömək istəyib. Köməyə gələn ehtiyat qüvvələr tərəfimizdən aşkar olunaraq atəş zərbəsi ilə darmadağın edilib.

Ermənistan silahlı qüvvələri "Toçka-U" taktiki raket kompleksini tətbiq edib.

### Düşmənin "Uraqan" yaylım atəşli reaktiv sistemi sıradan çıxarılıb

Son saatlarda cəbhənin müxtəlif istiqamətlərində düşmənin 1 ədəd "Uraqan" yaylım atəşli reaktiv sistemi, 1 ədəd "OSA" zenit-raket kompleksi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd piyadanın döyüş maşını və 2 ədəd D-20 haubitsa-topu məhv edilib.

Azərbaycan Ordusunun bölmələri tərəfindən saat 17:30-dək düşmənin 2 ədəd "OSA-AKM" zenit-raket kompleksinin döyüş maşını, 1 ədəd BM-21 "Uraqan" yaylım atəşli reaktiv sistemi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 4 ədəd "D-20" haubitsa-topu, 16 ədəd tank, 1 ədəd piyadanın döyüş maşını və şəxsi heyətlə 2 ədəd yük maşını məhv edilib və sıradan çıxarılıb.

### Düşmənin həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib

Suqovuşan istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun darmadağın edilən 6-cı dağ atıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib.

Axşam saatlarında keçirilən döyüş əməliyyatları nəticəsində düşmənin 8 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



# Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclası keçirilib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, prokurorluq orqanlarının xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatları ilə səmərəli əməkdaşlığı davam etdirilir.**







Bunun nəticəsidir ki, 177 ölkə üzrə 350 mindən artıq üzvü olan dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı - Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) hər ilin sentyabr ayında baş tutan illik konfransı və ümumi yığıncağı 29 sentyabr - 2 oktyabr tarixlərində paytaxt Bakı şəhərində keçiriləcək.

Dünən assosiasiyanın rəhbər qurumu olan İcraiyyə Komitəsinin 58-ci iclası Heydər Əliyev Mərkəzində baş tutub.

İclasda açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkəmizin prokurorluq orqanlarında davam etdirilən islahatlar, habelə Azərbaycan prokurorluğunun BPA-nın işinə verdiyi töhfə haqda məlumat verib.

Baş prokuror həmçinin dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçiriləcəyini bildirməklə dünya ölkələrinin növbəti dəfə Azərbaycana olan böyük etimad və hörmətinin, o cümlədən ölkəmizin dünya miqyasında artan nüfuzu və güclü mövqelərinin göstəricisi olduğunu xüsusilə vurğulayıb.

Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) hər ilin sentyabr ayında illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçirilməsinin mühüm tarixi nailiyyət olduğunu vurğulayaraq, ölkəmizin assosiasiyanın işinə gələcəkdə də önəmli töhfələr verəcəyini qeyd edib.

İclasda BPA-nın gələcək strategiyası və fəaliyyəti, beynəlxalq əlaqələrinin daha da inkişaf etdirilməsi və digər mühüm məsələlər müzakirə edilib.

İclasda bir sıra mühüm xüsusatlar, o cümlədən təşkilatın rəhbər vəzifələrinə seçkilərin keçirilməsi, yeni üzvlərin qəbul edilməsi, hesabatların dinlənilməsi ilə bağlı tövsiyələr, assosiasiyanın növbəti illik iclas və konfranslarının keçirilməsi və digər məsələlərə baxılıb.

İclasda, həmçinin cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində ölkəmizdə keçiriləcək Assosiasiyanın illik konfransı və ümumi yığıncağı ilə bağlı təşkilati məsələlər müzakirə edilib.

Yekunda Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 30-cu İllik Konfransı və ümumi yığıncağının Sinqapurda (Sinqapur şəhəri), 31-ci İllik Konfransı və ümumi yığıncağının isə Səudiyyə Ərəbistanı Krallığında (Ər-Riyad şəhəri) keçirilməsi barədə ilkin qərar qəbul olunub.

# Azərbaycan Beynəlxalq Axtarış-Xilasetmə Dəstəsi beynəlxalq sertifikata layiq görülüb

**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Beynəlxalq Axtarış-Xilasetmə Dəstəsinin (BAXD) Birləşmiş Millətlər Təşkilatının Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisinin (UN OCHA) Beynəlxalq Axtarış-Xilasetmə Məşvərət Qrupunun (INSARAG) beynəlxalq sinifləndirilməsi prosesi həyata keçirilib.**



AZƏRTAC xəbər verir ki, proses Birləşmiş Millətlər Təşkilatının Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisinin rəhbər şəxslərinin, BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisinin Beynəlxalq Axtarış-Xilasetmə Məşvərət Qrupunun (INSARAG) Katibliyinin INSARAG qlobal birlikləri və Fövqəladə hallara cavab bölməsinin rəhbəri Vinston Çanqın rəhbərlik etdiyi nümayəndə heyəti, 11 ölkədən olan qiymətləndiricilər və 7 ölkədən olan müşahidəçilər tərəfindən izlənilib.

Qiymətləndirmə prosesi çərçivəsində əvvəlcə nazirliyin beynəlxalq humanitar əməliyyatlarda iştirakla bağlı imkanları barədə təqdimatlar olunub, ekspertlərin sualları cavablandırılıb.

Sonra FHN BAXD-nin FHN-nin Beynəlxalq Axtarış-Xilasetmə Dəstəsinin BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisinin Beynəlxalq Axtarış-Xilasetmə Məşvərət Qrupunun beynəlxalq sinifləndirilməsi məqsədilə 36 saat ərzində fasiləsiz taktiki-xüsusi təlimə start verilib. Paytaxtın Türkan və Hövsan qəsəbələrinin ərazisində reallaşdırılan təlimdə FHN-in Beynəlxalq Axtarış-Xilasetmə Dəstəsinin, eləcə də Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) canlı qüvvə və texnikası ilə yanaşı, fövqəladə hallar könüllüləri də iştirak edib. Taktiki-xüsusi təlim Beynəlxalq Axtarış-Xilasetmə Məşvərət Qrupunun (INSARAG) Katibliyinin INSARAG qlobal birlikləri və Fövqəladə hallara cavab bölməsinin rəhbəri Vinston Çanqın başçılıq etdiyi nümayəndə heyəti, o cümlədən beynəlxalq qiymətləndiricilər və müşahidəçilər tərəfindən canlı izlənilib.

Taktiki-xüsusi təlim zamanı mobillik, planlama, logistika, fəlakət bölgəsində yaranmış vəziyyətin qiymətləndirilməsi, dağıntılar altından zərərçəkmişlərin xilas edilməsi, hündürlükdə köməksiz vəziyyətdə qalan insanların xilas edilməsi, ilkin tibbi yardımın göstərilməsi, təxliyə, zərərçəkmiş ölkəyə əməliyyatların koordinasiyası üzrə dəstəyin göstərilməsi prosedurları həyata keçirilib. Təlimin gecə saatlarında baş tutan hissəsində axtarış-xilasetmə əməliyyatlarının fasiləsiz davam etməsi təmin olunaraq, texniki təhlükəsizlik qaydalarına riayət olunması, həyat və sağlamlığın qorunması işləri həyata keçirilib. Təlim zamanı əməliyyatların müasir beynəlxalq idarəetmə və koordinasiya sistemləri üzərindən idarə olunması diqqət mərkəzində saxlanılıb.

Taktiki-xüsusi təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

36 saat fasiləsiz davam edən taktiki-xüsusi təlim bitdikdən sonra qiymətləndiricilərin toplantısı keçirilib. Toplantının nəticələrinə əsasən, Azərbaycan FHN-nin Beynəlxalq Axtarış-Xilasetmə Dəstəsinin INSARAG beynəlxalq sinifləndirilməsindən uğurla keçməsi barədə yekdil qərar qəbul olunub. Beləliklə, FHN-nin dəstəsi beynəlxalq arenada "MUSAR AZE-01" adı ilə təmsil olunacaq.

Bu nailiyyət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq beynəlxalq humanitar əməliyyatlarda Azərbaycan FHN-nin daha səmərəli fəaliyyət göstərməsinə şərait yaradacaq.

Sentyabrın 26-da Azərbaycan FHN-in Beynəlxalq Axtarış-Xilasetmə Dəstəsinə INSARAG beynəlxalq sinifləndirilməsindən keçməsinə dair sertifikat, koordinasiya qruplarına fərqləndirici bayraqlar, TƏBİB-in tibb personalı da daxil olmaqla şəxsi heyətə fərqləndirici şevronlar təqdim olunub.

Dəstənin beynəlxalq sinifləndirməyə hazırlığı Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Fövqəladə Hallar Departamentinin (AFAD) mentorluğu ilə həyata keçirilib.

Elm xadimləri

# Vətən tarixinin fədakar salnaməçisi

**Azərbaycan tarix elminin görkəmli nümayəndəsi, zəhmətkeş və məhsuldar epiqraf alim Hacıfəxrəddin Səfərli yüksək mənəviyyatı, vətənpərvərliyi, xeyirxahlığı, eyni zamanda əqidəliliyi, prinsipiallığı və əzmkarlığı ilə tanınan ziyalıdır. Naxçıvan Dövlət Universitetinin məsləhətçi-professoru, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor kimi o, ömrünün 50 ilə yaxın dövrünü Azərbaycan elminin və təhsilinin inkişafına həsr etmişdir. Hacıfəxrəddin Səfərli 75 illik ömür yolunda vətən tariximizin ən problemli və aktual məsələlərinin obyektiv həllində böyük səylər göstərmiş, yüzlərlə gəncin maariflənməsində, vətəndaş kimi formalaşmasında yaxından iştirak etmişdir.**



Hacıfəxrəddin Yəhya oğlu Səfərli 29 sentyabr 1949-cu ildə Naxçıvan Muxtar Respublikasının Naxçıvan (indiki Babək) rayonunun Cəhri kəndində anadan olmuş, 1955-1966-cı illərdə Cəhri kənd orta məktəbində təhsil almışdır. 1967-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının Tarix fakültəsinə qəbul olmuş, 1971-ci ildə həmin fakültəni müvəffəqiyyətlə bitirmişdir. Elə həmin ildən də, Cəhri kənd orta məktəbinə tarix müəllimi təyin olunan Hacıfəxrəddin Səfərli qısa müddət ərzində tədris prosesində uğurlar qazanaraq şagird və müəllim yoldaşlarının sevimlisinə çevrilmişdir. Hələ ali təhsil aldığı illərdə Tələbə Elmi Cəmiyyətinin tədbirlərində aktiv iştirakı ilə tanınan Hacıfəxrəddin müəllimin elmi-tədqiqat işinə olan marağı onu 1979-cu ildə Azərbaycan EA-nın Naxçıvan Elm Mərkəzində kiçik elmi işçi kimi çalışmasına gətirib çıxarmışdır.

Azərbaycan xalqının zəngin milli-mənəvi dəyərlərindən ilham alan Hacıfəxrəddin Səfərlinin tarix elmini və onun metodologiyasını dərindən bilməsi, eyni zamanda yüksək intellekt, zəka və məntiqə malik olması sayəsində Azərbaycan tarixşünaslığında Orta əsr mədəniyyətimizlə bağlı öyrənilməmiş, təhrif edilmiş bir çox məsələlərə aydınlıq gətirilmiş, mühüm tarixi məlumatlar və faktlar aşkar edilmişdir. Elmi tədqiqatlarında son dərəcə dəqiqliyi ilə seçilən Hacıfəxrəddin Səfərli bir alim kimi, araşdırdığı tarixi hadisələri dərin təhlildən keçirərək mühüm elmi nəticələr əldə etməyə müvəffəq olmuşdur. Onun əsərləri ardıcıllığı, faktoloji materialların zənginliyi, sadə dillə izah və şərh edilməsilə seçilir.

Hacıfəxrəddin Səfərli uzun illərdir ki, Azərbaycanın Orta əsr tarix və mədəniyyətinin öyrənilməsində xüsusi yeri olan epiqrafik abidələrimizlə bağlı tədqiqatlar aparır. İslamın yayıldığı zamanlardan meydana gələn müxtəlif təyinatlı tarixi-memarlıq nümunələrimizin elmi ictimaiyyətə bəlli olmayan tərəflərini öyrənir, bununla bağlı monoqrafiya, kitablar və məqalələr hazırlayıb elmi ictimaiyyətə və geniş oxucu kütləsinə çatdırır.

Naxçıvan Muxtar Respublikası ərazisində günümüzədək gəlib çatan və tədqiqini gözləyən müxtəlif təyinatlı bir sıra türk-islam mədəniyyəti nümunələri, o cümlədən məscidlər, mədrəsələr, türbələr, xanəgahlar, imamzadələr, körpülər, karvansaralar, hamamlar və sairə onun tərəfindən tədqiq olunaraq elmi dövriyyəyə daxil edilmişdir. Eyni zamanda üzərində olan kitabələrin oxunması sayəsində bir sıra tarixi-memarlıq nümunələrinin inşa və bərpa olunma tarixini müəyyən etməklə yanaşı, həm də, o, bu abidələri inşa edən bəzi memarlar barəsində də ümumi məlumatların aşkar edilməsinə nail olmuşdur. Ümumiyyətlə, alimin apardığı tədqiqatlar nəticəsində Orta əsr Azərbaycan sənətkarları tərəfindən yaradılmış çoxlu tarix və mədəniyyət abidəsinin, qəbiristanlığın, yaşayış məskəninin dövrü, tarixi müəyyən edilmiş, elmə məlum olmayan çoxlu sayda görkəmli şəxsiyyətin, o cümlədən dövlət xadimlərinin, alimlərin, sufi şeyxlərinin, sənətkarların və s. adları aşkar olunaraq elmi dövriyyəyə daxil edilmişdir. Kitabələr vasitəsi ilə qəbirlərinin yeri və vəfat tarixləri aşkar edilən insanların adlarına əlavə olunan titulların təhlili nəticəsində həmin şəxsiyyətlərin Orta əsr feodal cəmiyyətində tutduğu mövqe və yer haqqında əsaslı fikirlər söylənmişdir.

"Naxçıvan MSSR-in ərəb-fars dilli kitabələri tarixi mədəniyyət abidələri kimi (XVI-XIX əsrlər)" adlı namizədlik dissertasiyası üzərində çalışan Hacıfəxrəddin Səfərli vətən tarixinin ən aktual və gərəkli bir sahəsinin tədqiqinə həsr olunmuş bu əsərini tamamlayaraq 1987-ci ildə uğurla müdafiə etmiş və tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Hələ dissertasiya mövzusu üzərində tədqiqat apararkən o, demək olar ki, Naxçıvanın ən ucqar yaşayış məskənlərinə səfərlər edərək yeni maddi-mədəniyyət abidələrinin, xüsusilə kitabələrin aşkar edilməsinə və tədqiq edilməsinə nail olmuşdur. Qısa müddət ərzində yüksək elmi tədqiqat bacarığı nümayiş etdirən və yeni elmi müddəaları ilə qəbul olunmuş alim Naxçıvan Regional Elmi Mərkəzinin "Arxeologiya və etnoqrafiya" şöbəsində böyük elmi işçi və şöbə müdiri vəzifələrinə yüksələ bilmişdir.

"Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər" mövzusunda doktorluq dissertasiyası üzərində işləyən yorulmaz alimin bu elmi tədqiqat işində tarix elminə gətirdiyi elmi yeniliklər, maddi-mədəniyyət nümunələri, xüsusilə epiqrafik abidələrin məlumatları əsasında Naxçıvan tarixinin Orta əsrlər dövrünün sosial-siyasi, dini, mədəni, ideoloji həyatının obyektiv mənzərəsi öz yüksək elmi həllini tapa bilmişdir. Tədqiqat zamanı indiyədək tarix elminə məlum olmayan yeni epiqrafik abidələr aşkarlanaraq elmi dövriyyəyə daxil edilmiş, bu günədək haqqında pərakəndə fikirlər səslənən abidələr isə yeni elmi yanaşma üsulları ilə tədqiqata cəlb olunmuşdur.

Tarix elminin ən mühüm sahələrindən olan, lakin o qədər də tədqiqatçısı olmayan, ağır zəhmət tələb edən epiqrafika sahəsində öz elmi dəst-xəti olan Hacıfəxrəddin Səfərlinin tədqiqat sahəsi həm də çox mühüm strateji əhəmiyyət kəsb edir. Tarixi düşmənlərimiz olan ermənilər Naxçıvana olan ərazi iddialarını dünyanın müxtəlif ölkələrində saxtakarlıqla səsləndirib, bu ərazilərdə ermənilərə məxsus qəbirüstü abidələrin üstünlük təşkil etməsi iddiaları ilə beynəlxalq ictimaiyyətin diqqətini çaşdırmaq istəyirlər. Bu baxımdan professor Hacıfəxrəddin Səfərlinin Naxçıvanın müxtəlif yaşayış məskənlərindən aşkar edərək elmi dövriyyəyə daxil etdiyi Orta əsrlər dövrünə aid yüzlərlə müsəlman kitabələri, fikrimizcə, ermənilərin torpaq iddialarına ən layiqli elmi cavab kimi qiymətləndirilməlidir. Hacıfəxrəddin Səfərlinin əsərlərində epiqrafik abidələrin məlumatları əsasında Orta əsr Naxçıvan tarixinin müxtəlif problemlərinə dair irəli sürülmüş fikirlər bütövlükdə Naxçıvan tarixinin öyrənilməsinə xidmət edən sanballı tədqiqatlardır. Alim sadəcə epiqrafik abidələrin mətnini oxumaqla tədqiqata cəlb etməmiş, həm də Naxçıvanın Orta əsrlər dövründə sosial-siyasi vəziyyəti, iqtisadi həyatı, ticarət əlaqələri, mədəniyyəti, ideoloji məsələlərini bütövlükdə öyrənmişdir.

Hacıfəxrəddin Səfərlinin gərgin elmi fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikası ərazisindəki epiqrafik abidələr ilk dəfə olaraq sistemli şəkildə tədqiq olunmuşdur: 600-dən artıq epiqrafik abidə qeydə alınmış, onların estampları, fotosu, ölçüsü götürülmüş, mətnləri oxunaraq Azərbaycan dilinə tərcümə edilmişdir. Həm də bu kitabələrin əksəriyyəti ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilmişdir. Bu kitabələrdəki məlumatlar Azərbaycanın Orta əsrlər dövrü tarix və mədəniyyətinin öyrənilməsində dəyərli mənbəyə çevrilmişdir.

Tədqiq olunan kitabələrin məlumatları əsasında alim tərəfindən ilk dəfə olaraq Orta əsrlər zamanı Naxçıvanda fəaliyyət göstərən sufiliklə bağlı mərkəzlər öyrənilmişdir. Məlum olmuşdur ki, Naxçıvanda Səfəviyyə, Bektaşiyyə, Hürifiyyə, Nöqtəviyyə, Qələndəriyyə və s. kimi sufi təriqətlərinə mənsub çoxlu xanəgahlar fəaliyyət göstərmişdir.

Hacıfəxrəddin Səfərlinin tədqiqatlarının nəticələri öz əksini 600-ə yaxın elmi və elmi-kütləvi əsərdə, o cümlədən 40-dan artıq kitab, monoqrafiya, dərs vəsaiti, metodik vəsait və dərs proqramında, 350-dən artıq elmi məqalə və tezisdə, 200-ə yaxın qəzet məqaləsində tapmışdır. Həmçinin alim çoxlu ümumiləşdirici əsərin, o cümlədən 2 cildlik "Naxçıvan ensiklopediyası"nın, Azərbaycan və ingilis dillərində buraxılmış "Naxçıvan abidələri ensiklopediyası"nın, "Naxçıvan tarixi atlası"nın, 3 cildlik "Naxçıvan tarixi"nin, "Dədə Qorqud yurdu-Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlasın, 2 cildlik "Naxçıvan etnoqrafiyası"nın I cildinin əsas müəlliflərindən biridir. Bu əsərlər həm də onun AMEA Naxçıvan bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutuna rəhbərlik etdiyi dövrdə hazırlanaraq nəşr etdirilmişdir.

Professor Hacıfəxrəddin Səfərli bir sıra beynəlxalq (Türkiyə, Bolqarıstan, Rusiya, İran, Azərbaycan və s.) və respublika miqyaslı simpozium və konfranslarda iştirak və məruzələrlə çıxış etmişdir. O, çoxlu kitab, monoqrafiya, dissertasiya və avtoreferatlara rəy vermiş, kitab və monoqrafiyalara redaktorluq etmişdir. Fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarına opponent olmuş, rəhbərliyi ilə bir neçə fəlsəfə doktoru hazırlanmışdır. Elmdə əldə etdiyi uğurlara görə 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Hacıfəxrəddin Səfərli 1995-ci ildən Naxçıvan Dövlət Universitetində müəllim, baş müəllim, dosent və nəhayət, 2006-cı ildən isə professor kimi səmərəli fəaliyyəti ilə yanaşı, bir ziyalı və ictimaiyyətçi kimi də yüksək etimad qazanmışdır. Onun pedaqoji, təşkilatçılıq və idarəçilik keyfiyyətləri sayəsində yüzlərlə gənc bu gün cəmiyyətimizdə layiqli yer tutmuş və ölkənin siyasi, ictimai, elmi həyatında fəal iştirak etməkdədir.

Hacıfəxrəddin Səfərli uğurlu elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, respublikamızın ictimai-siyasi həyatında və idarəçilik sistemində fəallığı ilə seçilir. O, 2010-2024-cü illərdə 3 çağırış (IV, V, VI çağırış) Naxçıvan MR Ali Məclisinin deputatı, Ali Məclisin "Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsi"nin sədri seçilmişdir. Həmçinin o, YAP Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının və YAP Naxçıvan şəhər təşkilatının Şura üzvü olmuşdur.

Tükənməz səbri, sözü ilə əməlinin vəhdəti, əqidə bütövlüyü, məslək saflığı, haqqa-ədalətə sonsuz inamı, nəhayət, ziyalı adını, intellekt səviyyəsini qoruyub saxlaya bilməsi, xislətinə xas olan mənəvi təmizliyi onu təkcə tələbələrin deyil, eyni zamanda iş yoldaşlarının, bütün kollektivin istəkli, mehriban, xeyirxah məsləhətçisinə çevirmişdir. İnanırıq ki, görkəmli tarixçi alim hələ uzun illər cəmiyyətimizin inkişafına daha böyük töhfələr bəxş edəcəkdir.

**Elbrus İSAYEV,**
***Naxçıvan Dövlət Universitetinin rektoru***



Jurnalist araşdırması

**"Fikrimcə, xarici dillərdən Azərbaycan dilinə tərcümə edilən bədii əsərlərin əksəriyyətində hisslərin ifadə olunması çox zəifdir. Tutaq ki, əsər ölümsüz eşqdən, sevgiləri uğrunda ölən aşiqlərdən bəhs edir. Amma tərcüməçilər həmin aşiqlərin duyğularını dərindən verə bilmirlər. Sevgi hisslərini ütülü, üzdən yazırlar.**

**Yaxud götürək elə yapon yazıçısı Haruki Murakaminin əsərlərini. Mən bu yazıçının tərcümə olunmuş əsərlərini həm türk, həm də öz dilimizdə oxumuşam. Fikir vermişəm ki, eyni əsərin türk dilində oxuduğum nümunəsində hisslər insana təsir edəcək dərəcədə qüvvətli formada əksini tapıb. Təəssüf ki, Azərbaycan dilinə edilən tərcümə ilə bağlı bunu demək olmur. Müqayisə edəndə də görmüşəm ki, bir çox halda əsərdə hisslərin ifadəsindəki müəyyən sözlər çıxarılır. Bu isə sünilik yaradır və oxucunu əsərin cazibəsindən uzaqlaşdırır..."**



# Azərbaycanda tərcümə nə vaxt böhrandan qurtulacaq?

## Oxucular gileyli, tərcüməçilər isə ümidlidirlər

"...Qriqori Petrovun "Bəyaz zanbaqlar ölkəsi" əsərini tərcümədən oxudum. Dili çox bəsit idi, sinonimlər əvəzinə eyni sözlərdən istifadə olunurdu. Həmin sözlərin də çoxu yerinə düşmürdü və bayağı səslənirdi. Buna görə də duyğuya qapılıb əsərdəki hadisələri gözümün qarşısında canlandıra bilmədim. Səthi oxudum. Məncə, qabarıq görünən səhvlər əsərlə oxucu arasında sədd çəkir. Halbuki Etel Lilian Voyniçin vaxtilə dilimizə tərcümə olunmuş və Kiril əlifbasında olan "Ovod" əsərini indi də əlimə götürüb oxuyanda hisslərimə hakim ola bilmirəm, gözlərimdən yaş süzülür..."

Nümunə gətirdiyimiz bu fikirləri xarici bədii əsərlərin Azərbaycan dilinə tərcüməsinin hansı səviyyədə olması ilə bağlı rəylərini soruşduğumuz Əsmər və Ülkər adlı gənc oxucular səsləndirdilər.

Ümumiyyətlə, hazırda ədəbi tərcümələrin dilimizə çevrilməsində ciddi qüsurların olması ilə bağlı oxucular tərəfindən xeyli tənqidi fikirlər səsləndirilir.

Tənqidçilər isə burada qrammatik və orfoqrafik səhvlərin çoxluğundan tutmuş ifadəliliyin olmamasına, sinxron tərcümələrin edilməsinə və digər amillərə qədər bir çox məqamı dilə gətirirlər. O da vurğulanır ki, Azərbaycanda tərcümə sahəsində ən böyük çatışmazlıq orijinaldan yox, ikinci dildən tərcümənin edilməsidir.

### Tərcüməçilərin günü

1991-ci ildən bəri hər il sentyabrın 30-da Beynəlxalq Tərcüməçilər Günü qeyd olunur. Bu tarix Bibliyanı (Vulqatı) latın dilinə tərcümə etmiş və ənənəyə görə tərcüməçilərin hamisi hesab olunan İeronim Stridonskinin 420-ci il sentyabrın 30-da dünyasını dəyişməsi ilə əlaqədardır.

Azərbaycanda da bədii tərcümənin tarixi qədimdir. Orta əsrlərdə bir sıra əsərlər fars dilindən Azərbaycan dilinə tərcümə edilib və tərcümə ənənəsi günümüzə qədər də davam edir.

Bəs hazırda Azərbaycanda tərcümənin vəziyyəti necədir? Dövlət Tərcümə Mərkəzindən bizə bildirildi ki, onlar Azərbaycan ədəbiyyatının daha çox ingilis, alman, ispan, gürcü, Ukrayna və digər dillərə bədii tərcüməsini həyata keçirirlər. Bu sıradan klassik ədəbiyyatdan Nizaminin, Nəsiminin, müasir ədəbiyyatdan İsa Muğannanın, Yusif Səmədoğlunun, Elçinin və digər yazarların kitablarını qeyd etmək olar. Xarici ədəbiyyatdan Azərbaycan dilinə isə daha çox ispan, fransız, ingilis, alman, rus, gürcü və digər dillərdə qələmə alınmış əsərlər tərcümə olunur. U.Folkner, C.Sellincer, Q.Q.Markes, M.Lyosa, A.Morua, A.Kamü, H.Böll, H.Hesse, V.Pşevala və digər dünyaşöhrətli müəlliflərin kitablarını da qeyd etmək olar.

Qeyd olundu ki, tərcümə və nəşr olunan kitablar əsasən hazırlıqlı, mütaliəli oxucunun istifadəsi üçün nəzərdə tutulur, kommersiya maraqları güdülmür. Dünya ədəbiyyatında xüsusi yeri olan, mərhələ yaratmış yazıçı və şairlərin kitablarının nəşrinə üstünlük verilir.

"Azərbaycan oxucusu daha çox hansı xarici ölkə yazarlarının ədəbi əsərlərinə üstünlük verir?" sualına mərkəzdən cavab verildi ki, buna birmənalı münasibət bildirmək çətin olsa da, ispandilli, ingilisdilli və rusdilli ədəbiyyatdan tərcümə olunmuş əsərlər oxucular tərəfindən daha maraqla qarşılanır.

Həmçinin ölkəmizdə Çin, yapon, hind, portuqal, skandinav dillərindən tərcümədə mütəxəssis çatışmazlığı hiss olunur.



**Aygün ƏZİZ:**

- İnsanlar bəzən baryerləri aşmaqda çətinlik çəkirlər. Bəzi tərcüməçilər isə həmin söz və ifadələri tamamilə başqa sözlərlə əvəzləyərək mənanı təhrif edirlər. Onda da, əlbəttə ki, mətn quru, yeknəsəq və süni alınacaq. Tabuları olan oxucularımız da az deyil. Onlar isə, əksinə, tərcümə kitablarında rast gəldikləri qeyri-senzuralı sözlərə qarşı çox qəzəblə yanaşırlar.

Burada ən doğrusu yazılanı necə varsa, elə bəzəkdüzəksiz, gizlənpaç oynamadan olduğu kimi çatdırmaqdır. Tərcüməçi mətnə bacardıqca sadiq qalmalıdır.

**Araz GÜNDÜZ:**



- Peşəkar tərcüməçi mətni tərcümə edərkən onu yazan müəllifin düşüncə sisteminə qoşulmağı bacarmalıdır.

Tərcümə prosesində bizim elə də güclü ənənələrimiz yoxdur.

Bu sahədə bizdə yerində sayma var.

İkinci dildən tərcümə zərurətdən irəli gəlir. Bu, heç olmasa hansısa məsələnin qismən həll olunmasına gətirib çıxardır. Yəni ikinci dildən tərcüməyə səbəb budur.

Azərbaycan oxucusunun əlində olan mətnləri gözdən keçirəndə böyük boşluqla rastlaşdım.

"Dövlət Tərcümə Mərkəzi ölkədə peşəkar tərcümə mütəxəssislərinin yetişdirilməsi istiqamətində hansı addımlar atır?" sualına isə bildirildi ki, peşəkar tərcümə mütəxəssislərinin yetişdirilməsi istiqamətində hər il davamlı olaraq müxtəlif xarici dillər və sahələr üzrə seçim turları təşkil edilir. Turlar tərcüməçilərin peşə qabiliyyətinin yoxlanılması və sertifikatlaşdırılması əsasında aparılır.

### Niyə müasir tərcüməçilərimiz oxucuları qane edə bilmirlər?

Müxtəlif dillərdən tərcümə edilən əsərlər obrazlı ifadə etsək, həm də dünyaya açılan pəncərədir. Bu anlamda, bir növ tərcüməçiliyi özlərinə peşə seçən insanların vasitəçiliyi ilə fərqli ölkələr, dinlər, mədəniyyətlər, adət-ənənələr, ümumiyyətlə, insanların yaşam tərzi, həyata baxışları barədə məlumat almaq mümkündür. Təbii ki, duyğular və hisslər üzərində qurulan ədəbi nümunələri dilimizə çevirməklə məşğul olan tərcüməçilərin üzərinə daha çox iş düşür. Bunun öhdəsindən peşəkarlıqla gələndə ortaya mükəmməl incilər, gələ bilməyəndə isə sözün əsl mənasında şikəst edilən əsərlər çıxır. Təəssüf ki, oxucuların əksəriyyətinin söylədiklərindən məlum olur ki, hazırda onlar daha çox ikinci tip bədii tərcümə əsərləri ilə qarşılaşırlar.

Bəs Azərbaycan oxucusu nə üçün müasir tərcümələrin əksəriyyətinin bəsit, dayaz olduğundan şikayətlənir? Niyə tərcüməçilərin təqdim etdikləri nümunələr bir çox halda oxucuları qane etmir? Ümumiyyətlə, tərcümə sahəsindəki problemlər nədən qaynaqlanır: maliyyə səbəbindən sinxron tərcümələrin edilməsimi, tərcüməçilərin peşəkarlıq səviyyəsinin aşağı olmasımı, gənc tərcüməçilərin yetişməsi üçün şərait yoxluğumu?..

Belə bir fikir də var ki, ədəbi mətni tərcümə edən şəxs həm də mütləq yazıçı olmalıdır. Ümumilikdə peşəkar tərcüməçidən tələb olunan vacib keyfiyyətlər hansılardır?

Bütün bu suallarımızı tərcüməçilərin özlərinə ünvanladıq.

### Azərbaycanda tabu olan mövzular

"Tərcüməçidən tələb olunan xüsusiyyətlər ilk növbədə öz dilinin ifadə imkanlarına sahib olması və tərcümə etdiyi dili yaxşı bilməsidir" söyləyən tərcüməçi Aygün Əziz bildirir ki, tərcümə işini bəzən ikinci müəlliflik adlandırırlar. Lakin ədəbi mətni tərcümə edən şəxsin yazıçılıq qabiliyyətinin olması vacib şərt sayılmır.

O əlavə edir ki, yazıçılıq elə də asan iş deyil: "Əgər hər tərcüməçi yazıçı olsaydı, onda inanın ki, tərcümə ilə heç kim məşğul olmazdı. Hamı hekayə, roman yazardı. Tərcüməçinin mütaliəsinin güclü olması və öz dilini bilməsi bu iş üçün lazım olan iki mühüm amildir".

"Hazırda bizim oxucularda ümumiləşmiş şablon bir fikir var: Azərbaycan dilində tərcümələr keyfiyyətsizdir, tələbatı ödəmir, mətnlər qrammatik və orfoqrafik səhvlərlə dolu olur və digər bu kimi mənfi fikirlər eşidirik" söyləyən 25 illik tərcüməçilik təcrübəsinə malik A.Əzizin sözlərinə görə, əvvəla, harda iş görülürsə, orada səhvlərin olma ehtimalını inkar etmək mümkün deyil: "Düzdür, yaxşı olardı ki, heç səhv olmasın. Bunun üçün isə çalışıb işində məsuliyyətli və vicdanlı olan peşəkarlardan güclü komanda yaratmaq lazımdır".

Oxucuların tərcümələrlə bağlı səsləndirdiyi bəsitlik, dayazlıq və sünilik məsələsi, sevgi səhnələrinin, arqo və jarqonların işləndiyi mətnlərlə bağlı fikirlərə isə tərcüməçi belə münasibət bildirdi: "Azərbaycanda bu mövzular hələ də tabu olduğuna görə belə səhnələrin, elə sözlərin tərcüməsində tərcüməçilər həqiqətən çətinlik çəkirlər. Dünya ədəbiyyatı bu baryeri aşıb. Amma biz hələ də tam aşa bilmirik. Fikirlər də haçalanır. Az bir qisim tərcüməçi belə hissələrin olduğu kimi, yəni çılpaqlığı ilə, ingilislərin öz təbirincə desək, hər şeyin öz adı ilə çağırılmasına tərəfdar olsalar da, amma buna girişməyən, hətta başlayıbsa belə həmin hissələrin yumşaq ifadə olunmasına, mümkün olduqca evfemizmlərdən istifadəyə, hətta milli mentalitetimizə sadiq qalaraq tamamilə o mənadan uzaq tərcümə edilməsinə üstünlük verən həmkarlarım da var".

A.Əziz vurğulayır ki, hətta elə tərcüməçilər var ki, onlar birmənalı olaraq erotik ədəbiyyatı, seks mövzularının qabarıq təsviri olan kitabları (hətta elmi-kütləvi olsa belə) tərcümə etməkdən imtina edirlər: "Bu barədə onları qınaya bilmərəm. İnsanlar bəzən baryerləri aşmaqda çətinlik çəkirlər. Bəzi tərcüməçilər isə həmin söz və ifadələri tamamilə başqa sözlərdən istifadə edərək mənanın təhrif olunmasına səbəb olurlar. Onda da, əlbəttə ki, mətn quru, yeknəsəq və süni alınacaq".

O qeyd edir ki, digər bir problem də bundadır ki, tabuları olan oxucularımız da az deyil. Onlar isə əksinə, tərcümə kitablarında rast gəldikləri qeyri-senzuralı sözlərə çox qəzəblə yanaşırlar: "Yəni burada ən doğru olan şey yazılanı olduğu kimi, bəzək-düzəksiz, gizlənpaç oynamadan olduğu kimi çatdırmaqdır. Tərcüməçi mətnə bacardıqca sadiq qalmalıdır. Düzdür, təsvirlərdə öz dilimizin zəngin ifadə çalarlarından istifadə etməklə mətni rövnəqləndirə bilərsən, amma yenə də yazıçının dilindən uzaq düşmək olmaz".

### Tərcümə sahəsində problemlər hələ də aktualdır

"Tərcümə sahəsində problemlər hələ də bizdə aktual mövzudur. Ümumiyyətlə, mətnlərin orijinaldan tərcüməsi arzuolunandır" söyləyən tərcüməçi hazırda buna üstünlük verildiyini bildirir.

İngilis, rus və türk dillərindən sərbəst şəkildə tərcümələr etdiyini söyləyən A.Əziz qeyd edir ki, amma bunun üçün başqa xarici dil mütəxəssislərinin olması da böyük üstünlükdür. Kitabları orijinaldan tərcümə etmək üçün ispan, italyan, portuqal, çin, yapon, ərəb, fars, Vyetnam dilləri... bilən tərcüməçilər nə qədər çox olsa, bir o qədər ümumi işə fayda verər. Çünki orijinaldan tərcümə daha gözəldir. Tərcümədən tərcümə orijinal əsərin bəzən zəif təqdim olunmasına gətirib çıxarır. Məlum məsələdir ki, müəyyən dərəcədə təhrifə yol verilməsi mümkündür...

O vurğulayır ki, pis tərcüməyə maliyyənin səbəb olması barədə mövzu onun üçün ağrılıdır: "Heç kəsin zorla əlinə kitab verib "sən bunu aşağı qiymətə tərcümə etməlisən" deyə öhdəlik qoyulmur. İnsan mövcud vəziyyətlə ya razılaşır, ya da razılaşmır. Amma üzdə ürəyindən olmayan məbləğə razılaşıb, əvəzində qəsdən aşağı keyfiyyətli iş təqdim edirsə, onda bu, ən yumşaq sözlə ifadə etsək, çox qeyri-peşəkar bir yanaşmadır. Beləleri ilə xudahafizləşmək lazımdır. Çünki tərcüməçi nəşriyyatın nüfuzunu zərbə altına qoyur, hətta bəzən o qədər nadan olur ki, öz mənafeyinə də xələl gətirir".

"Bir çox oxucu sovet dövründə edilən tərcümələrin müasir dövrdəkindən qat-qat yaxşı olduğunu söyləyir. Tərcüməçi olaraq bu fikirlə razısınızmı?" sualına gəlincə A.Əziz dedi ki, həmin vaxt indiki qədər çox tərcümələr edilmirdi. Edilənlər də əsasən rus dilindən olurdu. Rus dili də bizə az qala ikinci ana dilimiz kimi qəbul etdirilmişdi. Bu dildə hamı bilir, hamı danışırdı. O dildən tərcümə edən mütəxəssislər də az deyildi. Lakin bu, heç də onların tərcümələri mükəmməl etdiklərinə dəlalət etmir. Bugünkü gözlə baxanda o tərcümələrin özlərində belə nə qədər nöqsanlar olduğunu görə bilirik. Biz o dövrün tərcümələrini təkrar nəşrə göndərəndə artıq onların üzərində ciddi redaktə və korrektə işləri aparılır.

### Tərcümə sözünün özü yaradıcılıq deməkdir

Tərcüməçi Araz Gündüzün fikrincə, müasir dövrümüzdə də Azərbaycanda kifayət qədər peşəkar tərcüməçilər var: "Peşəkar tərcüməçi ilk növbədə hər iki dili, yəni hansı dildən tərcümə edirsə və hansı dilə tərcümə edirsə, onları kifayət qədər dərindən bilməlidir. Ümumiyyətlə, "tərcümə" sözünün özü yaradıcılıq mənasını verir. Yəni müəllif bir yad dildən doğma dilə tərcümə ilə məşğul olursa, bu, artıq yaradıcılıq prosesidir. Eyni zamanda mətnləri də təsnifata ayırmaq olar. Düzdür, bədii mətnlər mənə tamamilə fərqli görünür, amma digər - elmi, fəlsəfi, texniki mətnlərə də bu meyardan yanaşmaq olar. Tərcüməçi tərcümə etdiyi mətnin bağlı olduğu sahəyə mütləq bələd olmalıdır. Misal üçün, elmi mətni tərcümə edən tərcüməçinin əgər o sahə üzrə müəyyən informasiyası yoxdursa, onun tərcüməsi anlaşılmaz olacaq, çünki həmin tərcüməni mexaniki şəkildə edəcək".

A.Gündüzün sözlərinə görə, ədəbi mətnlərin tərcüməsi xüsusi bir məsələdir və burada yaradıcılıqla peşəkar olmasa da, ən azı həvəskar səviyyədə məşğul olmaq mühüm şərtdir: "Tərcüməçi bədii mətn tərcümə edirsə, bu sahədə müəyyən təcrübəsi, yaxud da geniş mütaliəsi olmalıdır. Peşəkar tərcüməçi digər dilə çevirdiyi mətni tərcümə edərkən onu yazan müəllifin düşüncə sisteminə qoşulmağı bacarmalıdır. Məsələn, öz təcrübəmdən deyə bilərəm ki, bəzən hansısa bir müəllifin tərcüməsindən sonra digər müəllifə keçəndə məndə müəyyən çətinliklər yaranır. Görürəm ki, artıq alışdığım düşüncə sistemi burada yoxdur. Fikrimcə, tərcümə ilə bağlı dərinliklər təcrübədə qazanılır".

O, ümumilikdə tərcümə prosesində Azərbaycanın elə də güclü ənənələrinin olmadığını söyləyir: "Məsələn, ötən əsrin 70-ci illərində belə bir informasiya oxumuşdum ki, Estoniyanın əhalisi Azərbaycandan üç dəfə az olsa da, orada dünyanın 71 dilindən orijinaldan tərcümə edənlər var. O dövrdə Azərbaycanda yəqin ki, orijinaldan tərcümə edən şəxsləri barmaqla saymaq olardı. Bu, onun göstəricisidir ki, vaxtilə bu ölkədə tərcümə prosesinə çox ciddi, dövlət siyasəti səviyyəsində yanaşma olub. Çünki bu, sivil dünyaya inteqrasiya olunmağın vasitələrindən biridir. Güman ki, onlarda hazırda nəticələr daha yüksəkdir. Amma bu sahədə bizdə yerində sayma var. Görünür ki, vaxtında bizdə tərcümə məsələsinə ciddi münasibət olmayıb. Burada amillərin nədən ibarət olduğunu sadalasaq, söhbətdən çox kənara çıxmış olarıq, amma gerçəklik bundan ibarətdir".

### İkinci dildən tərcüməyə səbəb nədir?

Rus dilindən tərcümələr edən A.Gündüz deyir ki, bəzən onun da qarşısında çox kəskin şəkildə suallar qoyurlar ki, nəyə görə orijinaldan yox, ikinci dildən tərcümə edirsən, bu, lüzumsuz işdir: "Bu cür sual qoyanlara hər zaman cavabım ondan ibarətdir ki, əgər biz tutaq ki, 1950-ci illərdə Viktor Hüqonun "Səfillər"ini ikinci dildən çevirməsəydik, nə baş verərdi?! Azərbaycan oxucusunun ümumi səviyyəsində hansı dəhşətli boşluq yaranmış olardı?! Yəni bu, zərurətdən irəli gəlir. Bu, heç olmasa hansısa məsələnin qismən həll olunmasına gətirib çıxardır. İkinci dildən tərcüməyə də səbəb budur. Tərcüməçiliyə başlayanda qarşıma məqsəd qoymuşdum ki, Azərbaycan oxucusunu bacardığım dərəcədə maarifləndirməyə çalışım. Çünki oxucularımızın əlində olan mətnləri gözdən keçirəndə böyük boşluqla rastlaşmışdım. Məsələn, gördüm ki, Azərbaycan oxucusu öz ana dilində Sokratı tanıya bilməz. Ona görə şagirdlərindən Ksenofonun Sokrat haqqında kitabını, Platondan müəyyən dialoqları tərcümə elədim. Volter, ümumiyyətlə, Azərbaycan dilində bir-iki dənə çox qədim nəşrlərlə təmsil olunurdu. Volterin təxminən əhəmiyyətli saydığım 70 faiz əsərini tərcümə etdim. Bunları deməkdə məqsədim odur ki, əgər orijinaldan tərcümə hələ də istənilən səviyyədə deyilsə, ikinci dildən tərcümələr etmək vacibdir".

A.Gündüz söyləyir ki, sovet illərində tərcümələrdə müəyyən peşəkarlıq olsa da, pis keyfiyyətə malik nümunələr də az deyildi: "Misal üçün, Rabindranat Taqorun əsərlərinin Azərbaycan türkcəsinə tərcümələrini oxumuşam. Çox keyfiyyətsiz tərcümələrdir. Yaxud 1970-ci illərin ortalarında Yaşar Kamalın "İncə Məmməd" adlı romanı tərcümə olunmuşdu, çox bərbad halda idi. Siyahını uzatmaq da olar... Amma digər yanda da tutaq ki, "Səfillər"in mükəmməl tərcüməsi var idi. Baxmayaraq ki, o da ikinci dildən tərcümədir".

### Fikirlər yekdil deyil

Beynəlxalq Tərcüməçilər Günü ərəfəsində bu sahədə olan problemləri, tərcüməçi və oxucuları narahat edən məsələləri qismən də olsa araşdırmaq istədik. Məlum oldu ki, Azərbaycanda ədəbi nümunələrin tərcüməsinin keyfiyyəti ilə bağlı fikirlər yekdil deyil. Oxucuların bir çoxu əsərlərin əksəriyyətinin qeyri-peşəkar tərcüməsindən, mətnlərin "ölü" mətnə çevrilməsindən gileylənirlər. Tərcüməçilər isə hesab edirlər ki, müəyyən problemlər olsa da, ümumilikdə son dövrlər tərcümə sahəsində xeyli irəliləyişlər var.

Amma hələ də əlimizə aldığımız bəzi bədii kitablarda dolaşıq fikirlərə, heç bir hiss ifadə etməyən cümlələrə (hələ qrammatik səhvlərə toxunmuruq), belə desək, duyğusuz, quruca söz yığınından ibarət mətnlərə rast gəliriksə, demək, bu sahədə vəziyyət elə də ürəkaçan deyil...

Və oxucuları narahat edən bütün bu problemlərin aradan qaldırılması üçün ölkədə fəaliyyət göstərən nəşriyyatların da üzərinə böyük məsuliyyət düşür.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Malayziyadan görünən Şuşa

*"Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyi Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Malayziyadan görünən Şuşa" adlı layihə həyata keçirib.*



İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar həyata keçirilən layihə çərçivəsində bu ilin iyun ayında Malayziyanın paytaxtı Kuala Lumpur şəhərində Şuşa mədəniyyəti günləri təşkil olunub.

Azərbaycan rəssamlarının Qarabağ və Şuşa mövzusunda çəkdiyi rəsmlərdən ibarət sərgi keçirilib, Şuşanın tarixi barədə bədii-sənədli film nümayiş olunub, eyni zamanda Qarabağ musiqisinin sədaları altında Şuşa mətbəxinin nümunələri təqdim edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Nizami Kino Mərkəzində filmin təqdimatına, həmçinin "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyinin (İB) yaradılmasının 20 illiyinə həsr olunmuş mərasimdə İB-nin sədri Şəhla Nağıyeva məlumat verib.

Qeyd olunub ki, layihə Azərbaycan Respublikasının Malayziyadakı səfirliyi, Kuala Lumpur Şəhər İncəsənət Qalereyasının və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilati dəstəyi ilə reallaşıb.

Birliyin gördüyü işlərdən bəhs edən videoçarx nümayiş olunub.

İctimai birliyin Kuala Lumpurda keçirilən tədbirlər haqqında hazırladığı "Malayziyadan görünən Şuşa" adlı sənədli filmi təqdim edilib.

Tədbirdə çıxış edənlər ictimai birliyin 20 illik fəaliyyətindən və təqdim olunan filmin əhəmiyyətindən danışıblar.

Layihənin iştirakçısı və Kuala Lumpurda Şuşa təamlarını təqdim etmiş Şuşa sakini Aybəniz İsmayılova Malayziyada keçirilən tədbirlər haqqında təəssüratını bölüşüblər.

Təqdimat mərasiminin yekununda Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva və Milli Məclisin deputatı Azər Allahverənov layihənin həyata keçirilməsində iştirak edən rəssamlara və "Malayziyadan görünən Şuşa" filminin yaradıcı heyətinə ictimai birliyin təşəkkür sertifikatlarını təqdim ediblər.




◆ Bakı COP29-a hazırlaşır




# Neftçilər parkının gözəlliyi göz oxşayır

**Paytaxtımız cazibədarlığına görə dünyanın məşhur şəhərləri ilə yanaşı durur. İndi Bakı inkişafının elə bir tarixi məqamına gəlib çatıb ki, paytaxtımıza yolu düşən hər kəs onun gözəlliyinə heyran qalır.**

Prezident İlham Əliyev tərəfindən Bakıya, onun abadlığına, infrastrukturuna, mədəni həyatına diqqət o qədər böyükdür ki, bunu təkcə ölkə vətəndaşları deyil, xarici ölkələrdən Bakıya gələn insanlar da etiraf edirlər. Əvvəl Bakıda olmuş əcnəbi turist növbəti dəfə paytaxtımıza gələndə onu tanıya bilmədiyini, şəhərin çox sürətlə inkişaf etdiyini, gözəlləşdiyini deyir.

Bu gözəlliyə əlavə gözəllik qatan istirahət parklarıdır. Bakıda onlarla istirahət parkı, gəzinti zonası, xiyaban var. Çəkinmədən deyə bilərik ki, bu istiqamətdə görülən işlərdən dolayı Bakı keçmiş ittifaq respublikalarının paytaxtlarından xeyli öndədir. Buna baxmayaraq, şəhərimizdə yeni meqaparkların salınması, bəzilərinin ərazisinin genişləndirilməsi, köhnə, baxımsız parkların bərpa olunması davam edir.

Belə parklardan biri də Suraxanı rayonunun Qaraçuxur qəsəbəsindəki Neftçilər parkıdır. Parkda demək olar ki, 89 min əhalisi olan qəsəbə sakinlərinin istirahəti üçün hər cür şərait yaradılıb. Buranın havası təmiz, ərazisi geniş və abaddır. Parka qulluq edənlər hər ağacın, kolun, gül-çiçəyin qayğısına qalır, onları körpə uşaq kimi qoruyurlar. Burada müasir işıqlar quraşdırılıb, dibçəklərdə bir-birindən əsrarəngiz güllər əkilib, dincələnlər üçün söhbətgahlar quraşdırılıb. Parkın mərkəzində neft quyusu formasında abidə də qoyulub. Sözsüz ki, adına işarədir. Ən maraqlı yerlərdən biri də "Veteranlar guşəsi"dir. Burada yaşlı insanların istirahət etmələri üçün hər şərait var. Parkda Qaraçuxur qəsəbəsi Əmək Veteranları Ağsaqqallar Şurası üçün yeni inzibati bina da inşa edilib.





Neftçilər parkı Bakının ən böyük istirahət yerlərindən biridir. Parkın 6 hektar ərazisi var. Onun 4 hektarı sırf əyləncə, istirahət, gəzinti üçündür. Digər 2 hektarlıq sahədə isə meşə zolağı salınıb, velosiped yolu çəkilib. Parkda "IDEA" İctimai Birliyinin layihəsi çərçivəsində uşaq idman və futbol meydançaları salınıb, trenajorlar, uşaq və yeniyetmələrin əyləncəsi, asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif attraksionlar quraşdırılıb. Yeri gəlmişkən qeyd edək ki, 2019-cu il fevralın 26-da "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyası çərçivəsində parkda ağacəkmə aksiyası keçirilmişdir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da iştirak etdiyi aksiyada Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək üçün 613 ağac əkilib. Bir həftə sonra - aprelin 6-da isə Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi şərəfinə parka daha 300 ağac basdırılıb.

Həmin hadisələrə şahidlik edən, daha doğrusu, birbaşa iştirakçısı olan insanlarla söhbət etdik. Nəvəsini parkda gəzdirən Gülçöhrə Əhmədova maraqlı əhvalat söylədi: "Nənəm və babam bu parkın qurucularından olublar. Zinaida nənəm danışırdı ki, 40-cı illərdə buralar düzəngah bir yer idi, qışda soyuqdan, yayda istidən dayanmaq olmurdu. Bir gün qərara gəliblər ki, burada ağac əksinlər, bağ salsınlar. Həm küləyin qarşısı bir az alınar, həm də yayda oturmaq, dincəlmək üçün bir yer olar. Beləliklə, bu əraziyə ilk ağacı nənəmlə babam əkib. Bunu görən qonşular, ətrafda yaşayan sakinlər də onlara qoşulublar". Nənə-babasından qürurla danışan Gülçöhrə xanım onu da bildirdi ki, Neftçilər parkı onun üçün doğma, əzizdir: "Burada nənəmin, babamın əl izləri var. İnanıram ki, gördüyünüz bu qocaman ağacları mənim doğmalarım əkib. Hərdən o ağacların gövdəsini qucaqlayıram, sığallayıram, üzümü söykəyirəm. Həmin anlarda mənə elə gəlir ki, nənəmin və babamın əllərinin istisini hiss edirəm".

Bəli, Zinaida nənənin və Əhməd babanın təşəbbüsü və iştirakı ilə təməli qoyulan bu park çox keçməyib ki, Qaraçuxur əhalisinin, "Qum adası" Neft-Qazçıxarma İdarəsində (NQÇİ) işləyən neftçilərin istirahət yerinə çevrilib. Dövlət də öz qayğısını əsirgəməyib, burada hər cür şəraitin yaradılmasına yardımçı olub. Amma SSRİ dağılan kimi, park da dağılıb, necə deyərlər, qara günləri başlayib, əldən-ələ keçib. Vaxtilə "Qum adası" NQÇİ-nin balansında olan parkı az sonra Qurban Abbasov adına Mədəniyyət Sarayının tabeliyinə keçiriblər. Daha sonra Suraxanı Rayon İcra Hakimiyyətinin balansına verilib və bununla da parkın üzünə gün doğub. Uzun müddət baxımsız qalmış park yeni görkəm almağa başlayıb. Az qala zibilliyə çevrilən park büs-bütün yenidən qurulub. Prezident İlham Əliyev və Birinci Vitse-prezident Mehriban xanım Əliyeva 2019-cu il aprelin 18-də parka gəlib buradakı şəraitlə tanış olublar. Parkın mərkəzində ucaldılmış Milli Qəhrəman Cavanşir Rəhimovun 1999-cu ildə quraşdırılmış büstü dövlət başçısının xüsusi diqqətini çəkib. Prezident Milli Qəhrəmanın ruhuna ehtiramını bildirərək büstün önünə çiçək dəstələri düzüb.

Yeri gəlmişkən qeyd edək ki, Vətən müharibəsinin 4-cü ildönümünün qeyd olunduğu bu günlər hər bir şəhidimizin məzarı belə ehtiram və diqqətin yeganə ünvanıdır.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# COP sədrlikləri "Rio üçlüyü" təşəbbüsünə start verir



**COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev Azərbaycan, Kolumbiya və Səudiyyə Ərəbistanı Krallığı hökumətlərinin yeni tərəfdaşlığı çərçivəsində həyata keçiriləcək "Rio üçlüyü" təşəbbüsünün rəsmi açılışı üçün Rio Konvensiyasının gələcək sədrləri ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu unikal əməkdaşlığın məqsədi Azərbaycandan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası, Kolumbiyadan BMT-nin "Bioloji müxtəliflik haqqında" konvensiyası və Səudiyyə Ərəbistanı Krallığından BMT-nin "Səhralaşma ilə mübarizə haqqında" konvensiyasını təmsil edən üç yeni COP sədrliyinin səylərini koordinasiya etməklə, qlobal dayanıqlılıq təşəbbüslərini gücləndirməkdir.

Hər üç ölkəni təxirəsalınmaz və əlaqələndirilmiş fəaliyyətə start vermək üçün öz COP sədrliklərindən istifadə etmək əzmi birləşdirir. Onlar beynəlxalq ictimaiyyəti həm qarşıdan gələn COP29 tədbirində, həm də ondan sonra əməkdaşlıq üçün uzunmüddətli platforma kimi xidmət göstərəcək bu təşəbbüsə qoşulmağa çağırırlar.

Açılış hökumətlər, çoxtərəfli təşkilatlar və vətəndaş cəmiyyətini təmsil edən müxtəlif maraqlı tərəfləri bir araya gətirməklə yanaşı, bu mühüm qlobal prioritetlər sahəsində əməkdaşlıqla bağlı mövcud olan problem və imkanları ön plana çıxarıb.

Görüş zamanı həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin nümayəndələri konvensiyalararası əməkdaşlığın qlobal dayanıqlılıq üzrə effektiv həll variantlarını necə təmin edə biləcəyi xüsusunda fikirlər irəli sürüb və öz perspektivlərini bölüşüblər.

COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev qeyd edib: "Bizim məqsədimiz hər üç Rio konvensiyası üzrə əməkdaşlığı gücləndirməklə sinerji yaratmaq, səmərəliliyi artırmaq və həm insanlara, həm də planetə fayda verəcək konkret nəticələri təmin etməkdir. Bu yanaşma onu göstərir ki, hər bir konvensiyanın məqsədi bir-biri ilə sıx əlaqəlidir və bir sahədə əldə olunan irəliləyiş digərlərində də irəliləyişin əldə olunmasına təkan verə bilər."

"Rio üçlüyü" təşəbbüsünün təməlini təşkil edən və üç ölkə tərəfindən qəbul edilmiş Birgə Bəyannamə iqlim dəyişməsi, biomüxtəlifliyin itirilməsi və səhralaşma kimi bir-biri ilə əlaqəli problemlərin həlli üçün praktiki və koordinasiyalı fəaliyyətlərin vacibliyini vurğulamaqla yanaşı, hökumətlər, çoxtərəfli qurumlar və vətəndaş cəmiyyəti arasında daha güclü tərəfdaşlığa çağırır. Muxtar Babayev deyib: "Bu təşəbbüs planetimizin ən aktual ekoloji problemləri üçün inteqrasiya olunmuş və davamlı həllərin hazırlanması baxımından mühüm fürsətdir. Biz beynəlxalq ictimaiyyəti hamı üçün daha dayanıqlı gələcək qurmaq naminə birləşməyə və çiyin-çiyinə çalışmağa çağırırıq".

# Meksika televiziyasında Azərbaycanın COP29-a evsahibliyindən bəhs edilib

**Azərbaycanın Meksikadakı səfiri Məmməd Talıbov "Change Tv" kanalında aparıcı Aribel Kontrerasın "Eco Internacional" verilişinə ölkəmizin enerji təhlükəsizliyində mühüm rolu və COP29-a evsahibliyi mövzusunda müsahibə verib. AZƏRTAC xəbər verir ki, diplomat əvvəlcə tamaşaçıları müsəlman şərqində ilk demokratik respublika, Şərqdə ilk dəfə qadınlara bərabər hüquqlar verən Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi barədə məlumatlandırıb.**



Ölkəmizin zəngin müstəqillik tarixinə toxunan səfir xalqımızın və ölkəmizin üzləşdiyi çətinliklərdən və çağırışlardan da söz açıb. Bu xüsusda Azərbaycanın çətin vaxtlarında hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin dövlətçiliyimizin qorunmasındakı misilsiz xidmətlərindən danışıb, bununla Azərbaycanın müstəqillik tarixində yeni bir dövrün başladığını bildirib.

Müsahibəsində ölkəmizin beynəlxalq arenada artan roluna toxunan diplomat son illərdə Azərbaycanın evsahibliyi etdiyi mötəbər tədbirlərdən, beynəlxalq təşkilatlar çərçivəsində aktiv fəaliyyətindən bəhs edib. Bu xüsusda Azərbaycanın BMT TŞ-yə qeyri-daimi üzv seçildiyini, təşkilatın canlandırılması istiqamətində çoxsaylı təşəbbüslər irəli sürdüyünü, ötən müddət ərzində Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, bu il isə "Formula-1" Azərbaycan Qran-prisi kimi mötəbər tədbirlərə evsahibliyi etdiyini, habelə dünyada ən vacib qlobal problemlərdən biri olan iqlim dəyişikliyi mövzusuna həsr olunmuş COP29 tədbirinin Azərbaycanda keçiriləcək mühüm tədbirlərdən olduğunu diqqətə çatdırıb. Səfir Azərbaycanın evsahibliyinin ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədəki mühüm rolunun bariz nümunəsi olduğunu vurğulayıb. Habelə COP29-a hazırlıq prosesi, ölkəmiz tərəfindən atılan mühüm addımlar barədə izləyiciləri məlumatlandırıb.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinin vacib təminatçısı kimi rolu barədə aparıcının sualını cavablandıran diplomat Azərbaycanın neft və qaz strategiyası istiqamətində atdığı mühüm addımlardan danışaraq mühüm infrastruktur rolunu oynayan dünya miqyaslı layihələr olan boru kəmərləri, habelə ölkəmizin neft və qaz gəlirlərini qeyri-neft sektorunun inkişafına yönəldən iqtisadi şaxələndirmə strategiyası barədə ətraflı məlumat verib.

Müsahibədə, həmçinin Ermənistan-Azərbaycan normallaşma prosesi barədə aparıcının sualını cavablandıran diplomat 30 illik işğalın başa çatdığını, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri aparıldığını, qaçqınların öz yurdlarına qaytarılması üçün Böyük qayıdış proqramının icrasının reallaşdırıldığını, bu gün iki ölkə arasında sülh sazişinin razılaşdırılması istiqamətində, regionda daimi sülhün əldə edilməsi üçün mühüm addımlar atıldığını, Ermənistan tərəfindən ölkənin normativ-hüquqi bazasından Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasının vacibliyini bildirmişdir.

Sonda Azərbaycan-Meksika münasibətlərinə toxunan M.Talıbov iki ölkə arasında turizm, mədəniyyət, təhsil, iqtisadiyyat və bir çox digər sahələr üzrə əməkdaşlıq imkanlarından bəhs edib, bu xüsusda əməkdaşlığın gücləndirilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdırıb.

# Nyu Yorkda COP29-un BICFIT təşəbbüsünə dair müzakirələr baş tutub

**Sentyabrın 27-də Nyu York şəhərində COP29 prezidentliyinin Yüksək Səviyyəli Çempionunun, İqlim Fəaliyyəti üzrə Qlobal Təşəbbüslər Qrupunun və Beynəlxalq Nizami Gəncəvi Mərkəzinin birgə təşəbbüsü ilə İqlim Maliyyəsi, İnvestisiya və Ticarət üzrə Bakı Təşəbbüsündə (BICFIT) özəl sektorun roluna həsr edilmiş yan tədbir təşkil edilib.**





AZƏRTAC-ın məlumatına görə, tədbirin açılış hissəsində COP29 Yüksək Səviyyəli Çempionu Nigar Arpadarai və COP29 Fəaliyyət Gündəliyinin Qlobal Təşəbbüslər Qrupunun həmsədri Elmar Məmmədov COP29 prezidentliyinin BICFIT təşəbbüsünə dair məlumat veriblər. Tədbir çərçivəsində iki panel təşkil edilib.

BMT-nin Ticarət və İnkişaf Təşkilatının (UNCTAD) Nyu York ofisinin rəhbəri Xuan Xose Martinez Badillonun moderatorluğu ilə "İqlim maliyyəsi, investisiya və ticarət neksuku: qlobal, regional və milli platformalar" mövzusunda təşkil edilmiş paneldə BMT-nin Baş Assambleyasının 73-cü prezidenti, Ekvadorun keçmiş xarici işlər naziri Mariya Fernanda Espinoza, Dünya Bankının İqlim Dəyişikliyi Qrupunun meneceri Sudharşan Canaqarajah, Beynəlxalq Valyuta Fondunun keçmiş icraçı direktoru, Misirin keçmiş investisiya naziri, 2030 gündəliyinin maliyyələşdirilməsi üzrə BMT-nin xüsusi elçisi Mahmud Mohieldin və hazırda iqlim üzrə çoxtərəfli inkişaf banklarının əlaqələndiricisi olan Asiya İnkişaf Bankının prezidentinin baş müşaviri Tomoyuki Kimura BICFIT-in vaxtında irəli sürülmüş qlobal səviyyədə böyük ehtiyac duyulan innovativ təşəbbüs olduğunu vurğulayıblar.

Daha sonra BMT-nin İnkişaf Proqramının Dayanıqlı Maliyyə Habının rəhbəri Tomas Beloenin moderatorluğu ilə "İnklüziv iqlim maliyyəsinin təmin edilməsi" mövzusu üzrə ikinci panel təşkil edilib və Avropa Yenidənqurma və İnkişaf Bankının iqlim strategiyası bölməsinin rəhbərin Cyanpyero Naççi, "Fortescue Metals and Fortescue Future Industries" şirkətinin direktorlar şurasının üzvü Jan Baderşnayder, "Veritas Qrup" şirkətinin dayanıqlılıq bölməsinin rəhbəri Lor Mandru, ABŞ-də yerləşən strateji və beynəlxalq məsələlər üzrə beyin mərkəzinin direktoru Noam Unger və "Bil and Melinda Qeyts" fondunun nümayəndəsi Mat Eldriq iqlim maliyyəsində innovativ yanaşmaların müəyyən edilməsində və qlobal dekarbonizasiya prosesində BICFIT-in mühüm rolundan danışıblar. Qeyd olunub ki, bu təşəbbüs əsasında ilk dəfə iqlim maliyyəsi, investisiya və ticarət bir araya gətirilir və bu COP29 prezidentliyi tərəfindən dünya üçün vacib qlobal irs yaradacaq.

Tədbirin sonunda təşkilatçılar tərəfindən, həmçinin vurğulanıb ki, dünya ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvi hələ XII əsrdə insanlarla təbiət arasında mütləq şəkildə harmoniyanın olmasını, əks təqdirdə isə bəşəriyyətin özünü məhv edəcəyi fikrini öz əsərlərində təbliğ edib. Bu baxımdan təsadüfi deyil ki, Beynəlxalq Nizami Gəncəvi Mərkəzi bu tədbirin həmtəşkilatçısıdır və bu gün Azərbaycan tərəfindən qlobal gündəlik üçün təklif olunan BICFIT təşəbbüsü də məhz bu hədəfə xidmət edir.




# "Xəzər dənizi hər kəsin ortaq sərvətidir"

## Abşeron Milli Parkında "Xəzər festivalı" keçirilib

**Sentyabrın 28-də Abşeron Milli Parkında Ümumdünya Dəniz Günü ilə əlaqədar "Xəzər həftəsi" çərçivəsində "Xəzər festivalı" keçirilib.**







AZƏRTAC xəbər verir ki, festivalda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmiləri, beynəlxalq təşkilatların və səfirliklərin nümayəndələri, milli parkı ziyarət edən turistlər, məktəblilər iştirak ediblər.

Festivalın açılış mərasimində çıxış edən ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov son 20 ildə Xəzər dənizinin hər il öz səviyyəsini itirdiyini bildirib. Qeyd olunub ki, 1995-ci illə müqayisədə Xəzərin səviyyəsində 2,5 metrdən çox azalma müşahidə olunub. Hər il isə 7,5-8 santimetr azalma qeydə alınır. Bu özü ilə birlikdə bir sıra problemlər yaradır. Belə ki, həm su biomüxtəlifliyinin mühafizəsi baxımından, həm sahilboyu ərazilərdə problemlər müşahidə olunur. Azalmanın qarşısının alınması istiqamətində tədbirlərin görülməsi və azalma davamlı olarsa, buna uyğunlaşma tədbirlərinin həyata keçirilməsi ilə bağlı ən müxtəlif müstəvilərdə müzakirələr aparılır. Azərbaycan da həmin müzakirələrin ən aktiv iştirakçılarından biridir.

Xəzərin problemlərinə ictimaiyyətin diqqətinin çəkilməsi məqsədilə keçirilən tədbirlərdən bəhs edən Vüqar Kərimov deyib: "1978-ci ildən etibarən hər il dünyada Ümumdünya Dəniz Günü qeyd olunur. Azərbaycanda da son bir neçə ildir sentyabrın son həftəsi "Xəzər həftəsi" elan edilib. "Xəzər festivalı" da "Xəzər həftəsi" çərçivəsində təşkil olunan və maarifləndirmə xarakteri daşıyan tədbirlər sırasındadır. Məlum olduğu kimi, noyabrda Bakı iqlim dəyişmələrinin yaratdığı problemlərin və onun təsirinin aradan qaldırılması ilə bağlı müzakirələrin aparılacağı baş platforma olacaq. Xəzərin problemləri də COP29-un panellərində müzakirə olunacaq əsas məsələlərdən biridir". FAO-nun Azərbaycandakı nümayəndəsi Muhammad Nasar Hayat dəniz həyatının ətraf mühit üçün əhəmiyyət kəsb etdiyini, Xəzər dənizinin hər kəsin ortaq sərvəti olduğunu bildirib.

Azərbaycanda keçiriləcək COP29 tədbirindən danışan M.N.Hayat fikirlərinə belə davam edib: "Bu il Azərbaycan və bütün dünya üçün çox mühümdür. Belə ki, noyabrda Azərbaycanda COP29 keçiriləcək. Biz artıq torpaq, su və havanın çirklənməsi məsələlərinin müzakirəsi ilə bağlı tez-tez bir araya gəlirik. Müzakirələrin hər kəs üçün faydalı olacağına ümidvaram".

Festivalda iştirakdan məmnun olduğunu bildirən BMT İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsinin müavini Slobodan Tadic BMT-nin İnkişaf Proqramının enerji və ətraf mühit sahələrində son dərəcə fəal olduğunu, milli adaptasiya planlarını dəstəklədiklərini deyib: "Biz ətraf mühit və enerji sahələrini əhatə edən bir çox tədbir keçirmişik. Bu gün burada hər kəs, hətta uşaqlar da sahib olduğumuz təbii resursların varlığını qeyd edir. Xəzər dənizi də həmin resurslardan biridir. Biz görürük ki, burada mühüm dərəcədə anlayış, qətiyyət və stabillik mövcuddur. Bizim bu il də mühüm məqsədlərimiz var. COP29 yalnız Azərbaycan üçün deyil, bütün qlobal dünya üçün mühümdür. Bunu dəstəkləməyə, bu tədbirə töhfə verməyə, öz təcrübəmizi bölüşməyə çox şadıq".

Festival çərçivəsində müxtəlif qurumların nümayəndələrinin, mütəxəssislərin iştirakı ilə Xəzər dənizinə həsr olunan "dəyirmi masa" keçirilib.

Gənc rəssamlar Xəzər dənizi ilə bağlı rəsmlər çəkiblər. Parkı ziyarət edən turistlər festivalda təşkil olunan maarifləndirici guşələrlə yaxın tanış olub, gənc rəssamların stendlərini izləyiblər.

Festivalda həmçinin veloyürüş keçirilib, yoqa, canlı musiqi, uşaqlar üçün Xəzərin ekosistemi ilə bağlı təlimlər təşkil olunub.

# COP29 Azərbaycan Əməliyyat Şirkəti Nyu York "İqlim həftəsi"ndə iştirak edir

**COP29 Azərbaycan Əməliyyat Şirkətinin nümayəndə heyəti BMT Baş Assambleyasının 79-cu sessiyasında və Nyu York "İqlim həftəsi"ndə iştirak etmək məqsədilə Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərində səfərdədir. Səfər çərçivəsində sentyabrın 26-da COP29 Azərbaycan ƏŞ tərəfindən COP29-a hazırlıq istiqamətində təşkilati və əməliyyat məsələlərinə dair üzv dövlətlərin nümayəndələri üçün brifinq təşkil edilib.**




AZƏRTAC xəbər verir ki, noyabrda Bakıda keçiriləcək COP29 konfransına intensiv hazırlıq istiqamətində icra edilmiş və planlaşdırılan işlər üzrə məlumatlandırılmanın təmin edilməsi məqsədilə təşkil edilən tədbirdə BMT-nin bir sıra üzv ölkələrinin nümayəndə heyətləri iştirak ediblər.

Brifinqdə geniş təqdimatla çıxış edən COP29 Azərbaycan ƏŞ-nin İdarə Heyətinin sədri və əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova COP prosesinin təqviminə daxil edilən başlıca tədbirlər, COP29-un tematik gündəliyi, o cümlədən iqlim fəaliyyəti üzrə dünya liderlərinin sammiti barədə qısa məlumat verərək tədbir məkanı olan Bakı Stadionunda icra olunan işlərə toxunub. Əməliyyatların bütün mərhələlərində dayanıqlılıq prinsiplərinin üstün tutulmasını xüsusilə vurğulayan N.Carçalova tədbir məkanında dayanıqlılıq, əlçatanlıq və inklüzivlik tələblərinə tam riayət edildiyini bildirib, stadionda dayanıqlı əməliyyatların təmin edilməsi məqsədilə əlçatan və inklüziv mühitin yaradılması üçün atılan addımları diqqətə çatdırıb, eləcə də ƏŞ-nin əsas dayanıqlılıq hədəf və öhdəlikləri haqda bəhs edib.

Brifinqdə çıxış edən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Konfrans işləri şöbəsinin direktoru Vasim Mir COP29 konfransının keçirilməsi üçün tələb olunan tədbir məkanının hazırlanması və əməliyyatların qurulması prosesini yüksək qiymətləndirib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Hökumətlərarası dəstək və kollektiv tərəqqi şöbəsinin direktoru Sesilya Kinutia Njenqa COP29 iqlim fəaliyyəti üzrə dünya liderlərinin sammitinin proqramı və milli bəyanatlar üçün ölkələr tərəfindən müraciət prosesi barədə danışıb. Daha sonra çıxış edən COP29 Azərbaycan ƏŞ-nin Koordinasiya Şurasının üzvləri Şəhla Abbəkirova və İsmayıl İsayev COP29 zamanı müsbət ziyarətçi təcrübəsi, qeydiyyat və akkreditasiya məsələləri, xüsusi COP29 vizası, media xidmətləri, nəqliyyat sxemləri kimi mövzular ətrafında iştirakçıları məlumatlandırıblar. Bununla yanaşı, COP29-un ilk günlərində baş tutacaq iqlim fəaliyyəti üzrə dünya liderlərinin sammiti ərzində keçiriləcək əsas tədbir və görüşlərin təşkilati tərəflərini şərh edən Koordinasiya şurasının üzvləri tədbir zamanı dövlət başçılarının tələb olunan səviyyədə qarşılanması üçün icra edilən işlər və planlar barədə məlumat veriblər.

Brifinq nümayəndə heyətlərini maraqlandıran suallar ətrafında müzakirələrlə davam edib.

# COP29-a evsahibliyi Azərbaycanın "yaşıl gündəliyi"ni nümayiş etdirir

**Respublikamızın şəhər və rayonlarının davamlı inkişafının təmin olunması, habelə işğaldan azad edilmiş ərazilərin bərpası, "yaşıl enerji"yə keçid, gələcək inkişafın təmin olunması, zəruri infrastrukturun yaradılması, ekoloji təhlükəsiz mühitin təmin edilməsi Azərbaycanın dövlət siyasətinin əsasını təşkil edir.**

Ölkəmizin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafının milli prioritetlərindən biri də məhz "Təmiz ətraf mühitə və yaşıl inkişafa malik ölkə" olmasına çalışmaqdır.

Məlum olduğu kimi, 2023-cü il dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü il üçün COP29-a ev sahibi kimi müəyyənləşdirib və 200-ə yaxın ölkənin yekdil qərarı ilə Azərbaycan BMT-nin İqlim Dəyişikliyi Konfransına ev sahibi seçilib. Enerji keçidi və enerji səmərəliliyinin ölkələrin siyasi və iqtisadi gündəliyinin prioritet məsələsinə çevrildiyi bir məqamda bu, çox mühüm əhəmiyyət kəsb edir. Təbii ki, mötəbər tədbirə evsahibliyi çox məsuliyyətli bir işdir və qarşıya bir sıra mühüm vəzifələr qoyur.

Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də təsadüfi deyildir. Bu, ölkəmizdə ESC (Avropa Həmrəylik Korpusu) prinsiplərinin - ətraf mühitin qorunması, sosial məsuliyyət və şəffaf idarəetməyə keçidin diqqətdə saxlanıldığını bir daha sübut etməklə bərabər, COP29 kimi mötəbər tədbirə məsuliyyətlə hazırlaşmağımızı göz önündə sərgiləyir.

Hazırlıq məqsədilə COP29, Kioto Protokolunun tərəflər görüşünün 19-cu sessiyasının və Paris Sazişinin tərəflər görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar olaraq 2024-cü il yanvarın 13-də dövlətimizin başçısının sərəncamı ilə Təşkilat Komitəsi yaradılıb. COP29 Təşkilat Komitəsinin sədri Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, COP29-un müəyyən edilmiş sədri, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, COP29-un baş danışıqçısı isə xarici işlər nazirinin müavini Yalçın Rəfiyevdir. Komitənin tərkibində qadınlar və vətəndaş cəmiyyətinin üzvləri geniş şəkildə təmsil olunurlar. Təşkilat Komitəsinin indiyədək 6 iclası keçirilib və bu iclaslarda COP29 tədbirlər planının icrası və digər aidiyyəti məsələlər müzakirə edilib.

Şübhəsiz ki, Azərbaycanın dünyanın ən böyük və mötəbər tədbirlərindən biri olan COP29-a evsahibliyi etməsi Prezident İlham Əliyevin növbəti qələbəsi, uzaqgörən siyasətinin nəticəsidir. Bu, ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi və Təhlükəsizlik Şurasına üzvlükdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Bu, həmçinin son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə də tutarlı cavabdır.

Azərbaycanın COP29-a ev sahibi seçilməsi barədə qərar bəzilərini nədənsə qıcıqlandırdı. Xeyli sayda vətəndaş cəmiyyəti və media təşkilatları neft ölkəsi olduğumuz halda iqlim dəyişikliyi, ekologiya ilə bağlı böyük beynəlxalq tədbirə evsahibliyi edəcəyimiz üçün bizə qarşı təzyiq göstərməyə başladı.

Prezident İlham Əliyev cari ilin mart ayında Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları çərçivəsində çıxışında bununla bağlı fikirlərini açıq ifadə edi: "Azərbaycana COP29-a sahiblik edən ölkə olmaq şərəfi nəsib olmuşdur. Keçən ilin dekabrında qərar qəbul olunan kimi biz dərhal, yalnız bir səbəbdən müxtəlif QHT-lər və media təşkilatlarının hücumuna məruz qaldıq. Çünki bizim neftimiz var və bu, bizim ən böyük nöqsanımız hesab olunmuşdur. Baxmayaraq ki, qeyd etdiyim kimi bu, qüsur deyil, Allahdan bir hədiyyədir. Lakin bizə hücum edərək dedilər ki, necə ola bilər qazıntı yanacağı ilə zəngin olan bir ölkə COP-a evsahibliyi edə bilər".

Azərbaycanın neftinin və qazının kifayət qədər olduğunu qeyd edən Prezident İlham Əliyev ölkəmizin növbəti 100 il ərzində bərpaolunan enerji resursları olmadan yaşaya biləcəyini də bildirib. Dövlətimizin başçısı iqlim dəyişikliyi ilə bağlı olan qlobal tədbirə evsahibliyi etmək istəyimizin iradəmizi nümayiş etdirdiyini və buna görə Azərbaycana hücum və təzyiq göstərmək əvəzinə təqdir etmək lazım olduğunu vurğulayıb: "Biz heç bir yanlış iş görməmişik, lakin qərar qəbul olunan kimi bizə qarşı dərhal əlaqələndirilmiş, konsolidasiya olunmuş və çox ədalətsiz hücum edildi".

Prezident İlham Əliyev əvvəllər də Azərbaycana qarşı çoxlu hücumların olduğunu xatırladaraq, buna adət etdiyimizi və özümüzü müdafiəyə hazır olduğumuzu da diqqətə çatdırıb. Dövlətimizin başçısı təzyiq göstərənlərə cavabında vurğulayıb ki, COP29-un Azərbaycanda təşkil edilməsi qərarı beynəlxalq birliyin ölkəmizə hörmətinin əlamətidir və bu mötəbər tədbirə evsahibliyi etmək istəyi "yaşıl gündəliy"imizi nümayiş etdirir.

Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulması bir çox mətləbləri ortaya qoyur. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40 faiz azaltmaqdır.

Azərbaycan Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Son onilliklərdə qlobal iqlim dəyişikliyi digər ekoloji problemlər arasında ön plana çıxıb və dünyanın nəhəng dövlətlərini, beynəlxalq nüfuzlu təşkilatlarını narahat etməyə başlayıb. Məlum olduğu kimi, ekoloji təmizlik, "yaşıl dünya" anlayışı davamlı inkişaf konsepsiyası ilə sıx bağlıdır.

Antropogen mənşəli istixana qazları - karbon qazı (CO2), metan (CH4), azot oksidi (N2O), perfluorokarbonlar (PFCs), hidrofluorokarbonlar (HFC), kükürd heksaflorid (SF6) və azot triflorid (NF3) iqlim dəyişikliyi yaradan, təbiətə ciddi zərbə vuran səbəblərdir. Maraqlıdır ki, bütün istixana qazlarından qlobal istiləşmənin əsas mənbəyi (emissiyaların 60 faizindən çoxu) karbon qazıdır. Statistikaya görə, 2018-ci ildə Azərbaycanda havaya buraxılan karbon dioksidin miqdarı 34,704 milyon ton, adambaşına düşən həcmi 3,5 ton olub. Havaya buraxılan karbon dioksidin həcminə görə dünyada orta göstəricinin (4,968 ton) illik miqdarından daha aşağı səviyyədə qərarlaşan ölkəmiz bu baxımdan Rusiya, Ukrayna, Belarus, Qazaxıstan, Özbəkistanla müqayisədə daha əlverişli mövqeyə malikdir.

İstilik effektinin əmələ gəlməsində səhralaşma, təbii qazların yaranması və digər amillərlə yanaşı, sənaye müəssisələrinin ətraf mühitə tullantılar buraxmağı xüsusi əhəmiyyət daşıyır. Hazırda fəaliyyət göstərən yeni sənaye müəssisələrinin tullantıların düzgün idarə olunması məqsədilə yeni texnologiyalar tətbiq etməsi artıq öz müsbət nəticəsini verməkdədir.

Paytaxt Bakının üzləşdiyi problemlərdən biri də nəqliyyat vasitələrinin həddindən artıq çox olması və tıxacların yaranmasıdır. Tıxac zamanı havaya zəhərli maddələr ifraz olunur. Alternativ yolların çəkilməsi və mövcud yolların genişləndirilməsi problemdən çıxış yolu ola bilər.

Ölkəmizdə xeyli sayda yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsi də ekoloji tarazlığın qorunmasına xüsusi töhfə verir. Respublika üzrə bütün magistral yolların kənarlarında yaşıllıq zolağı salınır, mütəmadi olaraq ağacəkmə aksiyaları keçirilir. Tanınmış ədib, mütəfəkkir və musiqiçilərin ad günü və yubiley günlərində saysız-hesabsız ağacəkmə aksiyalarının təşkili zamanı ağac kolları əkilir, yaşıllaşdırmanın həcmi artırılır.

Bir sözlə, Azərbaycan, həmçinin beynəlxalq birliyin etibarlı tərəfdaşı kimi iqlim dəyişikliyinin nəticələri ilə mübarizəyə dəyərli töhfəsini verir.

Son illərdə Azərbaycan Prezidentinin tapşırığı ilə Bakı şəhərinin müxtəlif guşələrində geniş abadlıq-quruculuq işləri aparılır, yeni yaşıllıq zolaqları salınır, məhəllədaxili asfalt yolları təzələnir. Ölkədə fəaliyyət göstərən ictimai təşkilatlar da yaşayış məhəllələrinin abadlaşdırılmasında fəal iştirak edirlər. Bakı şəhərinin müxtəlif rayonlarında ayrı-ayrı məhəllələrin abadlaşdırılmasında fəal iştirak edən ictimai təşkilatlardan biri də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi "IDEA" İctimai Birliyinin uğurla həyata keçirdiyi layihələrdir. Bunlardan küçə və parkların, məhəllə və binaların abadlaşdırılması, həyətlərin yenidən qurulması, yeni infrastrukturların yaradılması, yaşıllıqların salınması məqsədilə həyata keçirilən "Abad həyət" layihəsi xüsusilə diqqətəlayiqdir. Bundan başqa, Gənclər Fondunun maliyyə dəstəyi və "ASAN Könüllüləri" Təşkilatının təşkilatçılığı ilə "Yaşıl gələcək", "Xəzəri qoruyaq-2024" mövzusundakı layihələr ekoloji tarazlığın qorunmasına xidmət edir.

Ümumdünya Vəhşi Təbiət Fondunun (WWF) həyata keçirdiyi "Yer saatı" adlı beynəlxalq tədbir hər il martın son şənbə günündə bizim ölkəmizdə də qeyd edilir. "Yer saatı" təbiətə qayğıkeş münasibətin, planetimizin məhdud resurslarına qayğının rəmzi olaraq bəşəriyyət tarixində ən kütləvi ictimai aksiyadır. Aksiya çərçivəsində insanlar iqlim dəyişikliyi probleminə diqqəti artırmaq üçün bir saatlığa işığı və həmin vaxt vacib olmayan digər elektrik cihazlarını söndürür. "Yer saatı" zamanı aksiyada iştirak edən böyük şəhərlərin rəmzi olan binaların da işıqları söndürülür.

2011-ci il martın 26-da Bakının rəmzi olan Qız qalasında və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda bir saat ərzində işıqlar söndürülüb və beləliklə, Azərbaycan bu qlobal kampaniyanı dəstəkləyən ölkələrin sırasına daxil olub. Qeyd edək ki, ilk belə aksiya ilk dəfə 2007-ci ildə Sidneydə keçirilib.

Prezident İlham Əliyevin VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışında dediyi kimi, COP29-un Azərbaycanda keçirilməsi bizim beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir. Ölkəmizin xeyli sayda qonağın iştirak edəcəyi bu mötəbər tədbirə evsahibliyi etməsi Vətən müharibəsində zəfərindən sonra yeni dövrə qədəm qoyan Azərbaycanın tarixində çox mühüm rol oynayacaq və təbii ki, özü ilə bərabər yeniliklər gətirəcək. Ölkəmizin dünyada nüfuzu daha da artacaq.

Qlobal iqlim dəyişikliyi və beynəlxalq sülhə aid məsələlərin bir-biri ilə sıx bağlı olduğunu nəzərə alsaq, COP29-un qlobal problemlərin həllinə töhfə verəcəyi şəksizdir. COP29-un alternativ enerjinin yüksəlişinə təkan verməsi bərabərində yeniliklərə yol açacaq.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı - COP Konvensiyanın ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edirlər. COP-un ilk toplantısı 1995-ci ildə Almaniyanın paytaxtı Berlində keçirilib.

*AZƏRTAC*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Bakıda növbəti "Rebuild Karabakh" sərgisi təşkil ediləcək

**Oktyabrın 15-17-də "Bakı Ekspo Mərkəzi"ndə 4-cü Azərbaycan Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı Sərgisi ("Rebuild Karabakh 2024") keçiriləcək.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin məhsul və xidmətlərinin tanıdılmasına, satış imkanlarını genişləndirməsinə və yeni biznes əlaqələri qurmasına dəstək məqsədilə bu il də KOBİA xüsusi stendlə təmsil olunacaq.

## DSMF "İlin İnnovativ Texnologiya Qurumu 2024" ali mükafatına layiq görülüb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu (DSMF) mənzilqərargahı Malayziyada yerləşən "The MORS Group" beynəlxalq qurumunun təşkil etdiyi "The Asia Corporate Excellence & Sustainability Awards" (ACES 2024) beynəlxalq müsabiqəsində iştirak edərək növbəti uğuruna imza atıb.**




DSMF müsabiqənin "Innovative Tech Companies of the Year 2024" kateqoriyası üzrə "İlin İnnovativ Texnologiya Qurumu 2024" ali mükafatına layiq görülüb.

Müsabiqədə Çin, Yaponiya, Filippin, Malayziya, Koreya, Sinqapur, Tailand və digər Asiya ölkələrini təmsil edən maliyyə-kredit, bank, pensiya, sığorta və investisiya qurumları, eləcə də regional və beynəlxalq maliyyə korporasiyaları olmaqla 700-dək namizəd iştirak edib.

2014-cü ildən etibarən təşkil edilən "ACES" beynəlxalq müsabiqəsi hər il beynəlxalq platformada sənaye mərkəzlərinin iqtisadi və sosial inkişafını, liderlik bacarıqlarını, müasir texnologiyalardan istifadə potensialı və davamlı innovasiyalarını təşviq etmək məqsədilə keçirilir.

Qeyd edək ki, bu mükafat DSMF-nin layiq görüldüyü bu il ərzində 23-cü, son 3 ildə və cari ilin ötən dövründə isə 46-cı beynəlxalq mükafatdır.

## Gələn il əməkhaqqı və sosial ödənişlərdə gözlənilən artımlardan 2 milyondan artıq vətəndaş bəhrələnəcək

**Azərbaycan dövlətinin apardığı sosial-iqtisadi siyasətdə vətəndaşların rifahının yaxşılaşdırılmasının əsas hədəf olması yeni fakt deyil. İndiyədək bu istiqamətdə görülən tədbirlərin, qəbul və icra edilən sənədlərin ölkəmizdə vətəndaşın sosial güvənliyinin təminatına olan münasibətin həssaslığını sübut edir.**

Bu baxımdan sentyabrın 26-da keçirilən iqtisadi müşavirədə dövlət başçısının gələn il də əhalinin sosial müdafiəsinin yaxşılaşdırılacağını bəyan etməsi gözlənilən idi: "Mən artıq bəyan etdim ki, gələn il minimum əməkhaqqı və minimum pensiya artırılacaq, baxmayaraq ki, inflyasiya çox aşağı səviyyədədir, baxmayaraq ki, ölkə qarşısında duran vəzifələr böyük maliyyə vəsaiti tələb edir, ilk növbədə hərbi, hərbi sənaye kompleksinin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı. Bütün bunlara baxmayaraq, biz həssas təbəqə sayılan vətəndaşlarımızın da rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik".

Sentyabrın 24-də isə Nazirlər Kabinetində növbəti ilin dövlət büdcəsinin və icmal büdcəsinin layihələri müzakirə olunmuşdir. Həmin tədbirdə 2025-ci ilin dövlət büdcəsi və icmal büdcəsinin layihələri ilə yanaşı, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, gələn il və sonrakı üç il üzrə iqtisadi, sosial inkişaf konsepsiyası, həmçinin proqnoz göstəriciləri ətraflı təhlil edilmişdir.

Baş nazir Əli Əsədov da müzakirə zamanı sosial sahəyə xüsusi diqqət çəkmişdir. Bildirmişdir ki, 2025-ci ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaq. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında qalmağa davam edəcək. Bütövlükdə bütün istiqamətlər üzrə sosialyönlü xərclər dövlət büdcəsi xərclərinin 43 faizini təşkil edəcək. Gələn il əməkhaqqı və sosial ödənişlərdə gözlənilən artımlardan 2 milyondan artıq vətəndaş bəhrələnəcək. Müasir innovativ təhsilin inkişafı və əhalinin keyfiyyətli tibbi xidmətlərə çıxışının yaxşılaşdırılması üçün növbəti ilin dövlət büdcəsindən daha böyük vəsait ayrılacaq.



Prezident İlham Əliyev 7-ci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində dövlətin sosial sahədə gördüyü bu işlərə qiymət verərək demişdir: "Əlbəttə, bizim gələcək planlarımızı həll etmək, o cümlədən vətəndaşların sosial rifahını yaxşılaşdırmaq üçün iqtisadiyyat daim inkişaf etməlidir. Çünki biz 2018-ci ildən bu yana dörd sosial islahatlar paketi həyata keçirmişik. Bu sosial islahatlar paketinin məbləği 7 milyard manatdır və bu, 4 milyon insanı əhatə edir. Son beş il ərzində Azərbaycanda minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artmışdır. Onu da bildirməliyəm, artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaqdır".

Artım isə elə bu il də kifayət qədər yüksəkdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 8,3 faiz artaraq 1002,4 manat olmuşdur. Əməkhaqqı neft-qaz sektorunda 3782,9, qeyri-neft-qaz sektorunda 950,6 manata çatmışdır. Həmin dövr dövlət müəssisələrində çalışan işçilərin əməkhaqqı 958,7, özəl müəssisələrdə isə 1048,5 manat olmuşdur. Ümumilikdə vətəndaşların nominal gəlirlərinə gəldikdə, cari ilin yanvar-avqust aylarında bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 6,1 faiz artaraq 53 milyard 947,2 milyon manat olmuşdur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Azərbaycan və Özbəkistan polipropilen istehsalı üzrə birgə müəssisə yarada bilər

**Azərbaycan və Özbəkistan polipropilen istehsalı üzrə birgə müəssisənin yaradılması imkanlarını müzakirə edir. Bu barədə "Trend"ə məlumatlı mənbə bildirib.**

"Xarəzm texnoparkında polipropilen və yüksək sıxlıqlı polietilen istehsalı üzrə "SOCAR Polymer" ilə birgə müəssisənin yaradılması perspektivləri var", - məlumatlı mənbə deyib. Agentliyin müsahibi bildirib ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə birgə metanol, butandiol, polioksimetilen və digər kimyəvi məhsullardan propilen istehsalı üzrə layihələr hazırlanır.

Qeyd edək ki, Özbəkistanda kimyəvi məhsul istehsalı üzrə 21 müəssisə fəaliyyət göstərir. Onların birgə istehsal həcminin dəyəri 1,5 milyard dollardan çoxdur. İxracın dəyəri 500 milyon dollardır. Azərbaycanda isə 100-dən çox kimya müəssisəsi, o cümlədən Sumqayıt Kimya Sənaye Parkı fəaliyyət göstərir.

## Rusiya ölkəmizə süd məhsullarının ixracını artırmaq istəyir

**Rusiya Azərbaycana süd məhsullarının ixracını yaxın illərdə əhəmiyyətli dərəcədə - 2-2,5 dəfə artmaq potensialına malikdir.**



"Trend"in "Aqroeksport" mərkəzinin məlumatlarına istinadən verdiyi xəbərə görə, Bakıda keçirilən biznes missiyası çərçivəsində "Süd məhsullarının tədarükünün artırılması potensialı" mövzusunda təşkil olunan "dəyirmi masa"nın nəticələrinə əsasən, Rusiyadan Azərbaycana süd məhsullarının ixracının əhəmiyyətli dərəcədə artacağı proqnozlaşdırılır. Bu təşəbbüslə çıxış edən Rusiya ixracatçı şirkətləri tədarük həcminin 2-2,5 dəfə artmasını gözləyir.

Xatırladaq ki, 2023-cü ildə Rusiya Azərbaycana 17 min ton süd məhsulları ixrac edib. Təchizatçı şirkətlərin nümayəndələrinin qeyd etdiklərinə görə, yaxın iki il ərzində süd məhsullarının ixracının 2-2,5 dəfə artacağına dair bütün imkanlar mövcuddur.




## Ölkəmizin köhnə tərəfdaşı MOL şirkəti ilə yeni anlaşma memorandumu imzalanıb

**Azərbaycan-Macarıstan iqtisadi əlaqələri getdikcə genişlənir və bu, özünü enerji sahəsində daha aydın göstərir. Macarıstanın tanınmış MOL şirkəti bu işə xüsusilə sanballı töhfələr verir.**

Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafı istiqamətində atılan son addımlardan bəhs etməzdən öncə bir neçə il əvvələ qayıdaq. Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" və növbəti il yanvarın 30-da Budapeştdə Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında təbii qaz əməkdaşlığı haqqında anlaşma memorandumu imzalanıb. 2023-cü il aprelin 25-də isə Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) ilə SOCAR (Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti) arasında əməkdaşlığın təşviqi ilə bağlı anlaşma memorandumu", imzalanıb. Bu sənəd Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

Məlum olduğu kimi, Azərbaycan artıq pan-Avropa qaz təchizatçısına çevrilib. Təsadüfi deyil ki, bu gün bizdən mavi yanacaq alan ölkələrdən biri də məhz Macarıstandır. Bu ölkə Avropanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin mühüm rolunu daim təqdir edir. Dost ölkə olaraq "Cənub qaz dəhlizi" layihəsini dəstəkləyir və Məşvərət Şurasının hər il Bakıda keçirilən iclaslarında yüksək səviyyədə iştirak edir.

Hazırda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlığa dair sazişlə əlaqədar bu ölkələr arasında "yaşıl enerji"nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi ilə bağlı layihənin icrası istiqamətində səylər uğurla davam etdirilir. Bu layihənin icrası region və Avropa bazarları arasında elektrik enerjisinin ixracı imkanlarının genişləndirilməsi, eləcə də xüsusən Xəzər dənizinin Azərbaycan sektorundakı böyük külək enerjisi potensialı sayəsində Avropanın enerji təhlükəsizliyinin şaxələndirilməsində mühüm rol oynayacaq.

Ölkəmizdə də yaxşı tanınan MOL şirkətinin timsalında həmçinin neft sahəsində əməkdaşlıq və tərəfdaşlıq davam edir. 2020-ci ilin aprelində "MOL Group" "Azəri-Çıraq-Günəşli" (AÇG) blokunda payın satın alınması üzrə saziş imzalayıb. Elə həmin il MOL AÇG-nin işlənməsi layihəsinə 119,5 milyon dollar məbləğində əsaslı investisiya yatırıb. Məbləğ tam şəkildə "Azəri-Çıraq-Günəşli" blokunun işlənməsinə yönəldilib.

MOL, eləcə də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin 11 səhmdarından biridir və burada 8,9 faiz iştirak payına malikdir.

MOL şirkətinin Azərbaycandakı məqsədi uzunmüddətli perspektivdə konstruktiv və etibarlı tərəfdaş olaraq qalmaqdır. Bunu Bakı Enerji Həftəsi çərçivəsində keçirilən Bakı Enerji Forumunda çıxışı zamanı "Mol Group"nun kəşfiyyat və hasilat üzrə baş vitse-prezidenti Adəm Homonnay da bildirib. Onun sözlərinə görə, AÇG neft-qaz yataqları blokunun işlənilməsi layihəsi MOL-un Azərbaycandakı fəaliyyətində əsas rol oynayır. Adəm Homonnay onu da əlavə edib ki, AÇG-də hasil olunan neft artıq MOL-un Avropada yerləşən zavodlarında emal olunur.

Qeyd edək ki, MOL Macarıstanın mənzil qərargahı Budapeşt şəhərində yerləşən iri neft-qaz şirkətidir. 1991-ci ildə yaradılıb. Şirkət karbohidrogenlərin kəşfiyyatı, hasilatı və nəqli ilə məşğul olur və fəaliyyət göstərdiyi coğrafiya genişdir. Məsələn, 2021-ci ildə MOL-un gündəlik hasilatı 110 min barel neft ekvivalenti təşkil etmişdi. Bunun 32,4 min bareli Macarıstanda, 28,1 min bareli Xorvatiyada, 17 min bareli Azərbaycanda, 13,2 min bareli Böyük Britaniyada, 9,5 min bareli İraqda, 6,9 min bareli Pakistanda, 4,9 min bareli Rusiyada hasil olunmuşdu. Şirkət, eləcə də uzunluğu 5200 kilometridən çox olan magistral qaz kəmərlərini istismar edir.

MOL-un Macarıstanda, Slovakiyada və Rumıniyada onlarla yanacaqdoldurma stansiyası var. Qrupun tərkibinə Macarıstandakı kimya və Avstriyadakı ticarət şirkətləri də daxildir. MOL-un Macarıstan, Slovakiya və Xorvatiyada üç neft emalı və iki neft-kimya zavodu fəaliyyət göstərir.

Ötən ilin sonunda Budapeştdə MOL-un yeni mərkəzinin inzibati binasının (mənzil-qərargahının) istifadəyə verilməsi konsernin həyatında mühüm hadisələrdən biri olub. Cari il yanvarın əvvəlində binanın təntənəli açılış mərasimi keçirilib və Budapeştdəki 9 ofisdən 2500 əməkdaş buraya köçürülüb.

Bu il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasının 30-cu ildönümü münasibətilə Bakıda təşkil olunan tədbir çərçivəsində SOCAR və "MOL Hungarian Oil and Gas" şirkəti arasında "Şamaxı-Qobustan sahəsi üzrə kəşfiyyat, işlənmə və hasilat haqqında" Anlaşma Memorandumu imzalanıb. Anlaşma memorandumuna əsasən, tərəflər Azərbaycanın karbohidrogen hasilatının daha da artırılması istiqamətində əməkdaşlıq edəcəklər.

İndiyədək MOL və SOCAR şirkətləri arasında imzalanan bu və digər sazişlər gələcəkdə əməkdaşlıq və tərəfdaşlığın daha da genişlənəcəyinə, bunun Azərbaycan-Macarıstan iqtisadi əlaqələrinə yeni töhfələr verəcəyinə böyük inam yaradır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## 7 ayda büdcənin icrasında yaranmış profisit ÜDM-in 4,4 faizinə bərabər olub

**2024-cü ilin yanvar-iyul aylarında dövlət büdcəsinin gəlirləri 22 milyard 584,8 milyon manat, xərcləri 19 milyard 458,4 milyon manat təşkil etmiş, büdcənin icrasında yaranmış 3 milyard 126,4 milyon manatlıq profisit ümumi daxili məhsulun 4,4 faizinə bərabər olmuşdur.**

Daxilolmaların 23,3 faizi əlavə dəyər vergisi, 22 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergisi, 5 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilər, 4,7 faizi fiziki şəxslərin gəlir vergisi, 3,7 faizi aksizlər, 1,1 faizi sadələşdirilmiş vergi, 1,7 faizi vergilərin digər növləri, 38,5 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilmişdir.

Büdcə vəsaitlərinin 17,9 faizi müdafiə və milli təhlükəsizlik tədbirlərinin, 21,1 faizi iqtisadi fəaliyyətin, 13,9 faizi ümumi dövlət xidmətlərinin, 12,8 faizi təhsilin, 12,4 faizi sosial müdafiə və sosial təminatın, 7,3 faizi məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının, 5,3 faizi səhiyyənin, 9,3 faizi isə digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir.

Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən, 2024-cü ilin yanvar-avqust aylarında dövlət büdcəsinin gəlirləri 25 milyard 223,4 milyon manat, xərcləri 22 milyard 362,4 milyon manat təşkil etmiş, büdcənin icrasında 2 milyard 861 milyon manatlıq və ya ümumi daxili məhsulun 3,5 faizi qədər profisit yaranmışdır.



## Ödəmə vaxtı keçmiş kreditlərin məbləği azalıb

**2024-cü il avqust ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli əvvəlki ilin eyni dövrü ilə müqayisədə 23,7 faiz artaraq milli valyuta ekvivalentində 27 milyard 268,5 milyon manat təşkil etmişdir.**

Dövlət Statistika Komitəsi Mərkəzi Bankın təqdim etdiyi məlumata əsasən xəbər verir ki, ümumi daxili portfelin 22 milyard 932,1 milyon manatı və ya 84,1 faizi uzunmüddətli kreditlərin payına düşmüşdür. Kreditlərin 94,2 faizi banklar, 5,8 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilmişdir.

Ödəmə vaxtı keçmiş kreditlərin məbləği il ərzində 8,3 faiz azalaraq 453,7 milyon manat olmuş və ümumi kredit portfelinin 1,7 faizini təşkil etmişdir.

## Azərbaycan nefti ucuzlaşıb



**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti ucuzlaşıb.**

Bildirilib ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,08 dollar və ya 1,43 faiz azalaraq 74,35 dollar olub.

Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

Keçmişdən bu günə

# Lahıcdan "Kömürçü"yə...

## 4 nəsildir qalayçılıqla məşğul olan Zahid Eyvazovun 4 övladı da bu sənəti davam etdirir



**Misgərlik sənətinin tərkib hissəsi olan qalayçılıq Dağıstanda, Azərbaycanda Bakı, Quba, Şəki, Gəncə, Naxçıvan, Şamaxı, Şuşa və Lahıcda geniş yayılmışdı. XIX əsrdən başlayaraq İsmayıllı rayonundakı Lahıc kəndi də misgərliyin və qalayçılığın əsas mərkəzinə çevrildi. Lahıc ustalarının mürəkkəb və incə naxışlarla bəzədikləri dolça, satıl, sərnic, güyüm, teşt, məcməyi, sini, aşsüzən, kəfkir, kasa, cam, qazan, çıraq və sair məmulatlar Orta Asiya, Dağıstan, Gürcüstan, İran, Türkiyə və digər yerlərdə də yaxşı tanınmağa başlandı.**

### Heydər Əliyev Fondunun dəstəyi ilə bu sənət dünyada tanıdılır



Təsadüfi deyil ki, Heydər Əliyev Fondunun dəstəyi ilə "Lahıcın misgərlik sənəti" (buraya qalayçılıq da daxildir) 4 dekabr 2015-ci ildə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bu, Azərbaycanın keçmiş dövrlərdən formalaşan mədəni dəyərlərinə verilən qiymətlə yanaşı, bu sənətin qorunması üçün və gələcək nəsillərə çatdırılmasına yeni stimuldur.

Xalq sənətkarlığının dərin və zəngin ənənələrinin mövcud olduğu ölkəmizin bəzi şəhər və rayonlarında qalayçı emalatxanaları və bu sənəti yaşadanlar var. Yəqin ki, bölgələrdə, xüsusən də yay aylarında kəndbəkənd gəzən qalayçıları yaşlı nəsil yaxşı xatırlayır. Bu "səyyar" ustalar bəzən bir gün, iki gün kənddə olar, camaatın nə qədər köhnəlmiş, pas atmış, deşilmiş, sınıq-salxaq qab-qazanı olsa belə götürüb təmizləyib-qalaylayıb yararlı vəziyyətə gətirərdilər.

Əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürülən bu sənət növü Bakıda da varlığını yaşatmaqdadır. Bəlkə də çoxlarınız müşahidə etmisiniz: şəhərin qədimdə Quba meydanı kimi tanınan ərazisində, köhnə Kömürçü bazarının yaxınlığında C.Məmmədquluzadə küçəsində neçə-neçə qalayçı emalatxanası fəaliyyət göstərir. Marağımızı gizlətməyib ərazidə yaxşı tanınan usta Zahidin emalatxanasına dönürük. Bu emalatxanada xalqımızın müəyyən dövr tarixini özündə ehtiva edən neçə-neçə qədim məişət avadanlığı nümunələri ilə tanış oluruq.

Usta Zahid Eyvazov 50 ildən çoxdur bu sənətdədir. Dörd oğlu var - Elşad, Elxan, Orxan, Cəlal. Onlar da boyları qalxandan ataları ilə birlikdə bu emalatxanada qalayçılıqla məşğul olurlar.

Usta Zahid bu sənətə gəlişinin tarixçəsi barədə deyir:

- Mən əslən İsmayıllı rayonunun Lahıc qəsəbəsindənəm. Bizim nəsil, ümumiyyətlə, atam, atamın atası Rahid kişi, onun da atası, babası Məşədi Zahid, eləcə də ulu babası Lahıcda misgərliklə, qalayçılıqla məşğul olublar. Mənim ailəm dördüncü nəsildir ki, bu sənəti davam etdirir. Qədimdə, çox uzağa getməyək, elə sovet dönəmində də lahıclılar müxtəlif rayonlara, kəndlərə gedər, qalayçılıq edərdilər.

Atam Kiçikağa o zaman qardaşları ilə birlikdə Dərbəndin Qasımkənd kəndində misgərliklə, qalayçılıqla məşğul olurdu. Əsasən misdən səhəng və güyüm düzəldib satırdı. Ətraf kəndlərdən camaatın gətirdiyi köhnə, əldən düşmüş güyüm, aşsüzən, kəfkir, kasa, cam, çıraq, iri xeyir-şər qazanları, tiyanları və məişətdə işlənmiş digər köhnə əşyaları naşatır tozu ilə təmizləyib qalaylayırdı, deşilmişləri, yanmışları lehimləyərdi, bir sözlə,



əvvəlki görkəminə salardı. 14 yaşım olardı, Qasımkəndə atamın yanına getdim, işi çox olurdu, bütün günü ona, əmilərimə kömək edirdim, qalayçılıqla məşğul olurdum.

1993-cü ildən Bakıdayam, şəhərə təzə gəlmişdim, dayandığımız bu yerdən keçib Kömürçü bazarına gedirdim. Gördüm, bax, bu durduğumuz yerdən təxminən 10 metr o yana bir qalayçı yanmış köhnə samovarın deşiyini tutmaq üçün ha o tərəf-bu tərəfə çevirir, amma alındıra bilmir. Bir xeyli tamaşa etdikdən sonra yaxınlaşıb inciməsin deyə, xahiş etdim ki, "usta, ver onu mən düzəldim" ... Tərəddüdlə üzümə baxıb əlini samovardan çəkdi. Heç 10-15 dəqiqə çəkmədi, samovarın odduğundakı yanan yeri təmizlədim, yırtığı lehimləyib qaydasına saldım...





Usta ilə ürəyimdən keçən söhbətimiz oldu, təsadüfi tanışlıqla yenidən bu sənətə qayıtdım, elə o vaxtdan, təxminən 32 ildir bu emalatxanada çalışıram. Hələ bu vaxtadək müştəri ilə bir giley-güzarım, gördüyüm işdən narazı qalanı olmayıb.

### Təsadüfi görüş

Söhbətin bu yerində orta yaşlı bir nəfər əlində misdən hazırlanmış köhnə şamdan emalatxananın girişində göründü, salam-kalamdan sonra içəri keçib: "Usta, bu şamdanın bir gözü sıradan çıxıb, heyfim gəlir, qədim əşyaların pərəstişkarıyam, özü də yadigardır. Görün, bunu əmələ gətirmək mümkündürmü".

Usta Zahid şamdanı alıb o tərəf-bu tərəfinə baxdı, "Düzələr" deyib əli ilə oğlu Elşada işarə etdi, "götür düzəlt".

Məqamdan istifadə edib şamdanın sahibi ilə də tanış oluruq: - Azərbaycan Dövlət Tibb Universitetinin Ümumi cərrahiyyə kafedrasının professoru Mübariz Əliyev.

Onun haqqında 2020-ci il Vətən müharibəsinin Zəfər qələbəsindən sonra döyüşçü həkimlər haqqında material toplayanda eşitmişdim, odur ki, ehtimalla soruşdum: "Mənə elə gəlir siz Qarabağ savaşında..."



- Bəli-bəli, Birinci Qarabağ savaşında, həm də 44 günlük Vətən müharibəsinin ilk günündən son gününədək cəbhədə həkim kimi çalışmışam. Səngərlərdə, çadırlarda qeyrətli vətənpərvər əsgərlərin xidmətində olmuşam. Bunu özümə şərəf bilirəm.

Bu an Zahid usta "Bizim qəhrəman əsgərlərin, sizin kimi fədakar insanların qanı-canı bahasına 30 illik erməni işğalından azad edilən Qarabağdakı quruculuq və bərpa işlərində mən də bir sənətkar kimi iştirak edirəm. Ötən ilin əvvəllərində Şuşadakı Yuxarı Gövhər ağa məscidinin minarələrini bərpa etmişəm. Cari ilin əvvəllərində Şuşada bərpa edilən qədim hamamdakı vannaları, abgərdanları mən düzəltmişəm" dedi.

Bu an Elşad əlindəki şamdanı necə düzəldib yaraşığa salmasına atası "rəy" verdikdən sonra Mübariz müəllimə üzünü tutub dedi: "Buyurun, baxın, hazırdır".

### Qalayçı qardaşlar

Mübariz müəllim heyranlıqla şamdana baxa-baxa dilləndi: "Bu şamdan ötən əsrin 60-cı illərindən evimizdədir, Rusiyanın Tula samovar zavodunun istehsalıdır. Ay usta, əllərinə qüvvət, çox sağ ol, elə bil indicə mağazadan alınıb..."

Xatırladaq ki, Elşadın 34 yaşı var, Azərbaycan Texnologiya Universitetini bitirib, amma sənətə olan həvəsi onu bu emalatxanadan ayrılmağa imkan verməyib. 20 ildir ki, atasının emalatxanasında qalayçılıqla məşğuldur. Ailəlidir, üç övlad atasıdır. Elxan da ailəlidir, amma Orxan subaydır, Cəlal hələ yeniyetmədir. Elxan 13, Orxan isə 7 ildir qalayçılıqla məşğuldurlar, Cəlal isə boş vaxtlarında gəlib atasına və qardaşlarına kömək edir, qalayçılıq sənətini mənimsəməyə çalışır.

Qalayçı Elxan söhbətində bildirdi ki, bura turistlər daha çox gəlirlər. Əşyalara baxıb müəyyən suallar verirlər, hətta şəkil çəkdirənlər də olur. Bəziləri müəyyən antik əşyaları hədiyyə üçün alırlar.

### Diqqət və qayğı

Usta Zahid bu sənətin özünəməxsus incəliklərindən söhbət edərkən ona dəyər verənləri ehtiramla yada saldı:





- Bu sənətin inkişafında, ailəmizin təminatlı dolanışığında Ulu Öndər Heydər Əliyevin boynumuzda böyük haqqı var. Biz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hələ Azərbaycana birinci rəhbərlik etdiyi dövrdən onun sərəncamı ilə vergidən azad edilmişik. Aydan-aya vergi ödəmədən yalnız hesabat veririk. Bu, sənətimizə böyük dəyər, bizə isə dövlət səviyyəsində əvəzsiz qayğıdır. Bu gün də dövlət qayğısı ilə əhatə olunmuşuq.

Hazırda Şuşada, Xankəndidə və digər ərazilərdəki yerli tarixi abidələrin, məscidlərin, qədim hamamların və digər tikililərin bərpasına dair bəzi lazımi avadanlıqların və əşyaların hazırlanması ilə də məşğuluq. Aldığımız sifarişlər bizi məmnun edir. Qürurlanırıq ki, Qarabağda gedən bərpa-quruculuq işlərində mənim və övladlarımın da əməyi var.

### COP29 üçün suvenirlər hazırlanır



Fərdi qaydada sellofanlara bükülərək emalatxananın görməli yerində sərgilənmiş suvenirlərin diqqətimizdən yayınmadığını görən Elşad dilləndi:

- Görürsünüz, Bakı, "Qubinka" necə dəyişib. Müasir tipli yaşayış binaları, salınan yaşıllıqlar göz oxşayır. Bizim məhəlləyə indi turistlər çox gəlir, onların arasında vaxtilə Bakıda - bu ərazilərdə yaşamış insanlar da olur, bəzən bizdən soruşurlar "burada, bu ünvanda, filan məhəllədə filankəslə qonşu olmuşduq, bilmirsiz indi onlar hansı səmtdə yaşayırlar?! Turistlər bəzən qədim əşyalara tamaşa edə-edə şəkil çəkdirirlər. Qalayçılığa dair çoxlu bilgilər əldə etməyə çalışırlar.

Qalayçılıq incə sənətdir. Tamaşa etdiyiniz bu qədim suvenirləri ordan-burdan tapıb gətirib, üstündə işləmişik, onlara yaraşıq vermişik. Noyabrda COP29-a görə şəhərimizə xeyli qonaq gələcək. Bütün şəhər bu mötəbər tədbirə hazırlaşır. Öz növbəmizdə biz də buna hazırlıq görürük. Təcrübədən bilirik ki, onların çoxu şəhərimizi gəzməyə çıxarkən burada da olacaq. Hədiyyəlik əşyalarla maraqlanacaqlar, hətta aldıqları da olacaq. İnanırıq ki, COP29-a gələn xarici turistlər mədəni irsimizin yadigarı olan qalayçılıqla heyranlıqla tanış olub, işlərimizdən zövq alacaqlar.

*Rəhman SALMANLI,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# ABŞ-də 3D printerlə ilk hotel tikilir

**3D printerlərindən artıq daha böyük layihələrdə istifadə edilir. ABŞ-nin Texas ştatında 3D printer ilə dünyanın ilk hoteli tikilir. Layihə "ICON" şirkəti tərəfindən 40 hektarlıq ərazidə reallaşdırılır. Hotel tikintisinin 2026-cı ildə başa çatdırılması planlaşdırılır.**

3D printer texnologiyasının üstünlüyü ondadır ki, bu üsulla hotel tikmək həm asan, həm də ucuz başa gəlir. Hotelin inşasında "ICON"un istifadə etdiyi 3D printerləri digərlərindən dəfələrlə böyükdür. Xammal olaraq isə plastik deyil, "Lavacrete" adlanan xüsusi sement növündən istifadə edilir. Bununla binanın dayanıqlılığı da artır.

Mütəxəssislər bildirirlər ki, uzunmüddətli perspektivdə 3D printerlər inşaat sektorunda ixtisaslı işçilərin yerini alacaq.



# Süni intellekt əsaslı müəllimsiz ilk sinif



**Londondakı "David Game College"ində süni intellekt dəstəkli müəllimsiz ilk sinif tədrisə başlayıb. "Sabrewing" adlı proqram tələbələrin ənənəvi tədris üsullarından uzaqlaşaraq süni intellekt dəstəkli platformalarla təhsil almalarını təmin edir.**

Sözügedən proqram fərdi ehtiyaclara uyğun olaraq individual təhsil təqdim edir. Tələbələr ənənəvi tədris metodlarından fərqli olaraq, inkişaf templərinə uyğun təhsil alırlar. Fərdiləşdirilmiş təhsilə tədris məşqçiləri rəhbərlik edir. Məşqçilər tələbələrin motivasiyasını və inkişafını dəstəkləmək məqsədilə xüsusi olaraq seçilirlər.

İlk dərs sentyabrın əvvəli başlayıb və proqramda başlanğıc üçün 20 tələbə və 3 məşqçi yer alır.

"David Game College" tələbələrə yalnız akademik bilik verməyi deyil, həm də həyat bacarıqları öyrətməyi hədəfləyir. Bu həm də evdə öyrənmə ilə bağlı çətinlik çəkən və ya sinif mühitində qərar tuta bilməyən tələbələr üçün alternativ həldir.




# Yaddaşımız nə qədərdir?



**Tədqiqatçılar uzun illərdir insan beyninin neçə giqabayt olduğunu öyrənmək üçün araşdırma aparırlar. Beynimizsə 86 milyard neyronlardan ibarətdir və bu neyronlar arasında trilyonlarla əlaqə mövcuddur. Neyronların bir-birinə bağlandığı sinaptik əlaqələr məlumatın saxlanılmasını və işlənməsini təmin edir.**

İnsan beyni məlumatları elektron cihazlardan fərqli şəkildə saxlayır. Cihazlarda məlumat bitlərlə saxlanıldığı halda beynimizdəki məlumatlar neyronlar arasındakı əlaqələrin güclənib-zəifləməsi yolu ilə saxlanılır. Bundan əlavə, sabit bir tutum da yoxdur. Yeni məlumatlar öyrənildikcə və köhnə məlumatlar xatırlandıqca, neyronlar arasındakı əlaqələr yenidən tənzimlənir. Yəni insan beyni kompüterdən daha mürəkkəb quruluşa malikdir.

"Scientific American"da yayımlanan araşdırma nəticəsinə görə, insan beyninin ümumi həcminin 2,5 petabayt (1 petabayt = 1 milyon giqabayt) olduğu təxmin edilir. Bu isə 3 milyon saatlıq serialı saxlaya biləcək yaddaş deməkdir.

# Qeyri-adi qulaqcıq



**"Nothing" şirkəti öncədən anons etdiyi yeni qeyri-adi naqilsiz qulaqcığını təqdim edib. "Nothing Ear" digərlərindən fərqli olaraq, qulağın içərisinə deyil, üzərinə yerləşdirilir.**

İdman tərzində olan cihaz ətrafdakı səsin daha yaxşı qəbul edilməsinə hədəfləndiyi üçün özündə ətraf səs-küyün aktiv boğulması funksiyasını birləşdirmir. Qulaqcıqlardan hər biri 14,2 mm-lik audio drayver ilə təchiz olunub. Bununla yanaşı, onların gövdələri sudan qorunma özəlliyinə malikdirlər.

"Nothing Ear" digər cihazlara "Bluetooth" vasitəsilə qoşulur. Onun əsas fərqləndirici özəlliklərindən biri "ChatGPT"yə qoşulmasıdır. "Clear Voice" texnologiyası isə telefon danışıqları zamanı istifadəçi səsinin daha keyfiyyətli ötürülməsinə istiqamətlənib.

Qulaqcıqlar bir dəfə şarj olunandan sonra 8 saat çalışa bilir. Şarj keysi ilə birlikdə bu göstərici 30 saat təşkil edir. "Nothing Ear" 10 dəqiqə şarj prosesində olduqdan sonra 2 saat ərzində çalışır.

# Məlumatları əbədi saxlayan kristal

**İngiltərənin Sausempton Universitetinin alimləri məlumatları milyardlarla il təhlükəsiz şəkildə mühafizə edən 5D yaddaş kristalı nümayiş etdiriblər.**

O, digər formatlardan fərqli olaraq, zamanla pozulmur və 360 terabayt məlumat saxlaya bilir. Kristal 1000 dərəcəyə qədər yüksək temperatura və ekstremal şəraitə qarşı olduqca dözümlüdür. Yaddaş kristalının quruluşu kimyəvi və termal baxımdan ən davamlı materiallardan biri olan kvarsla eynidir. Kosmik radiasiyaya, yüksək temperaturlara və fiziki zərbələrə qarşı davamlı olan kristal hətta 10 tonluq təzyiq altında belə dəyişməz qalır.

Məlumatlar femtosaniyə lazerlərindən istifadə edilərək kristalın içinə üçölçülü şəbəkə şəklində yazılır. Bunun sayəsində kiçik bir kristal parçası terabaytlarla məlumatı saxlaya bilir. Kristalın təqdim etdiyi davamlılıq və uzunömürlülük yalnız insanlığı deyil, həm də nəsli kəsilməkdə olan bitki və heyvan növlərini gələcəkdə yenidən həyata qaytarma potensialını daşıyır.

Kristalda insan genomu da uğurla saxlanılır. Bu genomdakı təxminən 3 milyard hərf hər bir hərfin düzgün mövqedə olduğuna əmin olmaq üçün 150 dəfə sıralanmışdır. İnsan genomunun saxlanıldığı kristal Avstriyanın Hallstatt bölgəsində yerləşən bir duz mağarasındakı "İnsanlığın Yaddaşı" adlı xüsusi zaman kapsulunda qorunur. Kristalın içindəki məlumatların gələcəkdə insanlıqdan sonra var olacaq ağıllı bir növ və ya maşınlar tərəfindən kəşf olunma ehtimalına qarşı, içindəki məlumatların necə istifadə ediləcəyini göstərən vizual görüntülər də kristala yerləşdirilib.

# Yeni smart gözlük



"Meta" "Connect 2024" tədbiri çərçivəsində dünyanın ən innovativ smart gözlüyünü təqdim edib. "Orion" digər məhsullardan fərqli olaraq, holoqramları gözlük üzərinə əks etdirmək üçün mini proyektorlardan istifadə edir. Gözlük istifadəçilərə cihazdakı kameralar vasitəsilə ətrafdakı obyektləri dərk etməyə imkan verir. Kontekstual süni intellekt inteqrasiya edilmiş "Orion" qapalı və açıq məkanlarda istifadə üçün nəzərdə tutulub.

"Orion" soyuducudakı məhsullara görə reseptlər tapmaq və "Vatsap" vasitəsilə videozənglər etmək kimi tapşırıqları yerinə yetirir. Hazırda yalnız şirkət işçiləri gözlükdən istifadə edə bilirlər. Bu məhdud buraxılış "Meta"nın istehlakçı versiyasını təqdim etməzdən əvvəl məhsulu təkmilləşdirmə strategiyasının bir hissəsidir. Şirkətin məlumatına görə, smart gözlüyün hələ inkişaf mərhələsində olmasına baxmayaraq, o, tədqiqat prototipi deyil, indiyə qədər hazırlanan ən mühüm məhsullardan biridir.

Şirkətin hədəfi yeni smart gözlüyün qiymətini aşağı salıb onu hər kəs üçün əlçatan etməkdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*





# Mədəniyyət





**İncəsənət xadimləri**

## Çətin həyat yolu keçən rəssam

**XX əsr Azərbaycan təsviri sənət tarixində öz uğurlu yaradıcılıq fəaliyyəti ilə seçilən qadın rəssamlarımız çox olub. Onlardan Qeysər Kaşıyeva, Maral Rəhmanzadə, Elmira Şahtaxtinskaya, Bədurə Əfqanlı, Güllü Mustafayeva, Xalidə Səfərova, Vəcihə Səmədova, İzzət Seyidova, Bəyim Hacızadə, Elmira Hüseynova, Həyat Abdullayeva, Zivər Məmmədova, Münəvvər Rzayeva və başqaları diqqəti cəlb edən gözəl əsərlər yaratmışlar. Bu əsərlərdəki əlvan rəng qamması, kompozisiya quruluşu, ifadəlilik ünsürü, dekorativplastik ritm, rənglərdən bacarıqla istifadə insanların zövqünü həmişə oxşayıb. Belə sənətkarlardan biri də bu il 105 illik yubileyini qeyd edəcəyimiz Xalq rəssamı Güllü Hacı Naim Mustafa qızı Mustafayevadır.**







G.Mustafayeva əslən Şamaxıdan olsa da, Türkmənistanın Cərco şəhərində anadan olmuşdu. Onun atası Mirzə Ələkbər Sabirin qohumu, anası isə Seyid Əzim Şirvaninin nəslindən idi. Mürəkkəb və çətin həyat yolu keçmiş G.Mustafayeva ixtisas təhsilini Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda almışdı. 1938-ci ildə məktəbi bitirən Güllü həmin ildən müstəqil bədii yaradıcılıq fəaliyyətinə başlamışdır. Rəssam yaradıcılığı boyu süjetli tablo, portret, mənzərə və natürmort janrlarında diqqəti cəlb edən əsərlər qalereyası yaratmışdı. G.Mustafayeva Macarıstan, Fransa, Tunis ölkələrində yaradıcılıq ezamiyyətində olmuş və öz yaradıcılıq manerasını zənginləşdirmişdi. Onun Bakıda əsərlərindən ibarət fərdi sərgiləri təşkil olunmuşdu (1960, 1962, 1965, 1971, 1975, 1979). Rəssamın əsərləri ölkəmizdə Milli İncəsənət Muzeyi, N.Gəncəvi adına Ədəbiyyat Muzeyi, Dövlət Rəsm Qalereyasında saxlanılır. Sənətkarın bədii yaradıcılıq fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Əməkdar rəssam və Xalq rəssamı fəxri adlarına layiq görülüb.

G.Mustafayevanın ərsəyə gətirdiyi süjetli tablo və portret əsərləri arasında "Mirzə Fətəli Axundovun evində axtarış" (1938), "Balaca musiqiçi" (1938), "Nizami qoca aşığı dinləyir" (1941), "Leyli və Məcnun mədrəsədə" (1941), "Məhsəti Gəncəvinin portreti" (1947), "Pambıqçı Bəsti Bağırovanın portreti" (1950), "Məcnunun Leylinin məzarı üzərində ölməsi" (1952), "Professor, oftalmoloq Umnisə Musabəyovanın portreti" (1957), "Rəssam Səttar Bəhlulzadənin portreti" (1963, 1970), "Professor, nevropatoloq Zəhra Salayevanın portreti" (1965), "Ceyran Bayramovanın portreti" (1970), "Rəssam Maral Rəhmanzadənin portreti" (1970), "Yazıçı Süleyman Rəhimovun portreti" (1970), "Yazıçı Abdulla Şaiqin portreti" (1971), "Mənim anam" (1977) və başqalarını qeyd etmək olar. Rəssamın yaratdığı portretlər qalereyasına nəzər yetirdikdə incəsənət xadimlərinin, tibb alimlərinin, müxtəlif peşə sahiblərinin yaddaqalan bədii surətlər qalereyasını görmək olar. Rəssam XII əsrdə yaşamış, məşhur rübailər ustadı, şair Məhsəti Gəncəvinin portretini son dərəcə ustalıqla işləyib. O, axtarışlar apararaq, obrazı yaradarkən ən incə detallara varmış, sonda uğurlu bədii təsir qüvvəsinə malik əsər yaratmışdır. Şairin mənalı obrazı, dövrü və mühiti, memarlıq və geyim üslubu tabloda müvəffəqiyyətlə əks olunub. Bu əsər rəssamın ən uğurlu işlərindən hesab olunur.

G.Mustafayevanın mənzərə əsərlərindən "Xaçmaz mənzərəsi" (1944), "Quba mənzərəsi" (1945), "Dilican. Etüd" (1945), "Şuşa mənzərəsi" (1948), "Qusar mənzərəsi" (1952), "Quba mənzərəsi" (1957), "Buzovna. Etüd" (1968) və başqalarını qeyd etmək olar. Rəssamın mənzərə əsərlərinin adlarına diqqət yetirdikdə onun ölkəmizin dilbər guşələrinə necə yaradıcı məhəbbətlə bağlandığını və ilahinin bəxş etdiyi təbiət gözəlliklərini rənglərin sirli dili ilə təxəyyülündən süzərək tamaşaçısına çatdırmaq istədiyini duymaq olar.

G.Mustafayevanın əsərlərində xüsusi əhəmiyyət kəsb edən və onun yaradıcılığının əsas leytmotivinə çevrilmiş bir istiqamət vardır. Bu, bütün yaradıcılığı boyu sevərək yaratdığı "Bizim uşaqlar" silsiləsini təşkil edən, müxtəlif yaş qruplarında olan uşaqların portretləridir. Uşaq portretini işləmək təbii ki, fərəhli olduğu qədər də mürəkkəbdir. Məsum uşaqlara məxsus daxili hissləri təsvir etmək və onların daxili dünyasını kətanda canlandırmaq olduqca zəhmət tələb edən işdir. O, həmçinin balaca qəhrəmanlarının daxili sərbəstlik və azadlığını öz yazı manerasının köməyi ilə göstərmək istəyib. G.Mustafayevanın "Bizim uşaqlar" silsiləsinə daxil olan çoxsaylı əsərlər qalereyasından "Rahilə" (1960), "Aytən" (1964), "Ülkər" (1964), "Skripka çalan Sevinc" (1965), "Leyla" (1970), "Sevinc" (1970), "Balanisə" (1974), "Rəna" (1971), "Sevda" (1972), "Lalə" (1973), "Gülşən" (1975), "Rəna" (1982) və başqalarının adlarını qeyd etmək olar.

Qeyd etdiyimiz kimi, rəssam xarici ölkələrdə yaradıcılıq ezamiyyətlərində olmuş, görüb müşahidə etdiyi hal, hadisə və məkanları bədii biçimdə rəssam təxəyyülündən keçirərək kətanda canlandırmış, diqqəti cəlb edən tablolar yaratmışdır. Rəssam 1960-cı il Fransa səfərindən "Rəssamlar meydanı", "Paris, Opera teatrı", "Eyfel qülləsi", "Meton şəhəri", 1961-ci il Tunis səfərindən "Ərəb qızı Lətifə", "Tunisli məktəbli", "Qabesalı qadın", "Qoca", "Kasıb ərəb", 1962-ci il Macarıstan səfərindən "Budapeştdə küçə", "Macar aktrisası", "Budapeştli qız", "Dunay sahillərində" və başqa əsərlərini yaratmışdır.

G.Mustafayeva gərgin yaradıcılıq və ömür yolu keçib. O, hələ rəssamlıq məktəbində tanış olduğu, gələcəyin tanınmış rəssamı olacaq Həsən Haqverdiyevlə ailə həyatı qurub. Həyat yoldaşı sürgün olunan rəssam məcburiyyət qarşısında qalaraq ondan boşanıb. Bir daha həyat yoldaşının qayıtmayacağını düşünən G.Mustafayeva tanınmış rəssam Nəcəfqulu İsmayılovla ailə həyatı qurub. Sonradan bəraət alıb qayıdan H.Haqverdiyevlə bir daha həyat yolları bağlanmayıb. Və beləcə bir şəhərdə və binada - rəssamlar evində bu iki rəssam öz ikinci həyatlarını yaşayıblar.

Bu il həmçinin G.Mustafayevanın dünyasını dəyişməsindən 30 il ötür.

*Əsəd QULİYEV,*
*sənətşünas*

**Yeni nəşrlər**

## Zamanın dalğalarında "Könüldən-könülə" fikir yükü daşıyan kitab




**Maraqlı, dəyərli kitablar həmişə diqqəti cəlb edir, oxucu sevgisi qazanır. Tanınmış şair, ədəbiyyatşünas alim, tərcüməçi və publisist, Əməkdar jurnalist Adil Cəmilin bu günlərdə işıq üzü görmüş "Könüldən könülə" kitabı kimi. İllərdən bəridir imzası oxuculara yaxşı tanış olan Adil Cəmil bu kitabı ilə sanki dünya xalqlarının poeziya çələngini yaradıb. "Könüldən könülə" kitabına böyük əziyyətlərə qatlaşaraq tərcümə etdiyi dünya xalqlarının tanınmış şairlərinin seçmə şeirlərini toplayıb. Sözə böyük həssaslıqla, hörmətlə yanaşan A.Cəmil tərcümə etdiyi bu şeirləri gül çələngi kimi poeziya həvəskarlarına təqdim edib. Kitabı açan oxucu onun səhifələrində rus, belarus, bolqar, Ukrayna, qırğız, özbək, ərəb, ingilis və başqa xalqların, həmçinin rusdilli Azərbaycan şairlərinin maraqlı, dəyərli şeirlərini oxuya bilir.**

Dünya xalqlarının poezisiyasını özündə birləşdirən "Könüldən könülə" kitabı həm də böyük sülh missiyasını yerinə yetirir. Xalqları, millətləri bir-birinə yaxınlaşdırır, mehribanlaşdırır. Kitabı vərəqləyən oxucu neçə-neçə xalqın poeziya nümunələri ilə tanış olur, bu xalqların görkəmli şairlərini tanıyır, onların fikir dünyasını öyrənir.

Kitab oxucuların üzünə Bolqarıstanın Xalq şairi İvan Vazovun "Bolqarıstanım" şeiri ilə açılır. Oxucu bu şeirdə şairin qoynunda dünyaya göz açdığı Bolqarıstanı necə böyük ürəklə vəsf etdiyini görür. Xəyalən də olsa, o yerlərə səfər edir. Şairin yaradıcılığından verilən bu kiçik nümunə özü ilə bərabər, həm də vətəni Bolqarıstanı oxuculara tanıtdırır və sevdirir.

Oxucular kitabın sonrakı səhifələrində milliyyətcə çuvaş olan şairlər Georgi Yefimovun, Aleksandr Qalkinin, rus şairləri Valentin Pryaxinin, Nikolay Rıjovun, Vsevolod Azarovun, Konstantin Vanşenkinin, belarusiyalı şair Vasil Zuyonokun, özbək şairi Osman Əzimin, qırğız şair Alıkul Osmanovun, rusdilli Azərbaycan şairləri Leyla Əliyevanın, Aleksandr Xaldeyev, həmçinin türkiyəli, filippinli, kubalı, əlcəzairli şairlərin şeirlərini mütaliyə edirlər. Oxucu dünya və Azərbaycan ədəbiyyatından olan bu seçmələri böyük həvəslə oxuyur və fikir dünyalarını daha da zənginləşdirir.

Məlumdur ki, şeirin tərcüməsi nəsr əsərlərinə baxanda bir az çətindir. Amma bacarıqlı, peşəkar tərcüməçi üçün bunların heç biri çətin deyil. Kitabda yer almış şeirləri oxuduqca tərcüməçi zəhməti, tərcüməçi həssaslığı özünü qabarıq şəkildə göstərir. Hiss olunur ki, şair Adil Cəmil dünya poeziyasını özündə birləşdirən bu kitabdakı şeirləri tərcümə edərkən sözlərə, ifadələrə böyük həssaslıq və sevgi ilə yanaşıb. Yəqin ki, elə kitab da bu sevgidən doğulub. Əsərlərdəki fikri, düşüncəni ifadə etmək, oxucuya olduğu kimi çatdırmaq üçün ən düzgün sözü seçib. Buna görə də kitabda yer alan şeirlər çox oxunaqlıdır. Bütün bunlar tanınmış ədəbiyyatşünas alimin alim kimi sözə böyük sevgisindən, tərcüməçi kimi isə peşəkarlığından xəbər verir.

İnanırıq ki, səhifələrində dünya poeziyasını birləşdirən "Könüldən könülə" kitabı əl-əl gəzəcək, oxucu sevgisi qazanacaq. Tanınmış yazıçı Frensis Bekon kitablardan bəhs edərkən yazırdı: "Kitablar zamanın dalğaları ilə səyahət edən və nəsildən-nəslə öz qiymətli yükünü ehtiyatla aparan fikir gəmiləridir". Əminliklə demək olar ki, "Könüldən könülə" kitabı da səhifələrində daşıdığı qiymətli fikir yükünü zamanın dalğalarını yara-yara gələcək nəsillərə də aparıb çatdıracaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində klassik musiqi axşamı təşkil olunub



**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı çərçivəsində Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində klassik musiqi axşamı təşkil olunub.**

Tədbirdə Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova hər il Azərbaycanda geniş qeyd olunan Milli Musiqi Günü və bu günün birbaşa əlaqədar olduğu ölməz Azərbaycan bəstəkarı, musiqişünas alim, dramaturq, maarifçi və ictimai xadim Üzeyir bəy Hacıbəyli barəsində məlumat verib. Qeyd edilib ki, Ümummilli Lider Heydər Əliyevin 1995-ci ildə imzaladığı sərəncama əsasən, məhz dahi bəstəkarın doğum günü Azərbaycanda Milli Musiqi Günü kimi bayram edilir. Sevindirici haldır ki, Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra dahi Üzeyir bəyin vətənində, Azərbaycan musiqisinin beşiyi Şuşada yenidən Azərbaycan musiqisi səslənir, festivallar keçirilir, insanlar öz doğma torpaqlarına geri dönürlər. Azərbaycan xalqı Vətən torpaqlarının azadlığı, ərazi bütövlüyünün bərpası uğrunda canından keçən bütün övladlarının əziz xatirəsini minnətdarlıqla yad edir.

Üzeyir bəy Hacıbəylinin həyat və yaradıcılığına həsr olunmuş geniş təqdimat zamanı dahi bəstəkarın ömür və yaradıcılıq yoluna nəzər salınıb, onun nəinki Azərbaycan, həm də klassik musiqi tarixində tutduğu yerdən bəhs edilib. Tədbir zamanı Üzeyir bəy Hacıbəylinin eyniadlı məşhur operettasının motivləri əsasında 1945-ci ildə ekranlaşdırılan "Arşın mal alan" bədii filmindən parçalar nümayiş etdirilib.

Sonra Vyanada yaşayan musiqiçilər Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət klassik konsert proqramı ilə çıxış ediblər. Avstriyada yaşayan gənc Azərbaycan musiqiçiləri və onların həmkarları - Fərid Feyzullayev (violin), Daniele de Veççi (violin), Jalə Rəsulova (fortepiano), Lidiya Maşek (violençel), Filip Henri (gitara) Üzeyir bəy Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev, Arif Məlikov, Soltan Hacıbəyli və digər bəstəkarların əsərlərini səsləndiriblər.

**Muzeylərimiz**

## Qubadlının tarixini yaşadan məkan




**Şanlı-şöhrətli tarixi keçmişimizi yaşadan, dünənimizdə baş verən hadisələri unudulmağa qoymayan, obyektiv gerçəklikləri gələcək nəsillərə çatdıran məkanlardan biri də muzeylərimizdir. Dövlət rəhbərliyi vacib və əhəmiyyətli missiyanı yerinə yetirən bu mədəniyyət müəssisəsindən diqqət və qayğısını heç zaman əsirgəməyib. Tarixin danışan dili olan belə muzeylərdən biri də Qubadlı Tarix-Diyarşünaslıq Muzeyidir.**




Qədim oğuz-türk yurdu olan Zəngəzurun Qubadlı rayonu çoxsaylı tarixi abidələr və yaşayış məskənləri ilə zəngindir. Bunların içərisində qədim qəbiristanlıqlar, mağaralar, məbədlər, qalalar, türbələr, tağlı körpülər xüsusi yer tutur.

Qubadlı 1993-cü il avqustun 31-də Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunmuşdu. Rayonun işğalını təəssüf hissi ilə qarşılayan Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının adıçəkilən bölgəsinə və buranın sakinlərinə münasibətini belə ifadə edərək bildirmişdir: "O torpaqlar əməksevər insanların qeyrət, bərəkət ünvanı idi . Qubadlılılar Qarabağa, Laçına, Kəlbəcərə Ermənistandan gələn yolun üstündə möhtəşəm qala kimi dayanmışdılar. Onun işğalından bərk sarsıldım".

Qubadlı Rayon Tarix-Diyarşünaslıq Muzeyi də Ulu Öndərimizin sərəncamı ilə 1980-ci il mayın 6-da təsis olunub. Muzeyə qısa müddətdə minlərlə tarixi əşya toplanıb, hədiyyə edilib. Muzey qədim dövr, sovet dövrü, fauna və flora və s. bölmələrdən ibarət idi. Burada 5000-ə yaxın eksponat vardı. İşğal nəticəsində Tarix-Diyarşünaslıq Muzeyi də erməni qəsbkarları tərəfindən dağıdılmış, eksponatları, muzey əşyaları tamamilə məhv olmuş, oğurlanmış və talan edilmişdir.

Məcburi köçkünlük dövründə yaranan məkan problemi, əməkhaqqı, muzey işçilərinin dağınıq, fərqli şəhərlərdə məskunlaşmalarına baxmayaraq, onlar əsl vətənpərvərlik və cəfakeşlik nümunəsi göstərmişdilər. Öz işlərindən ayrılmamış, yeni əşyalar toplayaraq muzeyin fəaliyyətini bərpa etmək arzularını bildirmişdilər. Qubadlı Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə muzey 2013-cü ildə Sumqayıt şəhərində yerləşən icra hakimiyyətinin binasında müasir və geniş, işıqlı otağa köçürülmüşdür.

Elə muzeyin kiçik kollektivi və eksponatları ilə də orada tanış olduq. Onlar yaradılan şəraitə görə minnətdarlıqlarını bildirdilər, daim dövlətçiliyə sədaqətlərini, mədəniyyət siyasətinin icrasına hazır olduqlarını söylədilər. Muzeyin direktoru vəzifəsini müvəqqəti icra edən Xatın Ağayeva bildirdi ki, Azərbaycan əraziləri zaman-zaman yadellilərin təcavüzlərinə və işğallarına məruz qaldıqda xalqımız toparlanaraq doğma vətənini müdafiə etmişdir: "Bu baxımdan Zəngəzur həmişə Azərbaycan xalqının alınmaz qalası olub. Zəngəzur, o cümlədən Qubadlı strateji cəhətdən və relyefinə görə ən əlverişli coğrafi mövqeli, müdafiə qabiliyyətli qədim torpaqlarımızdır. Bütün bu tarixi faktların mühüm məxəzi olan muzeyimiz də ilk olaraq 1968-ci ildə Qubadlı rayon Mədəniyyət Şöbəsinin müdiri Süleyman Rüstəmovun zəhməti ilə yaradılıb və Mərkəzi Kitabxanadakı kiçik bir otaqda yerləşdirilib".

Qubadlı Rayon Tarix -Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi Günel Quluzadə hazırda muzeyin fondunda əsasən XX əsri əhatə edən 1091 eksponatın qorunduğunu söylədi: "Bunların içərisində mis, saxsı qablar, keramika, toxuculuq məmulatları, əslən Qubadlı rayonundan olan yazıçıların, elm, mədəniyyət xadimlərinin kitabları, fotoları, Xalq qəhrəmanı Qaçaq Nəbidən bu günə qədər -1993-cü il Qarabağ müharibəsində, 2016-cı il Aprel döyüşlərində, həmçinin 2020-ci il 44 günlük Vətən müharibəsində canını fəda edən Milli qəhrəmanlara, şəhidlərə həsr edilmiş guşə və stendlər təşkil edilib. Muzeyin ən qədim eksponatı XIX əsrə aiddir".

Muzey hazırda 4 əməkdaşla fəaliyyət göstərir. Fond nəzarətçisi Tərlan Əsədova və başqaları işlərinə böyük məsuliyyətlə, eksponatlara qayğı ilə yanaşırlar.

Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. İşğaldan azad edilmiş Qubadlı rayonunda - doğma yurdumuzda Tarix Diyarşünaslıq Muzeyinin yenidən bərpası hər bir sakinin arzusudur.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

## Bakıda Koreya yemək festivalı təşkil edilib

**Koreya Respublikasının Azərbaycandakı səfirliyi tərəfindən Bakıda Koreya yemək festivalı keçirilib. AZƏRTAC xəbər verir ki, festivalda 200-ə yaxın qonaq iştirak edib.**



Tədbirdə Koreyanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə keçirilən 2023-cü və 2024-cü il K-pop festivalının qaliblərinin çıxışları dinlənilib.

Budəfəki festivalda bulqoqi, dokbokki, dakqalbi, cabçe, kimbab, kimçi, sunconqva kimi müxtəlif Koreya mətbəxi nümunələri hazırlanaraq qonaqlara təqdim olunub. Eyni zamanda tədbir iştirakçılarına Koreya məzələri, çay, dəniz yosunu və bu ölkənin ərzaq məhsulları tanıdılıb.

Səfir Li İn Yonq çıxışında Koreya mətbəxinin həm dadı, həm də qidası ilə hər kəsin zövqünü oxşadığını və bu festival vasitəsilə Koreyanın dadını Azərbaycanda təbliğ etmək fürsəti əldə etdiyinə görə şad olduğunu bildirib.

Tədbir Koreya restoranının çox az olduğu Azərbaycanda insanların Koreya yeməkləri və qida məhsulları ilə tanış ola bildiyi gözəl bir fürsətə çevrilib.

Gələcəkdə də Koreya Respublikasının Azərbaycandakı səfirliyi belə tədbirlər vasitəsilə azərbaycanlılara Koreya yeməklərini dadmaq imkanları yaratmağa davam edəcək.

# Haiti Fransadan təzminat tələb edir

## 200 il əvvəl Port-o-Prens müstəqillik üçün Parisə 560 milyon dollar verib





**Haiti Fransadan Parisin müstəmləkəçilik siyasətinin ölkəyə vurduğu zərərin ödənilməsini tələb edir. Bunu Karib hövzəsi dövlətinin Keçid Prezident Şurasının sədri Edqar Leblan Fil BMT Baş Assambleyasının iclasında deyib: "1804-cü il yanvarın 1-də vətənimizin qurucu atası general Jan-Jak Desallin Haitinin müstəqilliyini elan edərkən insan hüquqlarına beynəlxalq status qazandırdı. Biz müstəmləkə nizamının və köləliyin aradan qaldırılması prosesini işə saldıq".**

Fil qeyd edib ki, Haiti qaradərililərin dünyada birinci müstəqil ölkəsidir. O bildirib ki, tarixi ədalətsizlik ölkənin inkişafını ləngidib: "1825-ci ildə Haiti Respublikası müstəqilliyin tanınması müqabilində Fransaya böyük bir fidyə ödəməyə məcbur olub və bu, ölkəni yoxsulluğa sürükləyib".

Siyasətçinin vurğuladığı kimi, bu borc haitililərin köləlik buxovlarından xilas olduqları cəsarətin cəzasının bir növü olub. Bu, bir çox nəsillər üçün ölkənin potensialını boğan ədalətsiz cəza idi...

Haiti liderinin sözlərinə görə, onun ölkəsi ədalət axtarır: "Biz Parisi mənəvi və tarixi borcun tanınmasına və xalqımıza bu ədalətsiz keçmişin görünməz buxovlarından qurtulmasına imkan verəcək lazımi təzminatın həyata keçirilməsinə çağırırıq. Ödədiyimiz vəsaiti qaytarmağın vaxtı çatmayıbmı? Ölkəmiz bir sıra hökumətlər, eləcə də BMT-nin bəzi qurumları tərəfindən tanınma və keçmişdə dəymiş ziyanla bağlı reparasiyaların ödənilməsinə yönəlmiş konkret tədbirlər çərçivəsində irəli sürülən təklifləri alqışlayır".

Şura sədri əlavə edib ki, Haiti müstəmləkəçilik siyasətinin qurbanı olan ölkələrlə keçmiş müstəmləkəçi dövlətlər arasında dialoq mexanizminin yaradılması prosesində BMT-yə güvənir.

Haitidə təzminat məsələsi ilk dəfə deyil ki, qaldırılır. Bu ilin aprelində vətəndaş cəmiyyəti qruplarının yerli koalisiyası haitililərin əvvəlki borcunu qaytarmaq üçün Parisin Port-o-Prensə milyardlarla dollar təzminat ödəməli olduğunu bildirmişdi. 2022-ci ildə "The New York Times" qəzeti hesablayıb ki, haitililər azad yaşamaq üçün Fransaya bugünkü pulla təxminən 560 milyon dollar ödəyiblər.

Qəzet yazır ki, bu məbləğ Haitidə qalsaydı, ölkə 21 milyard dollar qazana bilərdi.

Xatırladaq ki, Haiti aclıqdan, siyasi qeyri-sabitlikdən və təbii fəlakətlərdən əziyyət çəkən dünyanın ən kasıb ölkələrindən biridir.

2010-cu il yanvarın 12-də ölkədə baş vermiş dəhşətli zəlzələ nəticəsində 222000-dən çox adam həlak olub, 300000-dən artıq adam yaralanıb. 1,3 milyon insan evindən məhrum olub.

Bundan sonra Haitidə ölümcül vəba epidemiyası baş verib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Qərbi Azərbaycan İcması Aİ-nin nümayəndəsi Peter Stanonun qeyri-konstruktiv bəyanatını pisləyib

**Qərbi Azərbaycan İcması olaraq, Avropa İttifaqının (Aİ) rəsmi nümayəndəsi Peter Stanonun Ermənistanın silahlandırılmasına və Avropa İttifaqının Ermənistandakı missiyasının (EUMA) fəaliyyətinə haqq qazandıran qeyri-konstruktiv bəyanatını qətiyyətlə pisləyirik.** AZƏRTAC **xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.**

Qeyd olunub ki, sərhəd məsələlərini əhatə edən bir missiya olan EUMA-nın digər sərhəd ölkəsi ilə koordinasiya edilmədən genişləndirilməsi və mandatının uzadılması qeyri-dost addımıdır.

"Bundan əlavə, missiya etnik azərbaycanlılara qarşı ayrı-seçkilik, qərəz və etinasızlıq nümayiş etdirib. Belə ki, missiyanın mandatında münaqişənin sərhəd bölgələrində yaşayan insanların vəziyyətinə təsirini araşdırmaq məsələsinin qeyd edilməsinə və dəfələrlə müvafiq müraciətlər göndərməyimizə baxmayaraq, EUMA müntəzəm patrul etdiyi Ermənistanın sərhəd bölgələrindən qovulmuş azərbaycanlıların taleyinə biganə qalmışdır.

Hərbiləşdirmə məsələsinə gəldikdə isə, vurğulayaq ki, həm Aİ, həm də onun üzv dövlətləri, ilk növbədə Fransa, Ermənistanın genişmiqyaslı silahlandırılmasını həyata keçirir. Aİ-nin "Avropa Sülh Fondu" vasitəsilə və digər yollarla etdiyi hərbi, maliyyə, inkişaf və iqtisadi yardımlar Ermənistanın Azərbaycanda on milyardlarla ABŞ dolları məbləğində dağıntılara səbəb olmuş təcavüzkar hərəkətlərinin mükafatlandırılması və onun Azərbaycana qarşı yeni hücumlara təhrik edilməsi kimi qiymətləndirilməlidir. Aİ-nin Azərbaycana mina təmizlənməsi ilə bağlı etdiyi cüzi miqdarda yardım isə Ermənistanın hərbiləşdirilməsinə edilən yardımın balansı kimi qələmə verilə bilməz.

Hamıya məlumdur ki, Ermənistan azacıq da olsa hərbi üstünlük hiss edən kimi, hərbi təcavüzə əl atır. Bu baxımdan, revanşist meyillərin güclü olduğu və təcavüzkar tarixçəyə malik Ermənistanın silahlandırılması suveren seçim kimi qiymətləndirilə və Azərbaycanın qanuni müdafiə tədbirləri ilə müqayisə oluna bilməz.

Buna görə də biz Aİ-dən geosiyasi ayırıcı xətləri regiona gətirməməyi, Ermənistanın militarizmini gücləndirməyə son qoymasını və əvəzində Ermənistanın təcavüzünün dağıdıcı nəticələrinin aradan qaldırılması üçün Azərbaycana yardım göstərməsini tələb edirik", - deyə icmanın bəyanatında vurğulanıb.

# Fransa diplomatiyasının Taleyrandan Ermənistandakı səfir səviyyəsinə düşməsi acınacaqlıdır

**Özünü Fransanın Ermənistandakı səfiri kimi qələmə verən şəxs gülünc açıqlamalarını davam etdirir. O, tamam aidiyyətsiz bir məsələni belə öz aləmində Azərbaycana hücum etmək imkanı kimi görür, diplomat kimi deyil, daşnak, revanşist erməni kilsəsinin təmsilçisi kimi danışır.**

Xüsusən Ermənistanın baş nazirinin BMT Baş Assambleyasında çıxışından sonra belə açıqlamalar verməklə o, təkcə özünü yox, həm də son illərdə bir-bir ölkələrdən qovularaq biabır olmuş Fransanı daha da gözdən salır. Fransa diplomatiyasının Taleyrandan Ermənistandakı səfir səviyyəsinə düşməsi acınacaqlı durumdur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

"Özünü səfir kimi təqdim edən şəxsə zəruri bir xatırlatma etmək istərdik ki, işğaldan otuz il ərzində əziyyət çəkmiş Azərbaycandır və Fransa buna faktiki olaraq dəstək verib. Həmçinin xatırlatmaq istərdik ki, Əhmədiyyə Cəbrayılovun nümunəsində Azərbaycan xalqının oğulları nasist Almaniyasının işğalı altında olan Fransanı azad etmək üçün fədakarlıqla mübarizə aparıblar", - deyə bəyanatda qeyd olunur.

# Ölkə ərazisində havanın yağmursuz keçəcəyi gözlənilir

**Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-18°, gündüz 22-26° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək, gecə və səhər bəzi yerlərdə arabir duman olacağı, mülayim şərq küləyi əsəcəyi ehtimal edilir. Havanın temperaturu gecə 12-17°, gündüz 22-27°, dağlarda gecə 4-8°, gündüz 8-13° isti olacaq.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Azərbaycanın lüks turizm potensialı Moskvada təbliğ olunub

**Azərbaycan Turizm Bürosunun iştirakı ilə sentyabrın 26-27-də Moskva şəhərində keçirilən "Luxury Travel Mart (LTM) Moscow Autumn" tədbirində ölkəmizin lüks turizm potensialı tanıdılıb.**



Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, tədbirdə iştirakın əsas məqsədi Azərbaycanın qabaqcıl lüks turizm destinasiyası kimi mövcud imkanlarını qlobal müstəvidə nümayiş etdirmək, potensial tərəfdaşları müəyyənləşdirmək, həmçinin təbliğat fəaliyyətlərini genişləndirməkdir.

Rusiyanın lüks turizm üzrə ixtisaslaşmış aparıcı turoperator və agentlikləri ilə keçirilən B2B (biznesdən-biznesə) görüşlərdə Azərbaycanın turizm potensialı, o cümlədən xizək kurortları, Bakı şəhər turları, sağlamlıq və termal istirahət mərkəzləri, eləcə də işgüzar və lüks turizm məhsulları haqqında məlumat verilib.

Qeyd edək ki, 2024-cü ilin yanvar-avqust aylarında Rusiyadan Azərbaycana ümumilikdə 501 417 nəfər səfər edib ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 18 faizdən çox artıb.


## "Yelo Bank" ASC-nin səhmdarlarının nəzərinə

05 noyabr 2024-cü il tarixdə saat 11:00-da Bakı şəhəri, AZ1122, Həsən bəy Zərdabi küçəsi, 81k ünvanında yerləşən "Yelo Bank" ASC-nin baş ofisində səhmdarların növbədənkənar Ümumi Yığıncağı keçiriləcəkdir. Yığıncaqda aşağıdakı məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:

1. Yığıncağın gündəliyində duran cari və təşkilati məsələlərə baxılması.

Yığıncaqda iştirak etmək üçün şəxsiyyət vəsiqəsi və müvafiq səlahiyyət təsdiqedici sənədləri təqdim etməyiniz xahiş olunur.

Gündəlikdə duran məsələlər üzrə materiallar elektron poçt vasitəsilə göndəriləcəkdir.

***"Yelo Bank" ASC-nin Müşahidə Şurası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


# Bakı Beynəlxalq Kitab Sərgisinə hazırlıq prosesi naşirlərlə birgə müzakirə edilib

**10-cu Bakı Beynəlxalq Kitab Sərgisinə hazırlıq prosesi ilə əlaqədar Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyinin və nəşriyyat rəhbərlərinin iştirakı ilə görüş keçirilib.**

Bu barədə AZƏRTAC-a Mədəniyyət Nazirliyindən bildirilib.

Bakı Beynəlxalq Kitab Sərgisinin Təşkilat Komitəsinin sədri, nazir müavini Fərid Cəfərov bildirib ki, bu il sərginin 10 illik yubileyidir və ötən illərlə müqayisədə sərginin müddəti uzadılıb. İlk dəfə olaraq builki sərgi 7 gün fəaliyyət göstərəcək. Kitab festivalı çərçivəsində müxtəlif formatda 320-dən çox tədbir təşkil olunacaq və bu statistika Bakı Beynəlxalq Kitab Sərgisinin 15 illik tarixində ən yüksək göstəricidir.

Nazir müavini qeyd edib ki, sərgidə 19 ölkədən 56 xarici təşkilat, kitab sənayesinin 110 subyekti iştirak edəcək və builki sərginin fəxri qonağı İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) olacaqdır.



Görüş çərçivəsində sərginin ümumi proqramı, "Bakı-Ekspo" Mərkəzinə təşkil olunacaq avtobusların gediş-gəliş qrafiki və marşrut xətləri, sərginin təbliğatı ilə əlaqədar qarşılıqlı görüləcək işlər, nəşriyyatlar tərəfindən kitablara böyük endirimlərin tətbiq olunması və digər təşkilati məsələlərlə bağlı geniş müzakirə aparılıb.

Sonda nazirliyin dəstəyi ilə beynəlxalq kitab sərgilərində yerli nəşriyyatların iştirakına dəstək göstərilməsi, regionlarda kitab sərgilərinin təşkil olunması və mütaliə mədəniyyətinin formalaşdırılması məqsədilə birgə layihələrin həyata keçirilməsi məsələləri də müzakirə edilib.

Məlumat üçün bildiririk ki, ölkəmizdə kitab sənayesinin inkişafı və mütaliə mədəniyyətinin formalaşdırılması məqsədilə Mədəniyyət Nazirliyi və kitab industriyasının subyektləri arasında mütəmadi olaraq görüşlər keçirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumiqtisad fakültəsinin 1984-cü il buraxılış 932-ci qrupun məzunları qrup yoldaşları Azər Abdullayevə anası

**TAVAT ƏLİŞ QIZI ABDULLAYEVANIN**

Gəncə şəhərində vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səlim Səlimbəyli, Hacıbaba Cəfərov, Əfqan Xudaquliyev, Nəsib Nəbioğlu, İlqar Misirzadə, Baxış və Əlibaba Məmmədovlar, Hidayət İsmayılov, Adil, Əyyub və Rafiq Hüseynovlar Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kəlbəcər Rayon Polis Şöbəsinin sabiq rəisi, istefada olan polis polkovniki Elçin Abdullayevə anası

**TAVAT ƏLİŞ QIZI ABDULLAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səlim Səlimbəyli, Hacıbaba Cəfərov, Əfqan Xudaquliyev, Nəsib Nəbioğlu, İlqar Misirzadə, Baxış və Əlibaba Məmmədovlar, Hidayət İsmayılov, Adil, Əyyub və Rafiq Hüseynovlar Şahsuvar və Azər Abdullayevlərə əzizləri

**TAVAT ƏLİŞ QIZI ABDULLAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **4195**
Sifariş **2174**

Qiyməti 60 qəpik